www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 27-28 oktyabr 2018-ci il Şənbə № 228 (7117) Qiyməti 60 qəpik

**Xəbər**

**Nazirlik 9 şadlıq evinin bağlanması üçün məhkəməyə müraciət edəcək**

yazısı səh.2-də

**Gündəm**

**ABŞ-dan ziddiyyətli Qarabağ mesajları... yaxınlaşan sülhdür, yoxsa müharibə?**



Boltonun region səfəri cavablar əvəzinə, sualları çoxaldıb - səbəb; rusiyalı hərbi ekspert: "Qarabağda müharibə başlasa bir-iki günə Azərbaycanın qələbəsi ilə bitəcək...."

yazısı səh.11-də

**"Bakı şəhəri bu gün vaxtı ilə Cenevrənin, Vyananın oynadığı rolu oynamağa başlayıb" - Elman Nəsirov**

yazısı səh.12-də

**Soros Fondu Avropa ölkələrindən sıxışdırılıb çıxarılır**

yazısı səh.6-da

**Müxalifət bələdiyyə seçkilərində iştirak etmək istəyir, amma...**

yazısı səh.12-də

**Eşşək biznesinə niyə əngəl törədilir - üç rəy**

yazısı səh.4-də

**"Vaşinqton Ermənistanı seçim qarşısında buraxmayacaq" - Qafar Çaxmaqlı**

yazısı səh.5-də

**"Skripal işi"nə görə sanksiya tətbiq edən Qərb Qaşıqçı işində susur - müəmma**

yazısı səh.9-da

**Avropanı idarə edən və övladı olmayan liderlər...**

yazısı səh.15-də

**Məşhur "Koçak Gold"un 39 kq qızılı Eldar Mahmudova "bağışlaması"nın sirri - sensasion təfərrüat**

yazısı səh.6-da

**Azərbaycanın və azərbaycanlıların xaricdəki yatırımları**

yazısı səh.10-da

# KREML "KRANLARI" BAĞLAYIR - ERMƏNİSTAN BELƏ CƏZALANDIRILIR

Rusiyada erməni miqrantlar sıxışdırılmağa başlayıb - onlara nəzarət 4 dəfə artıb; işğalçı ölkədə Şimal xofu yaşanır; deputatdan xəbərdarlıq: "Ermənistandakı vəziyyət qeyri-sabitliyə aparır..."




yazısı səh.5-də

# Sahibkarlardan Qida Təhlükəsizliyi Agentliyinə ittihamlar

İş adamları deyir ki, AQTA əməkdaşları ASAN Xidmətdə fəaliyyətdən yayınır, onları qurumun öz ofisinə çağırırlar, süründürməçiliyə yol verirlər...

yazısı səh.4-də



**Azərbaycanın ən böyük tikinti maqnatı ilə sensasion müsahibə- "Şərurlu İsfəndiyar" danışdı...**

yazısı səh.3-də



*Xalq yazıçısı Anar:*

**"Yazıram da, indi bilmirəm "şah əsər"dir, ya "vəzir əsər"dir"**

yazısı səh.7-də



*Aynur Camalqızı:*

**"Belə qüvvələrin başında hazırda həbsdə olan Hüseyn Abdullayevin adı çəkilirdi"**

yazısı səh. 8 və 9-da

YENİ MÜSAVAT
N 228 (7117) 27 oktyabr 2018



# ASAN Xidmətin səlahiyyətləri artırıldı - prezident fərman verdi

**Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli fərmanında dəyişiklik edilməsi barədə fərman imzalayıb.**

Dəyişikliklərə əsasən, fərmana aşağıdakı məzmunda 5.7.4-cü yarımbənd əlavə edilir: "5.7.4. torpaq üzərində mülkiyyət hüquqlarının təkrar dövlət qeydiyyatına alınması barədə çıxarışın, həmin torpaq sahəsinin planının və ölçüsünün verilməsi;".

5.9-cu bənd aşağıdakı redaksiyada verilir: "5.9. hüquqi və fiziki şəxslərə arxiv arayışlarının, arxiv sənədlərindən çıxarışların, arxiv sənədlərinin təsdiq olunmuş surətlərinin verilməsi;".

Bundan başqa, aşağıdakı məzmunda 5.11-2-ci bənd əlavə edilir: "5.11-2. əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyata alınması;".

5.15-ci bənd aşağıdakı redaksiyada verilir:

"5.15. hərbi qeydiyyatla bağlı:

5.15.1. yaşayış yeri üzrə qeydiyyata alındığı və ya qeydiyyatdan çıxarıldığı hallarda çağırışçıların və hərbi vəzifəli vətəndaşların hərbi qeydiyyata alınması və hərbi qeydiyyatdan çıxarılması;

5.15.2. vətəndaşın hərbi qeydiyyatda olmasına dair arayışın verilməsi;

5.15.3. vətəndaşa müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət verildiyinə dair arayışın verilməsi;

5.15.4. həqiqi hərbi xidmət keçmiş şəxsə hərbi xidmətkeçmə haqqında arayışın verilməsi;

5.15.5. vətəndaşın müddətli həqiqi hərbi xidmətə göndərildiyinə dair arayışın verilməsi;".

Həmçinin 5.17-ci bənd aşağıdakı redaksiyada verilir:

"5.17. qida təhlükəsizliyi ilə bağlı əməliyyatların qeydiyyatı:

5.17.1. qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlərin qida təhlükəsizliyi qeydiyyatına alınması və müvafiq dövlət reyestrindən çıxarışın (onun dublikatının) verilməsi;

5.17.2. qeydiyyata alınmış subyektlərin reyestr məlumatlarında dəyişiklik edilməsi;

5.17.3. qida təhlükəsizliyi sertifikatının verilməsi;

5.17.4. ixrac edilən heyvanlara və heyvan mənşəli məhsullara beynəlxalq baytarlıq sertifikatının verilməsi;

5.17.5. idxal və istehsal edilən baytarlıq preparatlarının dövlət qeydiyyatına (təkrar qeydiyyata) alınması və bu barədə qeydiyyat şəhadətnaməsinin (təkrar qeydiyyat şəhadətnaməsinin) verilməsi;

5.17.6. bitki və bitkiçilik məhsullarının ixracına (təkrar ixracına) fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatının verilməsi;

5.17.7. daxili karantin sertifikatının verilməsi;

5.17.8. pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin qeydiyyata alınması və qeydiyyat (təkrar qeydiyyat) şəhadətnaməsinin verilməsi;

5.17.9. Avropa İttifaqının yeyinti məhsullarının idxalı ilə bağlı tələblərinin icrasını həyata keçirmək məqsədilə həmin ölkələrə yeyinti məhsullarının ixracı ilə məşğul olan istehsal və emal müəssisələrinə müvafiq sənədlərin (məlumatların) verilməsi;".

❑ **AzərTAc**

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

# Nazirlik restoran və şadlıq saraylarının bağlanması üçün məhkəməyə müraciət edəcək

**"9 iaşə obyektinin fəaliyyətinin dayandırılması üçün məhkəmə orqanları qarşısında vəsatət qaldırılacaq". "Report" xəbər verir ki, bunu mətbuat konfransında Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ətraf mühit üzrə milli monitorinq departamentinin direktoru Ramal Bağırov deyib.**



Onun sözlərinə görə, Nazirlik tərəfindən müasir standartlara cavab verən təmizləyici qurğuları olmayan iaşə obyektlərinin sahiblərinə havaya buraxdıqları tüstü və qoxuya görə verilən vaxtdan artıq beş ay keçib: "Bu proses may ayından başlayıb və bu günədək Bakı şəhərinin inzibati ərazisində və Abşeron rayonunda yerləşən 301 ictimai iaşə obyektlərinin fəaliyyət göstərdiyi ətraf ərazilərdə Nazirliyin mütəxəssisləri tərəfindən monitorinqlər aparılıb, atmosferdən hava nümunələri götürülüb və atmosferə buraxılan zərərli qaz birləşmələrinin miqdarının yol verilən qatılıq həddindən dəfələrlə artıq olduğu müəyyən edilib. Bu da havanın lokal xarakterli çirklənməsinə və əhalinin haqlı narazılığına səbəb olur. Bununla bağlı nazirlik tərəfindən obyekt sahiblərinə müasir standartlara cavab verən təmizləyici qurğular quraşdırılması məqsədilə müddətli "məcburi göstəriş"lər verilib. Xeyli vaxt keçməsinə baxmayaraq, bu günədək yalnız 53 ictimai iaşə obyektində müasir qaz-toztutucu qurğular quraşdırılıb, 180 obyektdə quraşdırma işləri aparılır. Ötən beş ay ərzində hər bir obyekt sahibi təmizləyici qurğu quraşdıra bilərdi. Lakin artıq müddət bitdiyindən 58 obyekt barəsində qanunamüvafiq tədbirlər görülüb, akt və protokol tərtib olunub, cərimə tətbiq edilib".

R.Bağırov bildirib ki, 9 obyektin fəaliyyətinin dayandırılması üçün isə məhkəmə orqanları qarşısında vəsatət qaldırılması məqsədilə sənədləşmə işləri aparılır: "Bunlar Yasamal rayonunda yerləşən "Filiz Palace", Binəqədi rayonundakı "Tərlan", "Wite Palace", Nizami rayonundakı "Milord", "Xəmsə", "Dan ulduzu", Xətai rayonundakı "Neapol", Suraxanı rayonundakı "Turan", Sabunçu rayonundakı "Arzu" ictimai iaşə obyektləridir".

"Noyabr ayının 1-dən etibarən Azərbaycanın paytaxtdan kənar rayonlarının iaşə obyektlərində də monitorinq və araşdırmalara başlanılacaq". Bunu da Ramal Bağırov deyib.

O xatırladıb ki, nazirliyin rayonlarda da idarələri var: "Ayın 1-də artıq rayonlardakı iaşə obyektlərinin siyahısı hazır olacaq və monitorinq başlanacaq".

Mətbuat konfransında ETSN-in Ekoloji maarifləndirmə və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Umayra Tağıyeva deyib ki, nazirlik plastik məhsullardan istifadənin qadağan olunması ilə bağlı kompleks tədbirlər planı hazırlayır.

O bildirib ki, dünən Avropa Parlamenti tərəfindən plastik qablaşdırma məhsullarının qadağan olunması ilə bağlı qərar qəbul olunub: "Qərara görə plastik məhsulların istifadəsi 2021-ci ilədək qadağan olunmalıdır. Ölkəmizdə də bu istiqamətdə artıq müəyyən işlər görülməkdədir. Belə ki, nazirlik tərəfindən kompleks tədbirlər planı hazırlanır.

Bu məqsədlə prosesin ilkin mərhələsində ictimai rəyin öyrənilməsi üçün əhali arasında sorğu keçirilməsi planlaşdırılır. Əlbəttə ki, bu tədbirlər bütün tərəflərin maraqlarını nəzərə alınaraq mərhələli şəkildə həyata keçiriləcək".



## Gələn il Azərbaycanda tələbələrin təqaüdləri artırılacaq

**Gələn il Azərbaycanda tələbələrin təqaüdləri artırılacaq.**

"Report" xəbər verir ki, bu, ölkənin 2019-cu il üzrə dövlət büdcəsi zərfində əksini tapıb.

Sənəddə qeyd olunub ki, 2019-cu ildə ali, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin tələbələri və şagirdlərinin, Azərbaycan Milli Elmlər Akademiyasının magistrantlarının və doktorantlarının təqaüdü, ali məktəb tələbələri üçün Prezident təqaüdü, Prezidentin fərdi təqaüdü və fəxri adlara görə təqaüdün məbləği artırılacaq. Gələn il tələbə təqaüdlərinin ödənilməsinə ümumilikdə 189,5 milyon manat vəsait ayrılacaq.

Eyni zamanda, dövlət büdcəsində Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxs üçün 8 milyon manat vəsait ayrılması nəzərdə tutulub.

Qeyd edək ki, gələn ilin dövlət büdcəsindən təhsil xərclərinə 2274,6 milyon manat vəsait ayrılıb ki, bu da 2018-ci ilə nisbətən 230,6 milyon manat çoxdur.



## Bakı sakini kafedə amansızlıqla öldürüldü

**Bakıda kafedə kişi döyülərək öldürülüb. «Trend»in məlumatına görə, hadisə paytaxtın Xətai rayonu, M.Hadi küçəsindəki "Ordubad" kafesində baş verib. Bakı sakini Məmmədzadə Nizam Ceyhun oğlu həmin kafedə Ələkbərov Elçin Vahid oğlunu xüsusi amansızlıqla döyüb.**

E.Ələkbərov qapalı kəllə-beyin travması və bədənin müxtəlif dərəcəli ağır xəsarətləri ilə Respublika Neyrocərrahiyyə xəstəxanasına yerləşdirilsə də, orada ölüb.

Faktla bağlı Xətai rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 126.3-cü (qəsdən sağlamlığa ağır zərər vurma, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsilə cinayət işi başlanıb.

## Bu gün Ərdoğan, Putin, Merkel və Makron İstanbulda bir araya gələcək

**Türkiyə-Rusiya, Almaniya-Fransa dövlət başçılarının oktyabrın 27-də İstanbul Zirvə toplantısında əsas məsələ kimi Suriya böhranının sülh yoli ilə həlli və İdlib bölgəsindəki vəziyyəti müzakirə olunacaq.**

Avropa.info xəbər verir ki, sammitdə ən başlıca mövzu İdlib məsələsi olacaq.

Dörd ölkənin lideri Suriyanın İdlib bölgəsindəki durumun detallarını və problemin həll yollarını müzakirə edəcəklər.

## Vaxtı ötmüş kreditlərin məbləği 122 milyon manat artıb

**Ödəniş vaxtı keçmiş kreditlərin məbləği açıqlanıb. Novator.az-ın məlumatına görə, Mərkəzi Bank problemli kreditlərin oktyabrın 1-nə olan həcmini 1 milyard 748,7 milyon manat göstərib. Problemli kreditlərin 921,5 milyon manatı xarici valyutadadır.**

2018-ci ilin 9 ayında düyünə düşmüş kreditlərin məbləği 122 milyon manat artıb. İlin əvvəlinə vaxtı keçmiş kreditlərin məbləği 1 milyard 626,7 milyon manat idi.

Fevralın 1-nə problemli kreditlərin həcmi 1 milyard 695,9 milyon manat, martın 1-nə 1 milyard 700,9 milyon manat, aprelin 1-nə 1 milyard 710,2 milyon manat, mayın 1-nə 1 milyard 708,8 milyon manat, iyunun 1-nə 1 milyard 710,8 milyon manat, iyulun 1-nə 1 milyard 745,7 milyon manat, avqustun 1-nə 1 milyard 782,1 milyon manat, sentyabrın 1-nə 1 milyard 772,4 milyon manat həcmində rəsmiləşib.

## Nazirlikdən sel təhlükəsi barədə xəbərdarlıq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi təhlükəli hidrometeoroloji hadisə haqqında xəbərdarlıq edib.**

Nazirliyin Milli Hidrometeorologiya Departamentindən "Report"a verilən məlumata görə, oktyabrın 26-da və 27-si gecə və səhər intensiv, güclü yağışlarla əlaqədar dağ çaylarından qısamüddətli daşqın və sel keçəcəyi gözlənilir.

# Azərbaycanın ən böyük tikinti maqnatı ilə sensasion müsahibə- "Şərurlu İsfəndiyar" danışdı...

**"Bir mənzili heç zaman iki adama satmamışam; əgər kimsə sübut eləsə ki, bir mənzili bir neçə adama satmışam, bunu sübut edən şəxsə 100 ədəd mənzil bağışlayacam"**

**Azərbaycanın ən böyük tikinti maqnatı "Şərur" MTK-nın sədri, "Şərurlu İsfəndiyar" kimi tanınan iş adamı İsfəndiyar Axundov "Yeni Müsavat"a müsahibəsində keçdiyi həyat yolu, hazırkı işləri və haqqında səslənən iddialar barəsində danışıb.**



İsfəndiyar Axundovla müsahibəni təqdim edirik:

***- İsfəndiyar bəy, hazırda hansı layihələr üzərində çalışırsız?***

- Türkiyədə, Azərbaycanda inşaatla, sosial obyektlərin tikintisi ilə məşğulam. Bundan əlavə mağazalarım, restoranlarım da fəaliyyətdədir. Yəni ümumi desəm, hər tərəfli işləyirik. Bir tərəfli iş qurmamışam. Fermam da var, istilik sistemi ilə pomidor da əkirik. Böyük metal konstruksiya zavodum, şadlıq evlərim var. "Hollivud", "Siyaqut", "Flaminqo", "Prins" şadlıq evləri mənimdir.

***- Bu qədər işin arasında gündəlik həyatınız necə keçir?***

- Hər gün bulvar ərazisində 4-5 kilometr gəzirəm. Bu, mənim daimi fəaliyyətimdir. Eyni zamanda səhər saat 9-dan 18:00-a qədər də ofisdə iş başındayam. Yeməyim də çox dietikdir. Yağdan, duzdan və şirniyyatdan uzaq dururam. Demək olar ki, sadaladığım təamları 25 ildir ki, dadmıram. Əvvəllər təzyiqim olub, onu da özüm müalicə edib, sağaltmışam. Ən çox yediyim çiy qidalardır. Yəni meyvə, göyərti, qarpıza daha çox üstünlük verirəm. Ən çox sevdiyim qida qarpızdır. Səhər durub doyana qədər qarpız yeyirəm, günorta saat 4-5-ə qədər ac qalıram. Sonra da alma, heyva və ya qoz yeyirəm.

***- Yaxın qonaqlıqlarda çox olursuz. Orada da yeməklərdən imtina edirsiz?***

- Çox az hallarda qonaq gedirəm. Gedən zaman da orada da az yeyirəm. Öz qidalarıma daha çox meylliyəm. İnsan özünə baxmasa, hər şeyi gedər. Atalar deyir ki, pulunu itirsən, heç nə itirmirsən. Sağlamlığın getdisə, hər şeyi itirirsən. Sağlam olan zaman hər şeyin qədrini bilmək lazımdır.

***- Gəncliyinizdə heç pulsuz qaldığınız zamanınız olubmu?***

- Deyim ki, heç birinci sinfə də getməmişəm. Elə uşaqlığımdan işləmişəm. Gəncliyim, uşaqlığım həddindən artıq ağır keçib. Deyərdim ki, mən uşaqlıq yaşamamışam. 16 yaşında bənna olmuşam və o zamana qədər də xırda işlərlə məşğul olmuşam. Yəni özümü dərk edəndən işləmişəm. Uşaqlığımda bir çadırım, bir itim, bir də atım var idi. Dağda çadırda yatırdım. Ətrafımda da ilanlar. Yəni bu günlərdən keçib gəlmişəm.

***- Sizə "Şərurlu İsfəndiyar" deyirlər. Şərur üçün hansı işləri görmüsüz?***

- Mənə dostlarım bu cür ad veriblər. Əslən isə Qərbi Azərbaycandanam. Şərurda anadan olmuşam və buna baxmayaraq da Qərbi Azərbaycana da tez-tez gedirdim. "Şərurlu" adını mənə veriblər, özüm götürməmişəm. Şərurda hansısa iş görmürəm. Naxçıvanın özündə ev almışam, gedəndə orada qalıram. Eyni zamanda Şərurda da tez-tez oluram. Lakin orada hansısa iş görmürəm. Şərurda da heç bir qohumum yaşamır. Hamısı gəlib Bakıya, mən də ev vermişəm yaşayırlar.

***- İmkansızlara əl tutursuz?***

- 1993-cü ildə ulu öndərimiz Heydər Əliyev iş adamlarına müraciət etdi ki, kömək etmək lazımdır. O zaman Binəqədi batalyonunun ailə üzvlərini öz himayəmə götürdüm. Onların hamısını saxlayıb, hər ay da maaşlarını verirdim. İndi də dövlətə çox ucuz qiymətə evlər tikirəm. Təsəvvür edin ki, sosial evləri təmirlə birlikdə kvadratını 500 manata verirəm. Yəni 50 faiz güzəşt edirəm. Dövlətin mənə müraciəti oldu ki, bir müəssisə 1036 adamı aldadıb. Mən həmin insanları evlə təmin etdim. Hazırda da mənzillə təmin edəcəyim insanlar var. Xırdalanda bir qisim insanları aldadıblar və onların hamısını öz vəsaitim hesabına mənzillə təmin edəcəyəm.

**"Oğlumun "Lamborghini"si də var, "Ferrari"si də, lap hələ "Bentley"i də. Cavan adamdır. İstəyir, sürsün də. Biz işləyirik və qazanırıq. Mənim özümün də maşınım "Lexus"dur"**

***- Belə məlumatlar var ki, "Şərur MTK" vətəndaşları aldadır, kommunal xətləri çəkmir, problem olan zaman həll etmirlər. Bu doğrudur?***

- İndiyə qədər bizim xətlərin heç birində problem olmamışdı. Ancaq bu yaxınlarda Yasamalda belə bir hadisə baş verdi. Birdən-birə su kəsildi və binada 1 həftə su olmadı. Savadlı adamlar başa düşürlər ki, mənim əlimdə krant yoxdur. Sonradan məlum oldu ki, "Azərsu"nun əməkdaşları, təmir zamanı suyu bağlayıb, sonra da açmayıblar. Mənim işim tikmək, qurmaqdır. Su, işıq və digər kommunal məsələləri mən vermirəm. Bunun üçün müvafiq qurumlar var. Başqa heç bir problem ola bilməz.

***- İnternet saytlarında bir mənzili fərqli adamlara satmağınızla bağlı da məlumatlar dolaşıb. Buna izahınız nədir?***

- Bizdə belə problemlər olsa, dövlət bizə etibar edib, iş gördürməz. Bəzən elə bir problem yaradılır ki, anlaşılmaz olur. Bir məsələni sizə danışım. Hazırda "Mur-Ay" MMC şirkətinin rəhbərləri həbs olunub. Bu şirkəti ləğv edib, obyektlərini mənə veriblər. Həmin şirkətin aldatdığı insanları evlə təmin etdim. Müqavilədə də yazıldı ki, insanları 85 min kvadrat mənzillə təmin etmişəm. Digər mənzillərə isə təminatçı deyildim. Ancaq buna baxmayaraq elə insanlar var idi ki, onlar istintaqdan keçməmişdilər. Bu adamlar yenidən məhkəməyə müraciət edib, köhnə evlərinə qayıtmaq üçün məhkəmədən qərar almışdılar. Həmin adamlar gəlib, bizim ev verdiyimiz insanlara deyirdilər ki, mənzili "Mur-Ay" MMC-dən almışıq, evi tərk edin. Yəni mənzili mən satmamışdım. Problem qeyd etdiyim kimi idi. Süni bir şey yaradıb, mənim adıma çıxmaq istəyirlər. Ancaq mənim bütün sənədlərim yerində idi və qanunsuz heç bir iş görmürdüm. Orada 1036 adama ev vermişdim. Yerdə isə 200-ə yaxın adam qalırdı. O adamların evlə təmin olunması mənə tapşırılmamışdı. Əgər dövlət tapşırarsa, həmin adamları da mənzillə təmin edə bilərik. Ancaq bir mənzili heç zaman iki adama satmamışam. Əgər kimsə sübut eləsə ki, bir mənzili bir neçə adama satmışam, bunu sübut edən şəxsə 100 ədəd mənzil bağışlayacam.

***- Dövlətin böyük layihələrini həyata keçirirsiz. Hər hansı bir dövlət vəzifəsi tutmaq arzusunda olmusuz?***

- Mən heç orta məktəbə də getməmişəm. Dövlətdə də heç bir vəzifə arzusunda olmamışam. Dövlət sifarişləri ilə də işləməmişəm. Şəxsi işlərimi görümüşəm. Heç bir dövlət adamı ilə əlaqəm olmayıb.

***- Məlumat yayılmışdı ki, ləğv edilmiş MTN naziri Eldar Mahmudovla "Orxan" MMC adlı qurum yaradıb, işlər görmüsüz. Bu məlumat doğru idi?***

- Xeyr, bu məsələ fərqli formada olub. Məlumat verim ki, o şirkətin yiyəsi biz olmamışıq. Həmin şirkət pis vəziyyətə düşəndə, insanlar çətin durumda qalanda mənə deyiblər, insanları evlə təmin etmişəm. Yəni "Mur-Ay" MMC-də olduğu kimi burada da insanlara köməklik etmişəm. Onun təsisçisi, idarəedicisi mən olmamışam. İnsanlar elə bilirlər ki, nə olsa da bunu biz edirik. Belə deyil.

***- Bəs yazılanlara nə üçün zamanında reaksiya vermədiniz? Bu yazıları oxuyanda nə düşünürsüz?***

- Bunları elə-belə qəbul edirəm. Çox da fikir vermirəm. Görünür yalan məlumatları yazanların da çörəyi oradan çıxır. Ona görə də heç bu adamları məhkəməyə də vermirəm. O qədər işim var ki, bu kimi şeylərə baş qoşmağa vaxtım yoxdur. Kim nə istəyirsə, yazsın.

***- Övladlarınız ali təhsil alıblar?***

- Bəli, övladlarım təhsil alıblar. Nəvələrimdən biri Amerikada ali təhsil alır, digərləri isə orta məktəbdə oxuyurlar. Deyirəm mən heç oxumasam da, qoy onlar ali təhsil alsınlar.

***- İmkansız tələbələrin təhsil haqlarını ödədiyiniz vaxt olub?***

- Bəli, Binəqədi Rayon İcra Hakimiyyətindən siyahı veriblər, həmin tələbələrə yardım etmişəm.



**"Mən uşaqlıq yaşamamışam, məktəbə də getməmişəm; 16 yaşında bənna olmuşam və o zamana qədər də xırda işlərlə məşğul olmuşam"**

***- Oğlunuzun universitetə bahalı 650 min dollarlıq maşınla getməsi barədə xəbər yayılmışdı. Həmin maşının aqibəti necə oldu?***

- "Lamborghini" də var, "Ferrari" də, lap hələ "Bentley" də. Cavan adamdır. İstəyir, sürsün də. Biz işləyirik və qazanırıq. Mənim özümün də maşınım "Lexus"dur. Yuxarıda sadaladım ki, nə qədər obyektlərim var, iş görürük. 68 yaşım var və hələ də məzuniyyətə getməmişəm. İstəsəm heç işləmərəm. İcarəyə verdiyim obyektlərdən aldığım gəlirlər, ömrüm boyu mənə də, övladlarıma da bəs edər. Ancaq illər boyu ünsiyyət yaratmışıq və bir dəqiqədə bunları atmaq olmaz. Ömrümün çoxu gedib, azı qalıb. Biz də bu dövlətə xidmət edirik və edəcəyik. İnsan özü üçün yaşasa, bu, mənasız olar. İnsan həm də dövləti, milləti üçün yaşamalıdır.

***- Oğlunuza görə sizə xəbərdarlıq edilibmi? Onlarla söhbət aparırsız?***

- Uşaqlarımın həm tərbiyəsi ilə məşğulam, həm də söhbət edirəm. Bilirəm ki, oğlumun hərəkətinin mənim üçün zərəri ola bilər. Ancaq buna baxmayaraq, bütün məmurlar da eyni fikirdə deyillər. Onların içərisində dövlətinə, xalqına xidmət edənləri də çoxdur. Bəziləri də istəyər ki, kiməsə ləkə yaxsın. Bu cür insanlar dünyanın hər yerində var.

***-Banklara borcunuzun olması ilə bağlı xəbərlər var. Sirr deyilsə borcunuz nə qədərdir?***

*(Davamı növbəti sayımızda)*

❑ Əli RAİS,
"Yeni Müsavat"
Foto: Elçin Əkbərov

YENİ MÜSAVAT
N 228 (7117) 27 oktyabr 2018

AQTA
AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ

## Sahibkarlardan Qida Təhlükəsizliyi Agentliyinə ittiham

### İş adamları deyir ki, AQTA əməkdaşları ASAN Xidmətdə fəaliyyətdən yayınır, onları qurumun öz ofisinə çağırırlar

**Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin(AQTA) fəaliyyətə başlamasından 4 aydan çox vaxt keçir. Bu müddət ərzində qurum tərəfindən müəyyən işlər görülüb, addımlar atılıb. Hələlik birbaşa qida təhlükəsizliyi sahəsində agentliyin fəaliyyətinin ciddi nəticələri hiss olunmasa da, sahibkarlara münasibətdə neqativ meyl qabarmaqdadır. Belə ki, redaksiyamıza müraciət edən bir qrup sahibkar AQTA-nın xidmətlərindən narazılıq edib.**

Sahibkarlar bildirirlər ki, xaricdən ərzaq məhsullarının idxalı ilə məşğul olurlar: “Malımız gəlib gömrük sərhədinə çatanadək Qida Təhlükəsizliyi Agentliyindən sənədlər Gömrük Komitəsinə göndərilməlidir. Həmin sənəd 7 iş günü müddətində verilməlidir. Buna görə də biz sənədlərimizi 9-10 iş günü əvvəldən aparıb agentlik əməkdaşlarına təqdim etdik. Malımızın gəlib çatmasına 1 gün qalmış gömrükdən maraqlandıq, gördük ki, sənədlərimiz hələ gəlməyib. ASAN xidmət tərkibində fəaliyyət göstərən agentlik əməkdaşlarına müraciət etdikdə bizə birbaşa idarəyə müraciət etməyimizi məsləhət gördülər. Getdik Qida Təhlükəsizliyi Agentliyinin ofisinə. Oradan da bizə açıqca dedilər ki, ASAN-a deyil, birbaşa onlara müraciət etməliyik. Uzun müzakirələrdən sonra sənədimizi malımız gələn gün göndərdilər gömrüyə. Həmin gün isə agentliyin əməkdaşlarının süründürməçiliyi üzündən gömrük rəsmiləşdirilməsi başa çatmadığı üçün məcbur olub malımızın gömrük ərazisində saxladıq. Qaydaya görə də bunun üçün 160 dollar ödəməli olduq”.

**Sahibkarlar bildirirlər ki, ASAN Xidmət birbaşa ölkə prezidentinin təşəbbüsü ilə korrupsiyanın qarşısını almaq məqsədilə yaradılıb:** “Amma Qida Təhlükəsizliyi Agentliyi bu gözəl təşəbbüsə kölgə salmağa, sahibkarları onların birbaşa özünə müraciət etməsinə çalışır. Bilmirik, bu işdən nə əldə edirlər ki, bizi belə dolayı yollara salırlar. Biz bilmirik gətirdiyimiz malın satışının qeydinə qalaq, yoxsa qurumların arasında yol ölçək”.

Onu da qeyd edək ki, AQTA ilə ASAN arasında anlaşma memorandumu iyunun 12-də imzalanıb. Bununla bağlı AQTA-nın yaydığı məlumata görə, imzalanmış memoranduma əsasən, Qida Təhlükəsizliyi Agentliyinin xidmətləri ASAN xidmət mərkəzlərində həyata keçirilməlidir. Tərəflər ASAN mərkəzlərində AQTA-nın 14 xidmətinin göstərilməsi barədə razılığa gəliblər. İmzalanmış memoranduma əsasən, ərzaq təhlükəsizliyi subyektlərinin qeydiyyatı üzrə təşkilati, hüquqi və maarifləndirici işlərin hazırlanması və həyata keçirilməsi, müvafiq sertifikatların verilməsi və dövlət reyestrinin aparılması ASAN xidmət mərkəzlərində nəzərdə tutulur.

Maraqlıdır ki, Agentliyin saytında ASAN vasitəsilə göstərilən xidmətlərə dair məlumatı axtarıb tapa bilmədik. Saytın “Elektron xidmətlər” bölməsində heç bir məlumat yerləşdirilməyib. Bundan əlavə, “Məlumat” bölməsindəki “Standartlar” altbölməsində də məlumat yoxdur. Hansı ki, bu məlumatlar sahibkarlar üçün mühüm əhəmiyyət kəsb edir.

**P.S.** *Qida Təhlükəsizliyi Agentliyindən sahibkarların iradları ilə bağlı rəy almaq istədik, lakin suallarımızı cavablandıracaq bir kimsəni tapa bilmədik. Agentliyin rəyini dərc etməyə hazırıq.*

❑ **DÜNYA, “Yenì Müsavat”**

# Eşşək biznesinə niyə əngəl törədilir - üç rəy

## **Eyyub Hüseynov:** “Süd bəhanədir, eşşək ətinin satışına hazırlıq gedir”

## **Natiq Cəfərli:** “Hansısa özəl təşəbbüsü boğmağa çalışmaqdansa...”

## **Seyfəddin Əsəd:** “Eşşək südü misilsiz əhəmiyyətə malikdir”



**Bu günlərdə Azərbaycanda ilk eşşək fermasının yaranması xəbəri xeyli səs-küyə səbəb oldu. Media və mətbuat nümayəndələri həmin fermadan reportaj hazırlayaraq, ictimaiyyətə təqdim etdilər. Ardınca Qida Təhlükəsizliyi Agentliyinin (QTA) nümayəndələri açıqlama yayaraq, həmin fermanın qanunsuz fəaliyyət göstərdiyini bildirdi.**

QTA-nın məlumatlnda deyilirdi ki, heç bir elmi əsasa, tədqiqat işinə, laborator müayinələrinin nəticələrinə istinad etmədən eşşək südünün yüksək keyfiyyətə malik, müalicəvi məhsul kimi təqdim olunması yolverilməzdir və bu, insanlar arasında çaşqınlığa gətirib çıxarır: “Ümumiyyətlə, beynəlxalq təcrübədə bu tip yeni təsərrüfat sahələri fəaliyyətə başlamazdan, məhsullar istehlakçılara təqdim olunmazdan əvvəl bu sahədə elmi-təcrübi işlər həyata keçirilir, məhsulun normativ-texniki sənədləri hazırlanıb təsdiq olunur, istehsalın standartları müəyyənləşdirilir və yalnız bundan sonra məhsulların istifadəsi haqqında müvafiq qərar qəbul olunur. Hazırda da ölkəmizdə ulaq südünün istifadəsi, müalicəvi əhəmiyyəti barədə heç bir normativ sənəd mövcud deyil”.

**Adı çəkilən fermanın nümayəndəsi Ülvi Hidayətzadə isə “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, fermanın süd satışına başlaması məlumatı doğru deyil:** “Biz bu işlərə başlamazdan öncə Qida Təhlükəsizliyi Agentliyinə müraciət etmişdik. Qurumun da nümayəndələri fermaya gələrək heyvanların saxlanılma şəraiti ilə maraqlanıb, analizlər götürüblər. Qeyd edim ki, fermadakı hər bir heyvan baytar nəzarətindən keçib, qulaqları nömrələnib. Qurumdan müsbət cavab aldıqdan sonra istehsal edəcəyimiz südün satışa başlamasını düşünürük”.

**Ü.Hidayətzadə fermanın tam bağlanması xəbərini də təkzib etdi:** “Hələ ki danışıqlar gedir. Agentlik son sözünü deməyib. Yəni fermamızın bağlanması məlumatı doğru deyil. Bir qədər keçsin, məsələ aydınlaşsın, mətbuat konfransı keçirib məsələyə aydınlıq gətirəcəyik. Həmçinin gələcəkdə xarici ölkələrin, o cümlədən İtaliyanın, Almaniyanın texnologiya təcrübəsini həyata keçirməyi düşünürük. Biz süd satırıq, pis iş görmürük. İnanmıram ki, kimlərsə bizə mane olmaq istəsin”.

Qeyd edək ki, ölkəmizdə bu cür fermanın yaranmasına münasibət birmənalı deyil. Bəzi ekspertlər müsəlman ölkəsində eşşək südünün satılmasının doğru olmadığını, bu üsulla ancaq istehlakçıların aldadıldığılnı qeyd edir, digər ekspertlər isə israrla eşşək südünün əhəmiyyətinin misilsiz olduğunu vurğulayır, fermanın yaranmasını təqdir edir, onun bağlanması xəbərini narazılıqla qarşılayır, ortada rüşvət amilinin olmasını ehtimal edirlər.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov** mövzu ilə bağlı “Yeni Müsavat”a danışdı: “Qida Təhlükəsizliyi Agentliyinin əsasnaməsində qeyd olunub ki, istehsal olunacaq südün təhlükəsizliyi ilə bağlı sənəd verəcəklər. Həmin sənədin verilməsi üçün əsasnamədə qeyd olunan tələblər yerinə yetirilməlidir. Əgər qurum qidanın istehlakçının masasına qədər gedib çatmasını izləmə sistemini təşkil edərsə, onda icazə verəcək və yalnız o zaman süd bazara çıxarılacaq. İnanmıram ki, bu məsələdə hansısa rüşvət amili olsun”.

**Qurum sədri ölkəmizdə bu cür fermanın yaranmasını birmənalı olaraq narazılıqla qarşıladığını dedi:** “Eşşək südünün insan xeyri barədə heç bir elmi-məqalələr, araşdırmalar yoxdur. Bu, qədimdən bu günə gəlib çatan xalq təbabətinin iddialarıdır. Bu baxımdan dəfələrlə demişəm ki, hansısa alimin gözəl üzlüklü jurnallarda açıqlaması elmi araşdırma deyil. Buyursunlar, hansısa elmi institutun elmi araşdırmasını ortaya qoyduqdan sonra biz onlara inana bilərik. Düşünürəm ki, bu istehlakçıların aldadılmasıdır. Kimsə kimdənsə pul qopartmağa çalışır. Ağıllı adam aldadılmaz və yaxud aldadıldığı üçün məhkəməyə müraciət edər”.

**E.Hüseynopv adı çəkilən fermada monitorinq keçirməyi düşünmədiyini də söylədi:** “Birmənalı şəkildə həmin fermada monitorinq keçirməyi düşünmürük. Çünki islam ölkəsi olan Azərbaycanda yaşayırıq və islamın haram hesab etdiyi eşşək südü məsələsi var. Bəlkə dəvət etsələr gedərik, amma bu haqda birmənalı şəkildə düşünmürük. Ümumiyyətlə süd bəhanədir, eşşək ətinin satışına hazırlaşırlar”.

Bəs iqtisadçı ekspertlər bu cür özəl biznes qurumunun yaranmasını necə qəbul edirlər? **İqtisadçı Natiq Cəfərli** məsələyə bu cür mövqe bildirdi: “Ümumiyyətlə, bu cür fermanın yaranması özəl təşəbbüsdür, yəni özəl sektorda çalışan insanların özlərinin ideyası əsasında yaranmış biznes növüdür. Burada istehlakçı kimi hamımızı maraqlandıran əsas suallar bundan ibarətdir ki, həmin südün insan sağlamlığı üçün bir ziyanı varmı, səhhətə mənfi təsir göstərə bilərmi və sairə. Dövlət də nəzarət funksiyalarını ancaq bunun üzərində qurmalıdır. Əslində həmin fermanın dövlətdən icazə alıb-almaması ikinci dərəcəli məsələdir. Dövlətin marağında olmalıdır ki, yeni özəl qurumlar, iş yerləri yaransın, ideyalar formalaşsın. Əgər həmin ferma rəhbərləri istehsal edəcəkləri südü başqa adla satışa çıxarsaydılar, bu artıq ciddi qanun pozuntusu olardı. Lakin məlum olduğu kimi ferma adı, brendi ilə məhsul istehsal etmək istəyir. Dövlət əslində bu baxımdan onlara dəstək olmalı idi. Hansısa özəl təşəbbüsü anındaca boğmağa çalışmaqdansa, onu düzgün istiqamətə yönləndirmək dövlətin əsas vəzifələrindən biridir”.

“Hələ qədimdən eşşək südündən misilsiz dərman kimi istifadə olunur. Hazırda dünyanın bir çox ölkəsində, o cümlədən Türkiyədə eşşək fermaları var və orada eşşək südü istehsal edir, yüz minlərlə insan ondan alıb istifadə edir. Dünyanın heç bir yerində heç bir iynə-dərmanla göy öskürəyi 2-3 gündə kəsmək mümkün deyil. Eşşək südü isə ilk gündə göy öskürəyi aradan qaldıra bilir”. Bunu isə qəzetimizə təbii üsullarla müalicəyə üstünlük verən **həkim Seyfəddin Əsəd** dedi.

Onun sözlərinə görə, eşşək südünün üstünlüyü ondan ibarətdir ki, tərkibinə görə ana südünə olduqca yaxındır. “Əvvəllər deyirdilər ki, keçi südü ana südünə yaxındır, lakin eşşək südü ondan əvvəl gəlir. Bu süddə xəstəliklər olmur. Eşşək südündən təkcə göy öskürəyin müalicəsi üçün deyil, həmçinin bir çox başqa xəstəliklərin müalicəsində istifadə olunur. O, həmçinin xərçəng riskinin azalması və mədə-bağırsaq pozuntularında misilsiz əhəmiyyətə malikdir”, - deyə həkim qeyd elədi.

❑ **Xalidə GƏRAY, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 228 (7117) 27 oktyabr 2018

# Kreml "kranları" bağlayır - Ermənistan belə cəzalandırılır

## Rusiyada erməni miqrantlar sıxışdırılmağa başlayıb - onlara nəzarət 4 dəfə artıb; işğalçı ölkədə Şimal xofu yaşanır; deputatdan xəbərdarlıq: "Ermənistandakı vəziyyət qeyri-sabitliyə aparır..."

**Ermənistanda 8 may "məxməri" inqilabından sonrakı siyasi vakuum davam edir. Məsələ ondadır ki, rəhbərliyə yeni qüvvələr gəlsə də, hakimiyyətə və ölkəyə nəzarət hələ ki tam olaraq, bu qüvvələrin əlində deyil. Çox şey yəqin ki, növbədənkənar parlament seçkilərindən sonra bilinəcək. Ermənistanın xarici siyasət oriyentasiyasının hansı qlobal güc mərkəzinə doğru olacağı da onda dəqiqləşəcək.**

Ancaq bəzi trendlər indidən aydındır. Məsələn, artıq daşlaşmış həqiqətdir ki, Nikol Paşinyanın (müvəqqəti) hökuməti müstəsna olaraq, Rusiyaya rəğbəti olmayan kadrlardan formalaşıb. Paşinyan tərəfdarları seçkilərdə qalib olarsa, - bunun ehtimalı böyükdür - şübhəsiz ki, indiki komanda olduğu kimi yeni parlament və prezident tərəfindən təsdiqlənəcək. Məhz o zaman Moskvanın Ermənistandakı hakimiyyətə yekun siyasi qiyməti və qənaətinin şahidi olacağıq.

*****

Hələliksə Kreml qonşu ölkədəki prosesləri aktiv müşahidə eləməklə məşğuldur. Paralel surətdə bəzi profilaktik-preventiv addımlarını atır. Paşinyan iqtidarına təzyiq üçün isə Rusiyanın əlində yetərindən çox rıçaq var. Onlardan biri də Rusiyada öz ailələrinə çörək pulu qazanan on minlərlə erməni əmək miqrantlarıdır.

"Ermənistanın baş nazir əvəzi Nikol Paşinyan parlament tribunasından Rusiya ilə münasibətlərin yaxşılaşmasından danışdığı vaxtda Rusiyaya çörəkpulu dalınca gələn ermənilər çıxılmaz vəziyyətə düşüblər. Onlar nəinki öz üzərində Rusiya-Ermənistan əlaqələrinin dinamikasını hiss eləmirlər, tam əksinə, hər şey daha da pisləşib". "Yeni Müsavat"ın məlumatına görə, bu barədə "İravunk" erməni nəşri yazıb.




Qəzetin bildirdiyinə görə, Rusiyada erməni əmək miqrantları üzərində nəzarət 4 dəfə artıb. "Həmçinin, ermənilərin ölkəyə girişinə imkan verilməməsi və geri göndərilməsi halları artıb. Ona görə ermənilər təzədən Rusiyaya qayıtmağın müxtəlif yollarını axtarırlar. Rusiya polisi isə, yumşaq desək, qazanc üçün ölkəyə gələn erməniləri təqib edir və bəhanə axtarır ki, onları deportasiya eləsin. Rusiyaya giriş qadağası isə minimum 5 illikdir. Yəni ən azından, 5 il erməni və onun ailəsi yeganə mövcudluq vasitəsindən məhrum edilmiş olur", - deyə nəşr kədərli şəkildə əlavə edib.

*****

Müşahidələr göstərir ki, Ermənistanda son hakimiyyət dəyişikliyindən sonra da ölkədən kütləvi köç azalmayıb. Çünki rejim dəyişsə də, bu köçü şərtləndirən əsas amillər dəyişməz qalır - həll olunmamış Dağlıq Qarabağ probleminin doğurduğu müharibə vəziyyəti, yəni gələcəyə inamsızlıq və yetərli sayda yeni, ailənin dolanışığını təmin edəcək iş yerlərinin yoxluğu.

İş ondadır ki, təzə hökumətin populist vədlərinə rəğmən, ötən təqribi 6 ayda bu istiqamətlərdə ciddi tərpəniş olmayıb. Ölkəyə həmçinin vəd olunan böyük sərmayə axını gözlənilmir. Odur ki, sadə ermənilər seçkilərdən sonra da vəziyyətin kardinal şəkildə dəyişməyəcəyinə əmin olub Ermənistanı tərk eləməkdə davam edirlər.

Onlar əsasən Rusiyaya üz tuturlar. Ona görə ki, giriş üçün viza tələb olunmayan Rusiyada oturuşmaq, müvafiq iş tapmaq daha asandır. Yeri gələndə buna rüşvət hesabına da nail olmaq mümkündür. Avropanın qabaqcıl ölkələrində isə bunlar qeyri-mümkündür. Üstəlik, viza tələbi.

Bütün bu gerçəkliklərə rəğmən, Paşinyan hökuməti hələ də ümidlidir ki, eyni vaxtda Rusiyadan siyasi-hərbi kömək, Qərbdən isə böyük maliyyə dəstəyi ala biləcək. Lakin bunun mümkünlüyünə Ermənistanda getdikcə daha az adam inanır. Əksinə, narahatlıq var ki, "iki stul" siyasəti vəziyyəti inqilaba qədərkindən də ağır edə bilər.

*****

Bu arada Paşinyan iqtidarının ABŞ-la Rusiya arasında vurnuxması hətta ənənəvi olaraq, Qərbə bağlı olan daşnakları da narahat etməyə başlayıb. Onlar Rusiyadan birtərəfli qaydada uzaqlaşmağın fəlakətli olacağını düşünürlər.

"Ermənistanın Rusiya ilə strateji əlaqələrinin alternativi yoxdur". Bunu jurnalistlərə açıqlamasında Daşnaksütyun Partiyasının parlamentdəki fraksiyasının lideri Armen Rüstəmyan deyib. "Rusiya ilə strateji tərəfdaşlığın əhəmiyyətini anlamamaq ölkə və hakimiyyət üçün çox təhlükəlidir. Bizim üçün bəzi məsələlərdə Rusiya əvəzedilməzdir. Rusiyanın Ermənistanda rolu zəifləməyib və bunu Con Bolton çox yaxşı bilir", - deyə o, ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşavirinin İrəvandakı açıqlamalarına münasibət bildirərkən deyib.

*****

"Ermənistandakı vəziyyət qeyri-sabitliyə aparır, nəsə demək olmur. Bu gün Ermənistandan nə gözləmək lazım olduğunu bilmirik. Ölkədəki vəziyyət getdikcə daha çox siyasi xaosa bənzəyir". Bu sözləri isə rusiyalı deputat, Rusiya Dövlət Duması Komitəsinin sədr müavini Dmitri Savelyev deyib (Report). Rusiyalı deputat əlavə edib ki, Nikol Paşinyan Ermənistan hökumətində əsas vəzifələrə Qərbyönümlü insanları təyin edib və nəticədə ölkədə Qərb trendi üstünlük təşkil edirmiş kimi görünür.

**Başqa sözlə, rusiyalı deputat açıqca eyham vuraraq xəbərdarlıq edir ki, Paşinyanın hakimiyyətə gəlişi ilə vassal ölkənin xarici siyasətində balans Qərbin xeyrinə pozulub. Bunun Ermənistana necəyə başa gələcəyini isə yaxınlarda görəcəyik...**

❑ **"Yenì Müsavat"ın analìtìk xìdmətì**

# "Vaşinqton Ermənistanı seçim qarşısında buraxmayacaq" - ermənişünas-alim

## Boltonun Qarabağla bağlı dedikləri Ermənistanı silkələyib; **Qafar Çaxmaqlı:** "ABŞ Qarabağ məsələsində təşəbbüsün əldən getməsi ilə hesablaşa bilməz..."

**Ermənistanın ikinci prezidenti Robert Köçəryan son müsahibəsində deyib ki, bütün görüşlərdə vasitəçilər ondan Dağlıq Qarabağ ətrafındakı rayonları azad etməyi tələb edirdilər. Köçəryan onu da deyib ki, rəsmi İrəvan öz mövqeyini dəqiqləşdirməlidir. Köçəryana görə, erməni cəmiyyətində belə bir fikir formalaşıb ki, hansısa ərazini güzəştə getmək olmaz. Eks-prezident bildirib ki, nəticələrə görə Ermənistan hakimiyyəti məsuliyyət daşıyacaq.**

**Politoloq Elxan Şahinoğlu** hesab edir ki, Köçəryan bu açıqlama ilə iki məqsəd güdür: "Onun birinci məqsədi erməni cəmiyyətini Qarabağ danışıqlarının detalları haqqında məlumatlandırmaqdır. İkinci məqsəd hazırki baş nazir əvəzi Paşinyanın mövqelərini zəiflətməkdir. Çünki Paşinyan parlament seçkisindən sonra Qarabağla bağlı danışıqlarda iştirak etməlidir. Köçəryan erməni cəmiyyətinə mesaj göndərir ki, Paşinyan Qarabağ ətrafındakı rayonların azad olunması mövzusuna müzakirə etmək məcburiyyətindədir".

Qeyd edək ki, ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Bolton İrəvanda jurnalistlərə açıqlamasında Qarabağ məsələsi ilə bağlı kifayət qədər aydın mesajlar verib. "Dağlıq Qarabağ münaqişəsini tərəflər özləri həll etməlidir" - diplomat bildirib. Bolton münaqişənin həllinin çətin olduğunu da diqqətə çatdırıb. Son gəlişmələr, Qarabağ ətrafında müşahidə olunan proseslər xarici ekspertlərin də diqqətini bu mövzuya yönəldib.

"Ermənistan Dağlıq Qarabağ münaqişəsində heç bir irəliləyişi arzu etmir. Danışıqların ləng gedişi onun təhlükəsizliyinə beynəlxalq zəmanətlərin artmasına səbəb olardı. Lakin Nikol Paşinyan Qarabağı danışıqlar masasına dəvət edərək, Ermənistanın təhlükəsizliyini gücləndirmək istəyir". Bu barədə rusiyalı politoloq



Qriqori Trofimçuk Ermənistanda seçkilərdən sonra Dağlıq Qarabağ münaqişəsinin həllində yeni proseslərin baş verə biləcəyi ehtimalını şərh edərkən deyib. Onun sözlərinə görə, Paşinyan mövcud status-kvonun qalmasına çalışır. "Buna görə də Ermənistan sərt xətti davam etdirir, Düşənbə razılaşması ilə bir tərəfdən danışıqlarda iştirak etmək marağında olduğunu göstərir, digər tərəfdən isə danışıqlara uyğun olmayan mövqeyini sərgiləyir. Paşinyanın istəyi status-kvonu saxlamaqdır", - deyə o bildirib.

Axar.az da xəbər verir ki, Boltonun Ermənistana səfəri zamanı verdiyi açıqlamalar ölkədə təşviş yaradıb. Ölkə siyasiləri arasında ən böyük panikanı Boltonun ABŞ silahının rus silahından üstün olması və eləcə də Qarabağ məsələsinin həll edilməsiylə bağlı verdiyi açıqlamalar doğurub. Boltonun açıqlamalarına hökumət tərəfindən heç bir reaksiya hələlik verilməyib.

İlk reaksiya müxalifətdəki Daşnaksütyun Partiyasından gəlib. Partiya ABŞ-ın açıq münasibətindən sonra Ermənistanın Rusiyanın yanından ayrılıb "ABŞ-ı seçməsinin" mümkün olmadığını etiraf edib. Bir zamanlar Daşnaksütyunun müttəfiqi və hakim partiya olan respublikaçıların parlamentdəki fraksiyasının rəhbəri Vaqram Baqdasaryan isə jurnalistlərə açıqlamasında Boltonun açıqlamalarıyla razılaşmadığını deyib: "Beynəlxalq konvensiyalara əsasən, konflikt aparan tərəflərə silah satmaq doğru deyil. Bu, eskalasiyaya səbəb olur. Digər tərəfdən, kimin silahının yaxşı olduğunu demək də doğru deyil. Biz öz dəyərlərimizdən imtina edə bilmərik. Qarabağ məsələsi bizim tarixdir. Keçmişdən imtina gələcəyi şübhə altına qoymaq deməkdir".

Bir sıra ekspertlər bu fikirdədir ki, Ermənistandakı parlament seçkilərindən sonra Paşinyan Qarabağla bağlı status-kvonun dəyişilməsinə yönəlik addımı atmağa özündə cəsarət tapacaq. Əks halda onu Azərbaycan ordusunun sarsıdıcı zərbələri nəticəsində fəlakətlərə düçar olacaq Ermənistan ordusunun acı taleyi gözləyir.

**Ermənişünas-alim, politoloq Qafar Çaxmaqlı** "Yeni Müsavat"a Boltonun səfərindən sonrakı durumu şərh etdi: "Paşinyanın ABŞ planını qəbul edəcəyi ilə bağlı yayılan məlumatlarda əsasən bu fikir vurğulanmaqdadır ki, ABŞ Dağlıq Qarabağın statusunun müəyyən edilməsində Azərbaycanın təklif etdiyi ən yüksək statusa istinad edir. Yəni Dağlıq Qarabağ Azərbaycanın tərkibində ən yüksək status alır. Amerikalılar üçün burda qeyri-adi heç nə yoxdur, istənilən ABŞ ştatı Qarabağa təklif olunan statusdan da yüksək səlahiyyətlərə malikdir. Amma bizim üçün bu, təhlükəlidir, istənilən "boşluq" Dağlıq Qarabağın Azərbaycandan ayrılma istəyini reallaşdıra bilər. Paşinyan və bundan əvvəlki Ermənistan rəhbərləri əslində statusun əvvəlcədən müəyyən olunmasını təkid etmişdilər. Amma bu, nəyin müqabilində olmalıdır? Bu mexanizmlər hazırlanmadığına görə məsələnin həll variantı - Madrid prinsipləri - dalana dirənib".

Q.Çaxmaqlının sözlərinə görə, əlbəttə, Amerika bu məsələdə təşəbbüsün əldən getməsi ilə hesablaşa bilməz: "ABŞ fərqli bir baxış sərgiləməklə diqqəti özünə cəlb etmək istəyir. Qarabağla bağlı verilən mesajlar da bununla əlaqədardır. Zənnimcə, irəlidə Rusiya ilə münasibətlərinin gərginliyi fonunda Qarabağ məsələsində də ABŞ-ın Rusiya və Fransadan daha fərqli mövqeyi ortaya çıxacaq. Paşinyan yenidən baş nazir olandan sonra Ermənistanı öz tərəfinə çəkmək təşəbbüsləri artacaq. Ermənistanı isə öz tərəfinə çəkmək üçün yenə əldə olan ən məqbul kart Qarabağ problemidir. Amerika Ermənistanı seçim qarşısında buraxmayacaq. Amma onu öz tərəfinə çəkmək üçün Azərbaycanın haqlı durumundan da istifadə edəcəyini istisna etmirəm. Məsələnin həlli ilə bağlı isə ümidverici heç bir şey gözləmirəm".

❑ **E.PAŞASOY, "Yenì Müsavat"**

YENİ MÜSAVAT
N 228 (7117) 27 oktyabr 2018

**Ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin sabiq generallarının araşdırılmayan cinayətlərindən biri də Türkiyənin məşhur "Koçak Gold" şirkətinə qarşı olub. 2011-ci ilin noyabrında MTN-in Transmilli İqtisadi Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin rəisi, general-mayor Sübahir Qurbanovun rəhbərlik etdiyi dəstə üzvləri şirkətin nümayəndəsi Hamit Pehlivan Ahmeti Bakıda, "20 Yanvar" metro stansiyası yaxınlığında saxlayıblar.**



# Məşhur "Koçak Gold"un 39 kq qızılı Eldar Mahmudova "bağışlaması"nın sirri - sensasion təfərrüat

## Ölkəyə qaçaq yolla qızıl gətirən şirkət sonda özü də tələyə düşüb, zərər çəkən isə Azərbaycan vətəndaşlarıdır




Ondan ölkəyə gətirdiyi 40 kiloqram çəkidə olan qızıl-zinət əşyaları götürülüb. Sonradan 1 kiloqramı dövlət nəfinə müsadirə edilən qızılın 39 kiloqramının izi MTN-in binasında "itib". Bu cinayətlə əlaqəli araşdırmalarımız olduqca ilginc məlumatları ortaya çıxarıb. Sual oluna bilər ki, ötən illər ərzində "Koçak Gold" niyə 39 kiloqram qızılının davasını aparmayıb. 2015-ci ildə MTN-dəki məlum "təmizləmə" əməliyyatından sonra da "Koçak Gold" rəsmiləri susublar. Əldə etdiyimiz məlumatlara əsaslansaq, şirkətin Azərbaycana qaçaq yolla qızıl daşıması aydın olur.

Eldar Mahmudovun çetesinin "Koçak Gold"a qarşı əməliyyatından sonra da şirkət Azərbaycanda fəaliyyətini davam etdirib və bu gün də ölkəmizdə işləyirlər. 2011-ci ildə şirkətlə işləyənlər isə bu gün müflis durumdadırlar. Belə şəxslərdən Siyauş Fehruz oğludur. Ötən saylarımızda bu haqda yazmışıq. Musavat.com saytında - http://musavat.com/news/koçak-gold-la-islemis-is-adami-danisdi-bize-qarsi-cinayeti-arasdirin_565189.html linkində - həmin materialla tanış ola bilərsiniz.

Ümumilikdə iş üzrə 20-yə yazın zərərçəkən Azərbaycan vətəndaşı var. Onlardan biri də M.Hacıyev küçəsi ev 25, mənzil 21-də yaşayan Fizuli Bəxtiyar oğlu Məhərrəmovdur. O, 2010-2011-ci illərdə "Koçak Gold" şirkətindən qızıl əşyaları, qızıl məmulatlarını alıb. Özü İstanbula gedərək şirkətin baş ofisində Cavit adlı yaşlı şəxsdən bir neçə dəfə nağd şəkildə alış-veriş edib. Belə sövdələşmələrin birində Cavit ondan soruşub ki, Azərbaycanda qızılın gömrüyünə nə qədər pul alırlar. Cavab verib ki, hər qramına görə 1,5 dollar rüsum ödəyir. Sitat: "Cavit dedi ki, bizim şirkət Azərbaycana çoxlu qızıl satdığından rüsumumuz hər qramına görə 70 sent təşkil edir və qızılı bizdən aldıqda nümayəndəmiz sizə Bakı şəhərində təhvil verəcək. Mənə qızıl məmulatlarının kataloqunu verərək bildirdi ki, artıq məsrəf çəkməyə ehtiyac yoxdur. Kataloq üzrə sifarişi verə bilərsən, həmçinin qızıl üzrə ödəniləcək məbləği də həmin şəxslərə ödəyə bilərsən. Həmin qaydada "Koçak Gold" şirkəti ilə bir neçə dəfə nağd şəkildə işləyib etibar qazandım. Yəni sifarişi verirdim, qızılımı da Bakı şəhərinin Biləcəri qəsəbəsində alırdım. 2011-ci ilin noyabrında sonuncu alış-veriş üzrə aramızda kataloq üzrə 48 min dollar məbləğində qızıl məmulatları sifariş etmişdim. Həmin pulun 25 min dollarını Biləcəri qəsəbəsində "Koçak Gold"un nümayəndəsinə verdim. Sifarişimin 1 həftə ərzində mənə təhvil veriləcəyini Cavit abi bildirdi. Təəssüflər olsun ki, vermiş olduğum sifariş mənə verilmədi. Cavit və Mustafa telefonumu bir müddət qaldırmadılar. Sonradan mənə başqa nömrədən zəng edərək bildirdilər ki, Azərbaycanda malları tutulub, bir az gözləmək lazımdır, danışıqlar gedir, malı qaytaranda mənim malımı verəcəklər".

Onun sözlərinə görə qızılın daşınması və gömrüyü ona aid olmadığından təxminən 1 ay bir ay gözləyib: "Koçak Gold"dan xəbər çıxmadı. Ona görə də Cavitdən vermiş olduğum 25 min dolları geri istədim. Cavitdən pulumu istədikdə mənimlə mübahisə etdi. Dedi ki, sənin mənə 23 min borcun var. Mən ona bildirdim ki, hərəkətlərindən şikayət edəcəm, cavabı belə oldu ki, get kimə nə istəyirsən de, elə eləmə ki, Bakıda başına min oyun gəlsin. Qalıq pulu ödə. 1 il onlardan halal pulumu istəyirdim, onlar da məndən görmədiyim malın pulunu istəyirdilər. 2012-ci ilin sonunda Natiq adlı şəxs mənimlə əlaqə saxlayaraq görüşdü, dedi ki, "Koçak Gold"un nümayəndəsidir, şirkətə borcun var, borcu ödə. Ödəniş etməsən başına böyük problemlər gələcək, şirkət böyük şirkətdir, əlləri uzundur və mən pulu bir də istəsəm MTN məni aparacaq. Başıma gələnləri, dərdimi Natiqə danışdıqdan sonra o şirkət rəhbərliyi ilə danışıqlar apardı. Lakin sonucda mənim 25 min dollarım batdı".

Şikayətçi deyir ki, hazırda Natiq adlı nümayəndə ilə "Koçak Gold"un məhkəmə mübahisəsi var: "Koçak Gold" şirkəti ilə nümayəndəsi olmuş Natiqin arasında məhkəmə mübahisələri var. Məhkəmənin vaxtını öyrəndim, gedib orada mənə dəyən ziyanı tələb edim. Mənə "Koçak Gold"un vurduğu 25 min dollar ziyanın ödənilməsini tələb elədim".

Şikayətçi deyir ki, onun kimi iş üzrə zərərçəkənlər çoxdur. Lakin hələ də bir çox iş adamları "MTN xofu"nun altında "Koçak Gold"a qarşı addım atmaqdan çəkinirlər. Fizuli Məhərrəmov da, iş üzrə digər zərərçəkən Siyavuş Fehruz oğlu da baş prokuror Zakir Qaralovdan Eldar Mahmudovun dövründə MTN-də baş verən qanunsuzluqlar, "Koçak Gold"un vəzifəli şəxslərinin qaçaqmalçılıq və ona qarşı qanunsuzluqlarının araşdırılmasını xahiş ediblər.

**"Koçak Gold"un nümayəndəsi Hamit Pehlivan Ahmetin həbsi və 20-yə yaxın Azərbaycanlı iş adamının müflis duruma salınması ilə nəticələnən əməliyyatı isə 2011-ci ilin noyabrında MTN-in Transmilli İqtisadi Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin rəisi, general-mayor Sübahir Qurbanovun rəhbərlik etdiyi dəstə gerçəkləşdirib. Şirkət nümayəndəsində ölkəyə qaçaq yolla gətirilən 40 kiloqram çəkidə olan qızıl-zinət əşyaları götürülüb. Ona qarşı MTN-in İstintaq İdarəsində Cinayət Məcəlləsinin 206-cı(qaçaqmalçılıq) maddəsi ilə cinayət işi başlanıb. Pehlivan Hamitdən onun qızıl-zinət əşyalarını ölkəyə qaçaqmalçılıq yolu ilə gətirməsini təsdiqləyən ifadə alınıb. Sonradan isə "mahmudovçu"ların klassik pul qoparma sxemi işə düşüb. Qızıllar da gedib, üstəlik Azərbaycanda qızıl biznesi ilə məşğul olan Siyavuş Fehruz oğlu, Fizuli Məhərrəmov kimi iş adamları da müflis duruma salınıblar. Böyük bir cinayəti isə araşdıran olmayıb. Zərərçəkənlər bu gün də bu qalmaqallı cinayətin araşdırılmasını tələb edirlər.**

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

# Soros Fondu Avropa ölkələrindən sıxışdırılıb çıxarılır

## Daxili siyasi proseslərə müdaxilə Corc Sorosu yerli hakimiyyətlərin düşməninə çevirib


Corc Soros

**Son vaxtlar beynəlxalq donorlar, xeyriyyə fondları Berlində öz filiallarını açır. Bir sıra fondlar könüllü olaraq bu addımı atsa da, konkret olaraq Açıq Cəmiyyət (Soros) Fondu belə bir qərar verməyə məcbur olub. Çünki 1984-cü ildən bəri Budapeştdə fəaliyyət göstərən Soros Fondu 31 avqustda bağlanıb. Buna səbəb Macarıstanda xaricdən maliyyələşdirilən qeyri-hökumət təşkilatlarına dövlət nəzarətini gücləndirən yeni qanunun qəbul olunması idi. Hansı ki, yeni qaydalar ilk növbədə Soros Fondu tərəfindən maliyyələşdirilən təşkilatlara qarşı yönəldilib.**

Təsadüfi deyil ki, 88 yaşlı amerikalı milyarder Corc Soros bu qərarına görə Macarıstan Baş naziri Viktor Orbanı tənqid etməkdədir. Macarıstanın baş naziri isə bütün bunlardan narahatlığının olmadığını söyləyib.

Corc Soros tərəfindən maliyyələşdirilən fond artıq Berlində Regional Mərkəzini açıb. Bu mərkəzdə150 nəfər çalışacaq ki, bu işçilərin də bir çoxu Macarıstandan gəlib.

Berlin Senatının məlumatına görə, hazırda Almaniyanın paytaxtında humanitar xeyriyyə layihələrinin həyata keçirilməsinə dəstək məqsədiylə qurulan 939 təşkilat məskunlaşıb. Hazırda Berlin Almaniyanın ən beynəlmiləl şəhəri hesab edilir. Paytaxtda alman dili ilə yanaşı, ingilis dilində danışan yeni sakinlərin sayı çoxalır. Almaniyanın digər bölgələri ilə müqayisədə Berlində əcnəbilərin sayı daha sürətlə artmaqdadır.

*Xatırladaq ki, Macarıstandan bir qədər əvvəl Soros Fondunun fəaliyyəti Avstriyada da dayandırılıb. Soros Fonduna Mərkəzi Avropa ölkələrində bu münasibət nədən qaynaqlanır? Soros Fondunun ölkələrin daxili siyasi proseslərinə müdaxilə etməsi səbəb ola bilərmi?*


Yeganə Hacıyeva

**Siyasi ekspert Yeganə Hacıyeva** "Yeni Müsavat"a bildirdi ki, Corc Sorosun maliyyələşdirdiyi QHT-lər Macarıstanda və digər ölkələrdə seçkiqabağı təşviqat kampaniyalarına müdaxilələr ediblər, ölkədə miqrantları dəstəkləyən siyasətin təbliğatını aparıblar. Soros Fondunun maliyyəsi ilə ölkələrin daxili siyasi proseslərinə müdaxilə hallarının artması ölkələrin hakimiyyətlərini hərəkətə keçirmiş oldu: "Sorosun böyük maliyyə oyunçusu olduğu bəllidir. Minlərlə təşkilata maliyyə dəstəyi verir. O ayrı-ayrı dövlətlərin, transmilli şirkətlərin, müxtəlif şəxslərin vəsaitlərini idarə edir. Onun fəaliyyətində ayrı-ayrı ölkələrdə siyasi proseslərə də təsiretmə imkanları var. Ona görə də artıq Avropada onun hərəkətlərinə münasibətdə fərqli davranışlar meydana çıxıb. Macarıstan Sorosun bütün təşkilatlarını bağlayır, ölkədə də onun fəaliyyətini məhdudlaşdırıb. Bu proses digər ölkələrdə də getməkdədir. Soros Amerikada da Demokratla Partiyasının maliyyələşdirilməsində iştirak edib. Eyni zamanda çox ciddi surətdə yeni seçilmiş prezidentə qarşı böyük bir fəaliyyətə başlamışdı. ABŞ prezidenti Donald Tramp hətta bir çox çıxışlarında onun adını çəkmiş, bir növ onu hədələmişdi. Şübhəsiz ki, bütün bunlar ona olan etimadın azalmasına gətirib çıxarıb. Bir çox maliyyə qurumları, dövlətlər, şirkətlər də vəsaitlərini idarə olunması baxımından Sorosdan imtina ediblər. Burada yerli hökumətlərin təsiri də var. Yerli hakimiyyətlər Soros kimi şəxslərin və fondların müdaxilə imkanlarını məhdudlaşdırmağa çalışırlar. Sorosa bir sıra ölkələrdə münasibət bununla əlaqədardır. Heç bir hökumət öz ölkəsində "rəngli inqilab" arzulamır".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 228 (7117) 27 oktyabr 2018

**Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar "Yeni Müsavat"a geniş müsahibə verib. Müsahibənin davamını sizə təqdim edirik:**

# "Yazıram da, indi bilmirəm "şah əsər"dir, ya "vəzir əsər"dir"

## Xalq yazıçısı Anar: "Məndən soruşanda ki, Azərbaycan yazıçıları haçan "Nobel" mükafatı alacaqlar, deyirəm bizim futbol komandası dünya çempionu olanda, yazıçılarımız da "Nobel" alacaqlar

*(Əvvəli ötən sayımızda)*

***- Bir az da sadəlövh yanaşma ilə deyək ki, Nizamilər, Füzulilər ölkəsində "Nobel"in şərtinə cavab verən yazıçımız tapılmır. Bunu necə şərh edərdiniz?***

- Nizaminin vaxtında "Nobel" mükafatı yox idi. Şekspir də "Nobel" mükafatı almamışdı. (gülür)

***- Olsaydı, Nizami "Nobel" alardı?***

-Ola bilər. Açığını demək lazımdır. Şekspiri, Servantesi, Danteni tanıyan kimi Nizamini dünyada tanımırlar. Şərqşünaslar tanıyırlar e, ancaq geniş anlamda bu gün Nizami dünyada layiqincə tanınmır.

***- Yazıçılar Birliyinin katibi Çingiz Abdullayev dünyada sizdən çox çap olunur. Həm də bildiyimə görə, sizdən fərqli olaraq yüksək qonorar alır.***

-Yəqin. (gülür) Mən onu qiymətləndirirəm, öz janrında istedadlı yazıçıdır. Özü də detektiv elə janrdır ki, indi camaat ən çox ona maraq göstərir. İnsanların o qədər qayğıları var, işdən sonra gedib təzədən ciddi kitab oxuyub bir də özünü yükləməyə kimsənin həvəsi yoxdur. İstəyirlər yüngül detektiv oxusunlar, vaxt keçsin, əylənsinlər. Ona görə də bütün dünyada detektiv janrı daha populyar janrdır. Yaxşıdır ki, məsələn, Rusiyanın detektiv müəlliflərindən geri qalmayan bir yazıçımız var. Mən elə fikirləşirəm ki, Çingiz Rusiyada yaşayan detektiv ustalarının heç birindən zəif yazmır, əksinə, bəlkə də onlardan güclü yazır. Ona görə də yaxşıdır ki, Rusiyada, digər xarici ölkələrdə çap olunur. Amma hələ heç bir detektiv yazıçısı indiyə qədər "Nobel" almayıb. Nə Jorj Simenon, nə Aqata Kristi...

***- Demək istəyirsiniz ki, Qarabağ mövzusu da "Nobel"ə aparmır?***

- Hər şeydən yazmaq olar, amma... Başa düşürəm, siz yəqin ki, Orxan Pamuka işarə edirsiniz. Bir söz dedi, ondan sonra "Nobel" aldı. Əlbəttə, bəyanatının da təsiri oldu. Orxan Pamuk yaxşı yazıçıdır, mən onu qiymətləndirirəm. Özü də çox təvazökar insandır. Bura gəlmişdi, biz görüşdük, mənə xoş təsir bağışladı. Amma o sözləri deməsəydi, bəlkə heç ona "Nobel" mükafatı verməzdilər. Yaxud götürək Belarus yazıçısı Svetlana Alekseyeviçi. Mən hesab edirəm ki, o, "Nobel"ə layiq deyildi. Belarusda ondan yaxşı yazıçılar var idi - Vasili Bıkov, Adamoviç var idi. Adamoviç mənim dostum idi, ssenari kurslarını bir yerdə oxumuşduq. Onlar "Nobel" almadı, Aleksiyeviç aldı. Niyə? Çünki bir-iki dəfə Rusiyanın əleyhinə çıxış etdi. Ya müğənni Bob Dilan "Nobel"ə layiqdir bəyəm? Son illər "Nobel"in kriteriyaları tamam itib. Əgər "Nobel" mükafatı almayan yazıçıların siyahısını tərtib etsəniz, ondan nüfuzlu olmasa da, hər halda ona bərabər nüfuzlu siyahı alınar. Ruslardan 4 yazıçı alıb, amma Tolstoy, Qorki, Bulqakov, Mayakovski, Yesenin, Axmatova almayıb. İosif Brodski alıb, amma Andrey Vaznisenski, ya Yevgeni Yevtuşenko almayıb. Bizdə təzə bir yanaşma meydana gəlib ki, əgər Azərbaycanda yazıçı varsa, niyə "Nobel" almayıb? Məndən soruşanda ki, Azərbaycan yazıçıları haçan "Nobel" mükafatı alacaqlar, deyirəm bizim futbol komandası dünya çempionu olanda, yazıçılarımız da "Nobel" alacaqlar.



**"Müşfiqlə bağlı məsələ sensasiya xarakteri daşımamalıdır, ciddi mütəxəssislərin rəyinə əsaslanmalıdır"**

***-Anar müəllim, yaradıcılığınızın "şah əsəri"ni yazmısınız, yoxsa hələ qarşıdadır?***

- Yazıram da, indi bilmirəm "şah əsər"dir, ya "vəzir əsər"dir. (gülür) Bacardığımı yazıram.

***-Yəni iddia, məqsəd yoxdur?***

-Yox, mən heç bir vaxt yazanda qarşıma məqsəd qoymuram ki, "şah əsər" yazım, ya buna görə mükafat alım, yaxud dünyada çap olunsun. Mən məni narahat edən məsələlərdən yazıram. O şeylər ki, məni incidir, narahat edir, o barədə düşünürəm, o barədə fikrimi bildirmək istəyirəm, o əsərləri yazıram. Onun qiymətləndirilməsi, mükafat alması, almaması mənimçün onuncu dərəcəli bir şeydir.

***-Yazıçılar Birliyinin üzvlərinin sayının artması da söz-söhbətə səbəb olur.***

-Bəli, o da bizim günahımızdır. Mən onu həmişə deyirəm.

***-2 mini keçib?***

-Keçməyib, az qalıb.

***-Bayaq şəkil çəkdirənlərdən danışdınız. Onların arasında gənc yazarlar da var, yoxsa "atalar və oğullar" problemi burada da öz sözünü deyir?***

-Yox, daha çox elə gənclər çəkdirirlər. Gənclər də müxtəlifdir. Bəlkə elələri var ki, şəkil çəkdirmək istəmirlər, mənim də onlara ehtiyacım yoxdur.

***-Sizin oxuduğunuz gənclər varmı?***

-Oxuyuram. İndi ad çəkmək istəmirəm. Çünki 5-nin adını çəkəcəksən, 15-i inciyəcək ki, hə, onu oxuyursan, məni oxumursan. Amma neçə ildir cavanların kitabları yığılıb, indi yavaş-yavaş oxuyuram onları. Gələn il imkan olsa, bir neçə gənc yazıçı haqqında yazılar da yazmaq istəyirəm.

***-Anar müəllim, bu yaxınlarda Təbrizdə olarkən Şəhriyarın uyuduğu Şairlər Məqbərəsində də olduq. Orada şair Muxtar Sadrməhəmmədi Sizə salamını çatdırmaqla yanaşı, arzu-istəyini də söylədi. Dedi ki, o taylı-bu taylı şairlərin birgə yaradıcılıq gecələrinin keçirilməsini, Qarabağa dair şeir məclislərinin təşkil olunmasını, həmçinin hər iki tərəfdə yazıb-yaradan şairlərin hər iki tərəfdə, bir kitabda nəşrini arzu edir. Bu təkliflərə sizin münasibətiniz necədir?***

-Çox sağ olsun. Yaxşı təşəbbüsdür. Şəxsən mən bunu alqışlayıram. Çox yaxşı olar. Bizdən nə asılıdırsa, onu etməyə hazırıq. Yazıçılar Birliyində Güney Azərbaycan şöbəsi fəaliyyət göstərir, rəhbəri də Sayman Aruzdur. O, ərəb əlifbasını da, fars dilini də bilir, özü də əslən Cənubi Azərbaycandandır. Ona tapşırıq verərik, nə lazımdırsa, edər.

***-Anar müəllim, sonda zəhmət olmasa bir suala da cavab verərdiniz. Mikayıl Müşfiqin məzarının, nəşinin tapılması barədə məlumatlara, dəlil-sübutlara münasibətiniz necədir? Sizdə bu barədə nə kimi məlumatlar var idi? Bəlkə vaxtilə mərhum valideynlərinizdən, digər yazıçılardan nələrsə eşitmişiniz...***

- Bu məsələ sensasiya xarakteri daşımamalıdır, ciddi mütəxəssislərin rəyinə əsaslanmalıdır. Əgər doğrudan da təsdiq olunarsa, nakam şairimiz layiqincə dəfn olunar, məzarı bilinər.

❑ **Elşad PAŞASOY,**
**Foto: "Yeni Müsavat"**

---

# Cümpey-sanın siqnalı



**Samir SARI**

**2015-ci ildə Suriyada İŞİD terrorçularına əsir düşən yaponiyalı həmkarımız Cümpey Yosuda artıq azadlığına qovuşub və ölkəsinə gedib.**

Cümpey təyyarədə əsirlik həyatından danışıb və təxminən, 1986-cı ildə hərbi toplanışda olduğumuz vaxt toplanışa 10 gün gecikdiyi üçün tutulub Gəncə qarnizonunun haupvaxtına salınmış tələbə yoldaşımız Maarif kimi narazılıq edib.

Sadəcə, öz narazılığını "lələm canı, tövbə, gediləsi yer döyüldü",- deyə ifadə edən Maarifdən dərqli olaraq, Yosuda ali təhsilli jurnalist olduğu üçün fikrini daha obrazlı ifadə edib, əsirlikdə olmağı cəhənnəm həyatına bənzədib.

Düzdür, indiyəcən, heç kəs cəhənnəmdə olub, qayıdıb, memuar yazmayıb, amma aşağı-yuxarı hamı bilir ki, ora düşənlərin başını sığallamırlar, üstəlik, orta illik temperatur göstəricisi normadan bir neçə dəfə yuxarı olur.

Güman ki, ömrünün çox hissəsini sərin Yaponiyada yaşamış Cümpey Suriyanın 50 dərəcəlik istisinə tablaşa bilmirmiş, ona görə də cəhənnəm haqda təsəvvürləri xeyli dolğunlaşıb.

Ancaq o, hələ şükr etsin ki, onu digər yaponiyalı, ingiltərəli əsrilər kimi eləmədilər. Xatırlayırsınızsa, İŞİD-in bərk gedən vaxtı "Cəllad Con" adlı biri vardı, əsirlərə narıncı paltar geydirir, telekamera önündə edam edirdi, dünyaya mesaj verirdi. Sonra necə oldusa, Conu da öldürdülər.

Cümpey Yosudanın axırı yaxşı qurtaran əhvalatından bəhs edən xəbərdə bir maraqlı cümlə var, yazılır ki, jurnalist gələcəyi barədə çox narahat olduğunu bildirib, deyib ki, bundan sonra hansı işlə məşğul olacağını hələ müəyyənləşdirməyib, çünki 3 il həbsdə olduğuna görə dünyada baş verənlərdən xəbərsizdir.

"Dünyada baş verənlərdən xəbərsizlik" boş söhbətdir. Hiss olunur ki, yapon həmkarımız, türkün sözü, tırsır. O, 3 il əsirlikdə qalandan sonra anlayıb ki, jurnalistika təhlükəli peşədir. Doğrudan da elədir. Məsələn, jurnalist öz ölkəsinin konsulluğuna girir, salamat çıxmır, Maltada araşdırma aparır, silah mafiyası vurdurur, MAR-a gedir, təhqiqat aparır, terrorçular güllələyir və sair və ilaxır...

Yosuda elə bilirmiş ki, əlini-qolunu sallaya-sallaya yeddi dövlətin bir-birilə vuruşduğu Suriyaya gedəcək və gözəl reportajlar edərək sağ-salamat geri qayıdacaq. Çətindir, Cümpey-can, çox çətindir. Bizim region var ha, buralar başqa yerdir, ağlın öz gündoğar ölkənə getməsin.

Burada bizik ki, baş çıxarırıq. İŞİD-ə pul atan və başını salamat saxlaya bilən yeganə adamın öz həmvətənimiz olmasıyla fəxr edə-edə, söyləyə bilərik ki, Suriya reportaj veriləsi yer olsaydı, bizim jurnalistlər oranı çoxdan fəth edərdilər. Amma qovğa-mərəkə təzə başlayanda bizimkilər sərhədi o üzə keçən kimi anlamışdılar ki, burada çörək yoxdur.

Salamatı qaynar bölgələrdən uzaq olmaqdır. Onsuz da belə bölgələrdə nə baş verdiyini siyasətçilər, diplomatlar, səhra komandirləri sosial şəbəkədə yazırlar, oradan götürüb yaymaq olar. Necə deyərlər, nə işin var Dəllərdə, başın qala əllərdə...

Belə olur ki, hər gün bu peşə adamlarından giley-güzar, şikayət-filan eşidirik, oxuyuruq. O gün tanınmış bir qələm (əslində klaviatura) adamı yazmışdı ki, iş axtarır, maaşı az olsa da olar, amma iş jurnalistika sahəsində olmasın, çünki işlədiyi vaxt o, çox psixoloji travma alıb.

Əlbəttə, bu yerdə köhnə jurnalistlər söhbətə müdaxilə edib, "psixoloji travma nədir ki, bizim vaxtımızda jurnalistlər fiziki travma alır, 3 həftə travmatologiya şöbəsində yatırdılar" deyə bilərdilər.

Gerçəkdən də, bir ara jurnalistlərin travma söhbəti təkcə psixologiya ilə məhdudlaşmırdı, qol-qıç və sair əzaların əzilməsi, qırılması kimi travmatik olaylar da baş verirdi. Amma o zaman zərərçəkən jurnalistlər nəsə yazıb, "mən bu peşədən bezmişəm, daha başqa işə keçirəm" demirdilər. Birincisi, ona görə ki, onların çoxunun əlindən yazmaqdan başqa iş gəlmirdi, kafel-metlax qoya bilsələr, dəmirçi-malyar işi bacarsalar, bəlkə də o işlərə keçərdilər. İkincisi, o vaxtlar jurnalistika peşəsi indiki kimi qədim deyildi, cəmi 10-15 il idi ki, camaat "Bütün ölkələrin proletarları, birləşin" şüarı olmadan qəzet çıxarırdı.

**3 il İŞİD-in əlində qala-qala saqqalını İŞİD-çilər kimi uzatmış Cümpey Yosudanın sözləri jurnalistikaya yeni başlayanlar üçün siqnal olmalıdır. Ağır işdir. Tablaşa bilməyəcəksinizsə, indidən iynə vurmağı, beton qarışdırmağı, taksi sürüb xaltura etməyi öyrənin. Eyni şeyləri gəlib jurnalistikada edəcəksinizsə, sonra "bu peşəni seçdiyim yerdə..." ilə başlayan cümlə quracaqsınız.**

**İndiyədək Azərbaycana qoyulan xarici investisiyalar barədə çoxsaylı rəqəmlər, məlumatlar açıqlanıb. Hər il bununla bağlı göstəricilər rəsmi statistika orqanı tərəfindən elan olunur, investisiyaların hansı istiqamətləri əhatə etdiyi qeyd edilir. Rəsmi qurumların, SOCAR və Neft Fondunun investisiyaları şəffaf olsa da, məmur oliqarxiyasının qaranlıq yollarla xaricə daşıdıqları vəsitlərin hesabatını dəqiq bilmək mümkün deyil...**

# Azərbaycanın və azərbaycanlıların xaricdəki yatırımları

## Dövlət qurumlarının investiyası şəffaf olsa da, məmur oliqarxiyasının xaricə daşıdıqları pulların hesabatını aparmaq mümkün olmur



**İqtisadiyyat Nazirliyinin açıqladığı məlumata görə, Azərbaycanın xaricdəki investisiyaları üzrə ilk beşlikdə Türkiyə, Gürcüstan, İsveçrə, Rusiya, Böyük Britaniya qərarlaşıb.**

Belə ki, 1995-2017-ci illər ərzində Türkiyəyə 14 milyard dollar, Gürcüstana 3,5 milyard dollardan çox, İsveçrəyə 1, 2 milyard dollar, Rusiyaya 1,1 milyard, Böyük Britaniyaya 800 milyon dollardan çox investisiya yatırılıb.

Beləliklə, rəsmi rəqəmlərə görə, 1995-2017-ci illərdə Azərbaycanın ən çox investisiya yatırdığı ölkələrin siyahısına Türkiyə başçılıq edir. Yenə rəsmi məlumatlarda Azərbaycanın indiyədək Türkiyəyə 14,5 milyard ABŞ dolları dəyərində investisiya yatırdığı bildirilir. Bunun 13 milyard dolları neft sektoruna, 1,5 milyard dolları isə qeyri-neft sektoruna yönəlib. Neft sektoruna investisiyaların ən böyüyü bu günlərdə rəsmi açılışı olan "Star" neft emalı zavodudur. SOCAR tərəfindən bu zavodun inşasına 6,3 milyard dollar vəsait sərf olunub. SOCAR daha 1,4 milyard dolları Türkiyənin "Petkim" neft-kimya holdinqini almağa sərf edib. Yaxın gələcəkdə şirkətin qonşu ölkəyə yatırımlarının 19 milyard dollara çatacağı gözlənilir.

Azərbaycanın özəl sektorunun, hətta bir çox dövlət məmurlarının Türkiyə iqtisadiyyatına yatırımları barədə rəsmi statistik məlumatlar açıqlanmır. Lakin turizm, daşımaçılıq, tekstil, tikinti, hotelçilik, daşınmaz əmlak və digər sahələri əhatə edən bu investisiyaların həcmi yəqin ki, bir neçə milyard dollarla ölçülə bilər.

### SOCAR Gürcüstanı qazlaşdırıb

Azərbaycan dövlətinin Gürcüstana investisiyalarının tarixi 2006-cı ildən başlayır. Həmin vaxt ARDNŞ Gürcüstandakı "Kulevi" terminalını alıb. 2008-ci ildə isə Dövlət Neft Şirkəti tərəfindən təsis olunmuş "SOCAR Energy Georgia" şirkəti Gürcüstanda "SOCAR" brendi altında ilk yanacaqdoldurma stansiyasını açıb.

Ötən müddətdə ARDNŞ qonşu dövlət ərazisində yanacaqdoldurma satış şəbəkəsini xeyli genişləndirib. Hazırda Gürcüstan ərazisində "SOCAR" brendi altında yüsdən yuxarı yanacaqdoldurma stansiyası fəaliyyət göstərir. Belə ki, "SOCAR Georgia Petroleum" MMC 115 yanacaqdoldurma məntəqəsi, 16 xidmət mərkəzi və 5 neft terminalına malik olduğu Gürcüstan bazarında Azərbaycanın və üçüncü tərəflərin neft məhsullarının topdan və pərakəndə satışını təşkil edir.

Digər tərəfdən, SOCAR bu ölkənin qazpaylayıcı şəbəkəsinin böyük hissəsinin distribütorluğunu uğurla həyata keçirir. Qeyd edək ki, 2008-ci il dekabrın 26-da bununla bağlı müvafiq anlaşma imzalanıb. Müqaviləyə əsasən, şirkət üç il ərzində Gürcüstanın qazpaylama şəbəkəsinə 40 milyon dollar məbləğində sərmayə qoymalıydı.

SOCAR-ın Gürcüstan nümayəndəliyinin rəhbəri Mahir Məmmədovun bu ilin yanvarında verdiyi məlumata görə, şirkət Gürcüstan hökuməti qarşısında götürdüyü öhdəliklərə artıqlaması ilə əməl edib. M.Məmmədovun sözlərinə görə, öhdəliklər 2017-ci ilin dekabrında başa çatdırılıb. Öhdəliklərə uyğun olaraq Gürcüstan iqtisadiyyatına 250 milyon dollar həcmində sərmayə yatırılmalı və 250 min abonent təbii qazla təmin olunmalı idi. Götürülən öhdəliklər artıqlaması ilə, 110 faizdən də çox yerinə yetirilib. Bununla bağlı hesabat da hazırlanıb və Gürcüstan hökumətinə təqdim olunub. M.Məmmədov deyib ki, öhdəliklər tam yerinə yetirilsə də Gürcüstanda əhalinin qazlaşdırılması ilə bağlı işlər hələ başa çatmayıb. Qazlaşdırılması asan olan ərazilərdə, eləcə də dağlıq və qazlaşdırılması daha çətin ərazilərdə yaşayan insanların "mavi yanacaqla" təmin olunmasına ehtiyac var. SOCAR bu sahədə işlərini davam etdirəcək. Eyni zamanda, ölkə ərazisində yeni yanacaqdoldurma stansiyaları tikiləcək. Bu məntəqələr əsasən magistral yollarda və yeni infrastruktur layihələrin icra olunduğu ərazilərdə tikilib istifadəyə veriləcək: "Amma bu işlər, yəni qazlaşdırılma və investisiya yatırımları artıq öhdəlik kimi deyil, məqsədyönlü şəkildə həyata keçiriləcək".

Hazırda "SOCAR Georgia Gas" MMC Gürcüstanın regionlarına təbii qaz tədarükü və paylanmasını həyata keçirir və 670 mindən çox abonentə xidmət göstərməklə yerli qaz şəbəkəsini idarə edir.

Qeyri-dövlət xəttilə də Azərbaycandan Gürcüstan iqtisadiyyatına külli miqdarda investisiya qoyulmaqdadır. Xüsusilə qonşu ölkənin turizm, bank, tikinti sektorunda Azərbaycan kapitalının həcmi getdikcə artır.

Ötən il Gürcüstan iqtisadiyyatına qoyulan 1 milyard 888,8 milyon dollar xarici investisiyaların 465 milyon dolları və ya 24,6 faizi Azərbaycanın payına düşüb. Gürcüstan Milli Statistika Xidmətinin məlumatına görə, Azərbaycan bu göstərici ilə Gürcüstan iqtisadiyyatına investisiya qoyan xarici ölkələr sırasında birinci yerdədir. Bu ilin birinci yarısında isə Azərbaycandan Gürcüstan iqtisadiyyatına 136,5 milyon dollar həcmində investisiya qoyulub.

### Neft Fondu Rusiya rubluna niyə investisiya etdi?

Rusiya tərəfinin Azərbaycandan investisiya gözləntiləri 2007-20085-ci illərdən səsləndirilməyə başlanıb. 2010-cu ildən sonra bu gözləntilər, səslənişlər daha da çoxalıb. 2013-2014-cü illərdən başlayaraq isə gözləntilər bir növ tələbə çevrilib. Nəticədə Azərbaycan Dövlət Neft Fondu Rusiyanın ən böyük banklarından biri olan Bank VTB-nin səhmlərinə 540,0 milyon ABŞ dolları investisiya yatırıb. Bundan əlavə, Moskva şəhəri "Tverskaya 16" ünvanında yerləşən "Qalereya Aktyor" ofis-ticarət mərkəzi 133,0 milyon ABŞ dollarına Fond tərəfindən satın alınıb. Hazırda Fondun vəsaitlərinin 0,8 faizi Rusiya rublunda saxlanılır.

Ümumilikdə isə Azərbaycanın Rusiya iqtisadiyyatına 1 milyard dollardan çox investisiya qoyub. Qeyd etdiyimiz kimi, bu, müxtəlif dövlət qurumları vasitəsilə qoyulan investisiyaların həcmidir. Özəl sektorun Şimal qonşumuzdakı investisiyalarının həcmi yəqin ki, daha yüksək məbləğlə ifadə olunur.

### Məmurlarımızın Avropaya, onun şərqinə "sevgisi" investisiya cildində...

Rəsmi rəqəmlərə görə, 1995-2017-ci illərdə Azərbaycan İsveçrəyə 1,2 milyard dollar investisiya yatırıb. Bunun böyük bir hissəsi SOCAR xəttilə baş tutan yatırımlardır.

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) İsveçrəyə 400 milyon frankdan artıq sərmayə yatırıb. SOCAR 2016-cı ildə İsveçrənin neft məhsullarının pərakəndə satış bazarının 7 faizinə, topdansatış bazarının 8 faizinə, maye-qaz bazarının isə 25 faizinə nəzarət edirdi..

Şirkətin 2017-ci il üzrə "Davamlı inkişaf haqqında hesabat"ında isə qeyd olunur ki, SOCAR beş il bundan əvvəl İsveçrə neft bazarına yerli müştərilərin ehtiyaclarına cavab verəcək yüksək keyfiyyətli malların pərakəndə satışı və fərdi xidmətləri özündə əks etdirən yeni bir yanaşma üsulu ilə daxil olub: "Bu gün İsveçrədəki istehlakçıların 63 faizdən çox hissəsi "SOCAR" brendini tanıyır və yüksək qiymətləndirir. SOCAR İsveçrədəki diler bazasını genişləndirərək 15 dilerlə tərəfdaşlıq əlaqələri qurub və bu ildən etibarən daha 5-10 dilerin "SOCAR" brendinə qoşulması gözlənilir. SOCAR-ın İsveçrədəki fəaliyyəti nəticəsində bu ölkədə 169 yanacaqdoldurma məntəqəsindən ibarət topdansatış şəbəkəsi, Vanqen-Oltendə yerləşən qaz doldurma zavodu, Cenevrə və Sürixin hava limanlarında yerləşən təyyarə yanacağı məntəqələri "SOCAR" brendi altında fəaliyyətlərini davam etdirməkdədir".

İsveçrə də Azərbaycanda milyonlar qazanan məmur oliqarxiyasını cəlb edən ölkələrdən biridir. Xüsusilə bu ölkənin banklarına iri həcmdə vəsait yatıran vətəndaşlarımız kifayət qədərdir. Buna görə də İsveçrədəki Azərbaycan mənşəli pulların dəqiq məbləği məlum olmasa belə, onun rəsmi investisiya göstəricisindən xeyli yüksək olduğunu rahatlıqla söyləyə bilərik.

Azərbaycanın ən çox investisiya qoyduğu 5-ci ölkə Böyük Britaniyadır. İndiyədək Azərbaycana ən çox investisiya yatıran bu ölkəyə 1995-2017-ci illərdə Azərbaycandan 800 milyon dollar investisiya qoyulub. Yenə də qeyd edək ki, bu, rəsmi qeydiyyata alınan rəqəmlərdir. Reallıqda isə azərbaycanlıların Britaniya ərazisindəki investisiyaları bir neçə milyard dollar təşkil edəcək qədər böyükdür. Nəzərə almaq lazımdır ki, dünyanın ən böyük və Azərbaycan məmurlarının sevimli yerləri olan ofşorları Böyük Britaniyanın ərazisindədir. Yalnız Beynəlxalq Bankın sabiq rəhbəri Cahangir Hacıyevin xanımı Zamirə Hacıyevanın bu ölkəyə yatırdığı vəsaitin miqdarı 100 milyon funtsterlinqə yaxındır. Azərbaycanda Z.Hacıyeva qədər və ondan çox imkanı olan, Böyük Britaniyada daşınmaz əmlaka, müxtəlif sahələrə yatırımlar edən yüzlərlə insan var. Təsadüfi deyil ki, işdən çıxarılan məmurların böyük əksəriyyətinin bu ölkədə varidatının olduğu aydınlaşır.

**Onu da qeyd edək ki, azərbaycanlıların qeyri-rəsmi invesrtisiya məkanları arasında son illərdə Balkan və Şərqi Avropa ölkələri xüsusi populyarlıq qazanmaqdadır. Müxtəlif vaxtlarda azərbaycanlıların, xüsusilə də məmur oliqarxiyasının Çexiya, Polşa, Bolqarıstan, Macarıstan və digər ölkələrdə yatırımlarına dair məlumatlar mətbuat səhifələrinə yol tapır. Bu ölkələrin rəsmi qeydiyyat sistemi şəffaf olduğu üçün hansı ölkədən nə qədər yatırımların edildiyini araşdırmaq çətinlik yaratmır. Buna görə də bundan sonra vəzifədən alınan məmurların qeyd edilən ölkələrdəki böyük investisiyaları aşkara çıxarsa, təəccüblənməyə gərək qalmayacaq. Nəzərə almaq lazımdır ki, Böyük Britaniya mənbəyi əsaslandırılmayan gəlirlər hesabına bu ölkədə əldə edilən varidatı müsadirə etməyə başlayıb. Yəni daha kimsə Azərbaycanda qanunsuz yollarla qazanılmış pullarını bu ölkəyə yatırmaq kimi riskə getməz...**

**❑ Dünya SAKİT, "Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 228 (7117) 27 oktyabr 2018



# ABŞ-dan ziddiyyətli Qarabağ mesajları... yaxınlaşan sülhdür, yoxsa müharibə?

## Boltonun region səfəri cavablar əvəzinə, sualları çoxaldıb - səbəb; **rusiyalı hərbi ekspert:** "Qarabağda müharibə bir-iki günə Azərbaycanın qələbəsi ilə bitəcək...."

**Başa çatmaqda olan həftə Qarabağ məsələsinə dəxli olan və daha çox diqqət çəkən iki hadisə ilə əlamətdar oldu. Onlardan biri Azərbaycanın müdafiə nazirinin müavini, Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkovun İsrail səfəri, digəri isə ABŞ prezidentinin milli məsələlər üzrə müşaviri Con Boltonun Bakıya və İrəvana ziyarəti, daha dəqiqi, bu ziyarət çərçivəsində onun Qarabağ mövzusunda verdiyi mesajlar oldu.**




"Yeni Müsavat"ın məlumatına görə, general Nəcməddin Sadıkov İsrailə üçgünlük səfəri zamanı öz həmkarı, habelə bu dövlətin yüksək çinli rəsmiləri, o sırada müdafiə naziri Avidqor Liberman, İsrailin aparıcı müdafiə sənayesi müəssisələrinin təmsilçiləri ilə görüşüb. Hərbi təyinatlı yeni məhsullarla tanış olub. Təbii ki, əsas müzakirə mövzusu Azərbaycana yeni silahların tədarük edilməsi, ordumuzun döyüş hazırlığını daha yüksək səviyyəyə qaldırmaqla bağlı olub. Şübhəsiz ki, səfər Azərbaycanla İsrail arasında hərbi və hərbi-texniki əməkdaşlığın bir qədər də dərinləşməsi ilə yadda qalacaq.

Xatırladaq ki, İsrail dövləti Azərbaycanın əsas silah tədarükçülərindəndir. İki ölkə arasında silah ticarətinin həcmi milyardlarla dollarla ölçülür. Tərəflər arasında başqa sahələrdə də son illər dinamik inkişaf qeydə alınmaqdadır. Təsadüfi deyil ki, İsrail mətbuatı N.Sadıkovun səfərinə xüsusi diqqət ayırıb. Bundan əlavə, İsrailin siyasi rəhbərliyi Dağlıq Qarabağ məsələsində ədalətli mövqe tutmaqda davam edir, işğalı pisləyir və birmənalı şəkildə Azərbaycanın ərazi bütövlüyünü müdafiə edir.

*****

**Qarabağ məsələsinə dəxli olan ikinci mühüm hadisə kimi Con Boltonun regiona səfərini qeyd eləmək lazım gəlir.** Bakıda Bolton ABŞ-ın münaqişənin dinc yolla həllində maraqlı olduğunu söylədi. İrəvanda isə bəyan elədi ki, münaqişənin həlli üçün tərəflər ilk növbədə özləri anlaşmalıdır. "Problemin həlli çox mürəkkəbdir. Əgər asan olsaydı, münaqişə çoxdan nizamlanardı. Mən bura ona görə gəlməmişəm ki, Amerikanın siyasətində Qarabağla bağlı hansısa dəyişikliyi elan edim və ya yeni həll yolu təklif edim. Tərəflər bir-biri ilə işləməlidir. Və tərəflər özləri həll yolunu tapmalıdır" - Bolton bildirib.

**ABŞ prezidentinin müşavirinin sözlərinə görə, əgər Nikol Paşinyan parlament seçkilərində qalib gəlsə, bu, Qarabağ münaqişəsinin nizamlanması üçün qətiyyətli addımlara getmək baxımından yaxşı imkan yaradacaq.** "Və biz də bu istiqamətdə işləməliyik ki, Azərbaycan tərəfdən də müvafiq reaksiya olsun", - deyə o bildirib.

"Heç kim sülhü tərəflərin özlərindən çox arzulamır", - deyə o, keçmiş dövlət katibi Ceyms Beykerin sözlərini xatırladıb. Ardınca qeyd edib ki, Ermənistan üçün xarici təzyiqləri zəiflətməyin ən yaxşı yolu Dağlıq Qarabağ münaqişəsinin həllidir.

"Xarici təzyiq" deyərkən amerikalı diplomat əlbəttə ki, işğalçı ölkənin Rusiya asılılığını nəzərdə tutur. Bu xüsusda o, şübhəsiz ki, haqlıdır. Konfliktin həlli həqiqətən Ermənistana Rusiya təzyiqlərinin azalmasına və minimuma enməsinə gətirəcək. Eyni zamanda Azərbaycanla Ermənistanın müstəqil inkişafını və qarşılıqlı inteqrasiyasını sürətləndirəcək.

Lakin ən maraqlısı ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşavirinin Ermənistan hakimiyyətini Rusiya silahlarından imtina etməyə və Amerika silahlarına üstünlük verməyə çağırmasıdır. Bu barədə o, Ermənistan radiosuna müsahibəsində deyib. Sitat: "Münaqişə üzündən ABŞ Konqresi Azərbaycana və Ermənistana silah satışına məhdudiyyətlər tətbiq edib. Lakin istisnalar mövcuddur. Baş nazirə (Nikol Paşinyana - red.) dedim ki, söhbət Rusiya, yaxud Amerika silahlarının alınması arasında seçimdən gedirsə, biz sonuncuya üstünlük verərdik" - Bolton bildirib. RİA "Novosti"nin məlumatına görə, elə həmin gün Bolton qeyd etmişdi ki, Ermənistan və Azərbaycan silahları əsas etibarilə Rusiyadan alırlar, halbuki Amerika silahları "istənilən halda Rusiya silahlarından yaxşıdır".

*****

**Bu açıqlama ilk baxışda sensasion, bir az da qəribə görünə bilər.** Çünki ABŞ bir yandan Boltonun dilindən konfliktin dinc yolla həllində maraqlı olduğunu bəyan edirsə, o biri yandan da münaqişə tərəflərinə daha keyfiyyətli Amerika silahları təklif edir. Bu mənada səfər cavablar əvəzinə sualları çoxaldıb.

Ancaq məsələ ondadır ki, Azərbaycandan fərqli olaraq, işğalçı ölkənin bahalı Amerika silahları almaq imkanı yoxdur. Yəqin ki, ABŞ Rusiya kimi güzəştli (daxili bazar) qiymətinə və ya aşağı faizli kreditlər hesabına da İrəvana silah satmaz. Bəs yalnız Azərbaycana silah verə bilərmi? Verərsə, Ermənistanda anti-Amerika isteriyası qalxmaz ki və buna Vaşinqtonun reaksiyası necə olar?

Əlbəttə ki, Azərbaycan istənilən yolla öz ordusunu gücləndirmək və yekun etibarilə işğal altındakı ərazilərini azad eləməkdə maraqlıdır. Bunu həm də Amerika silahları ilə edəcəksə, daha yaxşı - hərçənd Vaşinqtonun müharibədə maraqlı olduğunu düşünmürük. Deməli, ABŞ həmsədr dövlət kimi sülh səylərini artırmalıdır. Bu xüsusda Con Boltonun Bakı və İrəvanda Qarabağa dair verdiyi açıqlamalar ziddiyyətli hesab oluna bilər.

İstənilən halda, Azərbaycan konflikt yoluna qoyulanadək, işğal bitənədək özünün hərbi qüdrətini və Ermənistan üzərində üstünlüyün artırmaqda davam edəcək. Üstünlük indinin özündə də kiçik deyil...

*****

**Bu arada Ermənistanın demoqrafik göstəricisi də zəifləməkdədir.** Düşmən ölkə həm miqrasiya, həm də doğuş sayının azalması nəticəsində ciddi təhlükə ilə üz-üzə qalıb. Ekspertlər işğalçı ölkə ilə müqayisədə Azərbaycanın demoqrafik və hərbi sahədə sürətlə güclənməsinə diqqət çəkirlər. Məsələn, rusiyalı ekspert Dmitri Verxoturov Ermənistanda əhalinin azalmasının sürətlə gedəcəyini düşünür (publika.az).

"Erməni demoqrafiyası diasporla maskalanır. Yəni gedənlər erməni diasporu olur və lazım olanda onlar geri qayıdacaq. Bu, böhranı ört-basdır etmək üçün yaradılan maskadır. Ümumiyyətlə, Qarabağda müharibə zamanı Azərbaycan və Ermənistan arasında demoqrafik müqayisə aparmağın mənasız olduğunu düşünürəm. Birincisi, əhalinin sayına görə Azərbaycan aşkardır, ikincisi, Azərbaycanın iqtisadi göstəriciləri müqayisəedilməzdir. Lakin müharibələr təkcə demoqrafiya ilə qazanılmır. Çağırışçı kontingent əhəmiyyətlidir, amma bu qələbə üçün əsas deyil. Müasir müharibəni artilleriya qazanır, daha dəqiq desək, topların və təyyarələrin üstünlüyü. Azərbaycanın potensial artilleriya sistemi, ümumilikdə hərbi gücü Ermənistanla müqayisə edilə bilməz. Qarabağda baş verə biləcək müharibədə Ermənistan Azərbaycanı artilleriya sistemləri və təyyarələrinin bombardmanı qarşısında duruş gətirə bilməyəcək, sadəcə olaraq, məhv olacaq. Hesab edirəm ki, belə şərtlər altında Qarabağda baş verə biləcək müharibə bir, ya da iki gün ərzində Azərbaycanın qələbəsi ilə bitəcək", - deyə o bildirib.

**Əlavə edək ki, rusiyalı hərbi ekspertin fikirlərini əksər təhlilçilər reallığa yaxın hesab edirlər. Lakin savaşa ehtiyac qalmaya da bilər. Seçim həmişəki kimi təcavüzkar Ermənistanındır...**



Dmitri Savelyev

# "Qarabağ və 7 rayon Azərbaycana qaytarılmalıdır" - rusiyalı deputat

**"Dağlıq Qarabağ və ona bitişik 7 rayon heç bir ön şərt olmadan Azərbaycana qaytarılmalıdır". Musavat.com-un məlumatına görə, bunu Rusiya Dövlət Dumasının deputatı, komitə sədrinin müavini Dmitri Savelyev "Dezinformasiya siyasəti - müasir dünyada sabitliyə təhlükə" VI Bakı Beynəlxalq Humanitar Forumunun işçi sessiyası zamanı çıxışında deyib.**

Deputatın sözlərinə görə, Dağlıq Qarabağ konflikti haqda dünyaya obyektiv informasiyanı çatdırmaq üçün Azərbaycan diasporu media sahəsində öz fəaliyyətini gücləndirməlidir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 228 (7117) 27 oktyabr 2018

# Bakı Beynəlxalq Forumunun Azərbaycan üçün böyük faydaları

## Elman Nəsirov: "Bakı şəhəri bu gün vaxtı ilə Cenevrənin, Vyananın oynadığı rolu oynamağa başlayıb"



**Oktyabrın 25-də Bakıda VI Beynəlxalq Humanitar Forumu işə başlayıb. Forumda 86 ölkə və 24 beynəlxalq təşkilatdan 581 (416 xarici qonaq olmaqla) nümayəndə iştirak edir.**

Bakı Beynəlxalq Humanitar Forumu bəşəriyyətdə maraq doğuran qlobal xarakterli məsələlərə dair geniş spektrli dialoqlar, fikir mübadilələri və müzakirələr aparmaq məqsədi ilə 2011-ci ildən keçirilən tədbirdir. Forum Azərbaycan Respublikasında keçirilir.

2010-cu ilin yanvarında Azərbaycan prezidenti İlham Əliyev və o dövrkü Rusiya prezidenti Dmitri Medvedevin təşəbbüsü ilə Bakıda keçirilmiş Humanitar Əməkdaşlıq üzrə Birinci Azərbaycan-Rusiya Forumunda qəbul olunmuş qərara əsasən, 2011-ci il 10-11 oktyabrda Birinci Bakı Beynəlxalq Humanitar Forumu təşkil olunmuşdu. Forumun əsas məqsədi humanitar və inteqrativ impulsların yaradılması ilə yanaşı, gələcəkdə beynəlxalq səviyyədə humanitar çağırışları aktuallaşdırmaqdan ibarətdir, dəyirmi masalar vasitəsilə dialoqun qurulmasıdır. Forumun vəzifəsi ideyalar, nəzəri və praktiki bilik mübadiləsi, konstruktiv debat və müzakirələr üçün nəzəri və tətbiqi platforma yaratmaqdır. Forumun nəticəsi beynəlxalq təşkilatlara, dünya ölkələrinə və ayrılıqda hər bir şəxsə ünvanlanmış tövsiyələr və müraciətlərdə təcəssüm olunur.

Forum təşkilatçılarının və iştirakçılarının, təbii, sosial və humanitar elmlər üzrə Nobel mükafatçılarının və beynəlxalq qurumların rəhbərləri, o cümlədən dünya mədəni elitasının nümayəndələrinin qarşılarında qoyduqları iddialı məsələ, gələcəkdə beynəlxalq səviyyədə baxılması məqsədi ilə yeni humanitar gündəmin formalaşmasıdır. Forum təşkilatçıları sırasına həmçinin dövlətlərin cari və ya keçmiş rəhbərləri və transmilli korporasiyaların təsisçiləri daxildir.

Bakı Beynəlxalq Forumunun Azərbaycan üçün əhəmiyyətindən danışan **deputat, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası Siyasi Araşdırmalar İnstitutunun direktoru Elman Nəsirov** "Yeni Müsavat" bildirdi ki, Bakı Beynəlxalq Humanitar Forumu bəşəriyyətdə maraq doğuran qlobal xarakterli məsələlərə dair geniş spektrlı dialoqlar, fikir mübadilələri və müzakirələr aparmaq məqsədilə tanınmış dövlət xadimlərini, elmin müxtəlif sahələri üzrə Nobel mükafatı qaliblərini və nüfuzlu beynəlxalq təşkilatların rəhbərlərini, o cümlədən dünyanın siyasi, elmi və mədəni elitasının görkəmli nümayəndələrini bir araya toplayan tədbirdir. Artıq Bakı 6-cı dəfədir ki, Beynəlxalq Humanitar Foruma ev sahibliyi edir. Sözün həqiqi mənasında Azərbaycan bu dünyada humanitar məsələlərin müzakirə olunduğu mühüm ölkəyə çevrilib. Bakı Humanitar Forumu Azərbaycanın dünyada belə bir yerə sahiblənməsində mühüm faktorlardan biridir: "Azərbaycan paytaxtından dünyaya birgəyaşayış mədəniyyəti, müxtəlif dinlərin, sivilizasiyaların barışığı, harmoniyası ilə bağlı ideyalar ixrac olunur. Dövlətimizin başçısı cənab İlham Əliyev də Forumda açılış nitqində məhz bu məsələləri xüsusi diqqət mərkəzində saxladı. Bakı Forumu dünyada çox böyük diqqət mərkəzindədir, Azərbaycanı dünyanın diqqət mərkəzinə gətirir, Azərbaycanın dünyada müsbət imicinin formalaşmasında mühüm rol oynayır. Azərbaycanın ciddi humanitar fəlakətlə-işğalla üz-üzə qaldığı faktının dünyaya bir daha çatdırılmasında da bu Forumun əhəmiyyəti var. Azərbaycan reallıqlarının dünyada tanınması baxımından da Forumun əhəmiyyəti böyükdür. Azərbaycanın bu gün beynəlxalq aləmdə böyük nüfuzu var. Bizə etibarlı tərəfdaş kimi yanaşırlar. Bunun sayəsində Azərbaycan çox mühüm beynəlxalq tədbirlərə ev sahibliyi edə bilir. Azərbaycan öz haqlı səsini, mövqeyini həm də öz paytaxtından Beynəlxalq Humanitar Forumu kimi tədbirlərin kürsülərindən səsləndirir. Bakı şəhəri bu gün vaxtı ilə Cenevrənin, Vyananın oynadığı rolu oynamağa başlayıb".

Onu da qeyd edək ki, Elman Nəsirov dünən Forumda Qarabağ problemi ilə bağlı məruzə ilə çıxış edib.

❑ **ETİBAR,**
**"Yeni Müsavat"**

**2019-cu ildə keçiriləcək bələdiyyə seçkilərinə 54 milyon manat vəsait ayrılacaq. Hakimiyyət partiyasının bütün seçkilərə olduğu kimi bu seçkilərə də hazır olduğu məlumdur. Müxalifət təşkilatlarının hazır olub-olmadıqlarını araşdırdıq.**

# Müxalifət bələdiyyə seçkilərində iştirak etmək istəyir, amma...

## Partiyalar seçkiyə ayrılan 54 milyondan namizədlərə də verilməsini arzulayır

**AĞ Partiyanın sədri Tural Abbaslı** respublikada keçirilən bütün seçkilərdə iştirakın tərəfdarı olduqlarını bildirdi: "Partiyaların əsas işinin seçkidə iştirak etməklə siyasi resurslar əldə etməklə proqramını həyata keçirmək olduğunu düşünürük. Odur ki, biz partiya kimi gələn keçiriləcək bələdiyyə seçkilərində də iştirak edəcəyik. Düzdür, Azərbaycanda bələdiyyələrin vəziyyətini nəzərə alsaq bu seçkilərə istər partiyalar, istərsə də cəmiyyət tərəfindən marağın aşağı olduğunu etiraf etməliyik. Təəssüf ki, Azərbaycanda bu strukturun effektiv şəkildə fəaliyyətdə olmasının qarşısı alınıb. Müstəqil olmalı olan bələdiyyələr yerlərdə icra hakimiyyəti orqanlarından asılı durumdadırlar. Bələdiyyə seçkilərində 30 mindən artıq yer uğrunda seçkilər keçirilir deyə bu seçkilərdə namizədlərin sayı da həddindən artıq çox olur, yəni əslində bu seçkilər partiyalar üçün ən miqyaslı və əhatəli seçki sayılmalıdır. Təbii ki, bu miqyasda olan seçkilərə də xüsusi hazırlaşılmalıdır. Yuxarıda da qeyd etdiyim səbəblərə görə isə bu seçkilərə xalqın və siyasilərin marağı çox az olur. Hətta kifayət qədər namizəd belə tapmaq olmur. AĞ Partiya olaraq biz çalışacağıq ki, ən azından iri şəhərlərin bələdiyyə yerlərinə namizədlər irəli sürək. Həmçinin bu seçkilər də əsas məsələ şəxslərin aktivliyindən və təşəbbüskarlığından asılı olduğu üçün partiyaların da üzərinə böyük iş düşmür. Seçkilərin keçirilməsi üçün gələnilki dövlət büdcəsində 54 milyon manat ayrılacaq. Ancaq, bu vəsait əsasən MSK-nın seçkiləri keçirilməsi üçün təşkilati-texniki məsələlərə xərclənməsi nəzərdə tutulur. Yəni namizədlərə və ya seçkilərdə partiya şəklində iştirak edəcək partiyalara ayrılması üçün heç bir vəsait nəzərdə tutulmur. Əslində isə partiyaları və namizədləri təşviq etmək üçün hansısa vəsaitin ayrılması nəzərdə tutulsaydı daha faydalı olardı".

**Azadlıq Partiyasının sədri Əhməd Oruc** bildirdi ki, bələdiyyə seçkilərində iştirak etmək fikrində deyillər: "Bələdiyyələrin sədri, tərkibi rayon icra hakimiyyəti tərəfindən müəyyənləşir. Seçkinin necə keçirildiyi bəllidir. Seçkiyə ayrılan pullar isə seçki komissiyaları tərəfindən əhəmiyyətsiz işlərə sərf edilir və mənimsənilir. Ona görə də bələdiyyə seçkilərinə qatılmağı mənasız hesab edirik".

**ADP sədrinin müavini Taliyət Əliyev** bildirdi ki, indidən seçkilərdə partiyanın iştirak edib-etməyəcəyi barədə konkret danışmaq çətindir. Zaman yetişəndə partiya situasiyanı dəyərləndirib qərar verəcək: "Bələdiyyələrin özünü doğruldub-doğrultmaması və bələdiyyə seçkilərinə ayrılan vəsait məsələsinə gəlincə, hesab edirəm ki, Azərbaycanda bələdiyyə institutu ötən 20 il ərzində özünü doğrulda bilmədi. Bunun da əsas səbəbi odur ki, bizim qüvvədə olan bələdiyyə ilə bağlı qanunvericilik Azərbaycanın da qoşulduğu və 2001-ci ildə Milli Məclisində ratifikasiya edilən, yerli özünüidarəetmə haqqında "Avropa Yerliözünüidarə Xartiyası"nın tələblərinə ziddir. Həmin xartiyanın tələblərinə görə yerli özünüidarəetmə anlayışı yerliözünüidarə orqanlarının qanun çərçivəsində məsuliyyəti öz üzərinə götürən və yerli mənafelər naminə dövlət işlərinin böyük bir hissəsini nizama salan, onu idarə etmək hüququ və real bacarığı olan bir qurumdur. Yerli özünüidarə orqanlarına verilən səlahiyyətlər bir qayda olaraq tam və müstəsna olmalıdır.

Azərbaycan reallığında isə təəssüflər olsun ki, bu belə deyil. Bələdiyyələr faktiki olaraq yerli icra hakimiyyəti orqanlarının bir əlavəsi kimi fəaliyyət göstərir. Bunu zaman-zaman hakimiyyət deputatları da etiraf edirlər. Bu gün bələdiyyələrin etməli olduqları işlərin bir hissəsini icra hakimiyyəti orqanları, bir hissəsini MİS-lər, bir hissəsini digər orqanlar görür. Azərbaycanda bələdiyyə sözü beyinlərdə "torpaqsatan qurum" assosiasiyası yaradır. Bu baxımdan əgər ölkədə bələdiyyə institutunun inkişafına nail olmaq istəyiriksə, "Avropa Yerliözünüidarə Xartiyası"na tərəf olan dövlət kimi üzərimizə götürdüyümüz öhdəliyi yerinə yetirməli və bələdiyyələrin statusu haqqında qanunu Xartiyanın tələblərinə uyğunlaşdırmalıyıq. Bələdiyylərin statusunu müəyyənləşdirən qanun yenidən işlənərkən bələdiyyələrə tam və müstəsna səlahiyyətlər verilməlidir. Bu baş verərsə ölkədə bələdiyyə institutu ciddi bir struktur kimi fomalaşar və bələdiyyə institutu ölkədə əhalinin sosial iqtisadi vəziyyətinin yaxşılaşdırımasına və yerli məsələlərin sürəti həllinə öz töhvəsini vermiş olar. Siyasi qüvvələrin də bələdiyyə seçkilərində aktiv iştirakı marağı yaranar".

**AMİP katibi Əli Orucov** isə bildirdi ki, bələdiyyə seçkilərinin siyasi partiyaların və seçicilərin xüsusi aktivliyi şəraitində keçəcəyinə inanmır: "Siyasi partiyalar bu seçkilərə həvəslə qatılmayacaqlar. Seçkilərdə maliyyə təminatı vacib faktorlardandır. Həm bələdiyyə qurumlarına, həm də ümumilikdə seçkilərə inamın olmaması bu seçkiləri siyasi partiyalar üçün maraqsız edir. Maliyyə xərclənməsində xəsislik göstərilir. Eyni zamanda partiyaların və partiya üzvlərinin maliyyə durumları da yaxşı deyil. Əvvəllər seçkilərdə iştirak edən namizədlərə dövlət büdcəsindən maliyyə vəsaitləri ayrılırdı. Yaxud depozit tələb olunurdu. İndi bu ayırmalar da yoxdur. Büdcədən ayrılan 54 milyon vəsait isə seçkiləri təşkil edəcək seçki komissiyalarının sərəncamında olacaq. Xüsusilə MSK bu vəsaiti öz istədiyi kimi xərcləyəcək. Bələdiyyələrin indiki durumunda bu qədər dövlət vəsaitinin seçkiyə ayrılmasına lüzum yoxdur. Bu israfçılıq və vəsaitin havaya sovrulması deməkdir. Əlbəttə, biz də istərdik ki, normal seçki və rəqabət mühiti olsun, dövlət seçkidə iştirak edən partiyalara və şəxslərə maliyyə ayırsın. Amma təəssüf ki, bu inandırıcı deyil. O ki qaldı bələdiyyə seçkilərində iştirak məsələsinə təkcə AMİP üçün deyil, ölkənin aparıcı müxalifət partiyaları üçün indiki şərtlər daxilində bunun cavabı açıq qalır".

❑ **E.SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 228 (7117) 27 oktyabr 2018

# Dünyanın gözü Tiflisdə - Gürcüstan sabah yeni prezidentini seçəcək

## İqtidarının konkret namizədi olmasa da, bütün inzibati resursları Zurabişvilinin qələbəsinə yönəltdiyi bildirilir

**Oktyabrın 28-də Gürcüstanda prezident seçkiləri keçiriləcək. Artıq bütün diqqətlər bu seçkilərə yönəlib. Gürcüstan rəhbərliyi uğrunda 25 namizəd mübarizə aparır. Onlardan ikisi qadın, 25-i kişidir. Ən cavan namizədin 38, ən qocaman namizədin 67 yaşı var.**

Namizədlərin 8-i partiya nümayəndəi, 3-ü şirkət direktoru, 2-si parlamentin deputatı, 2-si biznesmen, 2-si universitet professoru, 1-i mehmanxana müdiri, 1-i Elmlər Akademiyasının işçisi, 1-i Hərbi Tibbi Akademiyanın rektorudur. 5 namizəd işləmir.

**Şanslı namizədlər sırasında David Bakradze (Avropa Gürcüstanı - Azadlıq Hərəkatı), Qriqol Vaşadze (Vahid Milli Hərəkat Partiyası) və Salome Zurabişvilinin (Gürcü Arzusu - Demokratik Gürcüstan Partiyasının dəstəklədiyi müstəqil namizəd) adı çəkilir.**

Seçkilərdə qalibin ilk turda məlum olub-olmayacağı yönündə müxtəlif mövqelər var. Daha çox ikinci turun olacağı ehtimallarından söz açılır. Müzakirələrin mərkəzində xanım namizəd Salome Zurabişvili dayanır. Hazırkı gürcü iqtidarının konkret namizədi olmasa da, bütün inzibati resursları qadın namizədin qələbəsinə yönəltdiyi bildirilir. Hakim "Gürcü Arzusu" Koalisiyasının onu dəstəkləməsinin təsadüf olmadığı vurğulanır. Hətta Gürcüstanın keçmiş baş naziri, milyarder Bidzina İvanişvilinin S.Zurabişvilinin seçki kampaniyasına külli miqdarda maliyyə yardımı etdiyi deyilir.

Gürcüstan, region və Azərbaycan üçün hansı iddiaçının qalib gəlməsinin vacib olduğu yönündəki müzakirələr də birmənalı deyil. Burada D.Bakradzenin adı daha çox səslənir. Azərbaycan üçün bu şəxsin Gürcüstan prezidenti olmasının önəmi daha çox vurğulanır. Səbəb kimi də, S.Zurabişvilinin ermənipərəst mövqeyinin zaman-zaman şahidi olmağımız göstərilir. İvanişvilinin ona olan dəstəyini düşünsək, xanım siyasətçinin Rusiya meylli olduğunu deyə bilərik.



**Gürcüstanın sabiq prezidenti Mixail Saakaşvili də müzakirə obyektidir.** Onun partiyası olan Vahid Milli Hərəkatın namizədi Q.Vaşadze seçkilərdə uğur qazanarsa, Saakaşvili ölkəsinə dönərsə, bunun Gürcüstan üçün hansı nəticələrinin olacağı barədə diskussiyalar gedir. Eyni zamanda, namizədlərdən rus yoxsa qərbmeylli siyasətçinin uğur qazanacağı ilə bağlı fərqli proqnozların şahidi oluruq.

Politoloq Əhəd Məmmədli bildirdi ki, Gürcüstanda prezident səlahiyyətləri kifayət qədər məhdudlaşdırılsa da, bu seçkilər ümumxalq seçkisi olduğu üçün öz əhəmiyyətini saxlayır: "Seçkilərdə ikinci tur gözləyirəm. Favorit namizədim "Avropa-Gürcüstanı uğrunda hərəkatın" namizədi David Bakradzedir. Düşünürəm ki, bu seçkilərdə əsas mübarizə David Bakradze, Qriqol Vaşadze və Salome Zurabişvili arasında gedəcək. Salome Zurabişvili hakimiyyətin rəsmi namizədi olmasa da, mövcud iqtidarın dəstəklədiyi namizəddir. Onun qələbəsi üçün bütün inzibati resurslar işə salınıb. Gürcüstan nə qədər demokratik ölkə olursa olsun, yenə də bura Qafqazdır. Yeni Qafqazda hakimiyyətin dəstəklədiyi namizəd həmişə şanslıdır. Total saxtalaşdırmanın olacağına inanmıram, lakin tam istisna etmirəm. Demokratik seçkidə belə Zurabişvilinin şansları var. Dövlət tərəfindən administrativ resursların dəstəyini də əlavə etsək, Zurabişvilinin şansları daha da artır. İvanaşvilinin maliyyə dəstəyi də Zurabişvilinin imkanlarını genişləndirəcək".

Buna rəğmən politoloq düşünür ki, Bakradze gürcü seçici üçün daha cəlbedici fiqur görünür: "Onun yenilikçi, qərbyönümlü namizəd kimi daha çox səs toplayacağı düşüncəsindəyəm. Xanım iddiaçının birinci turda qalib gəlməsi üçün gərək seçkilərdə saxtakarlıq halları çox olsun. İndiki Gürcüstanda da bunun olacağını düşünmürəm. Bir proqnoz da verim, ikinci tura Bakradze ilə Zurabişvili çıxacaq. Mümkündür ki, ikinci turda Bakradze qalib gəlsin. İkinci turda digər nüfuzlu namizədlərin əksəriyyəti Bakradzeyə dəstəklərini verəcəklər. Bu da seçkilərin müqəddəratını onun xeyrinə həll edəcək. Salome Zurabişvili nə Qərb, nə də Rusiya, İvanişvili yönümlü siyasətçidir. İvanaşvili hakimiyyətə gələndə çoxları deyirdilər ki, Rusiya qalib gəldi. Amma təbii ki, elə olmadı. Gürcüstan qərbyönümlü siyasətinə davam etdi. Zurabişvili də qalib gəlsə, Gürcüstan qərbyönümlü siyasətini davam etdirəcək. 2008-ci ildəki müharibə nəticəsində Abxaziya, Cənubi Osetiyanın Rusiya tərəfindən müstəqilliyi tanınandan sonra Gürcüstanda rusyönümlü siyasətin qalib gəlməsi mümkünsüzdür".

Politoloq Azərbaycan üçün hansı namizədin qalib gəlməsinin vacibliyinə də toxundu: "Bizim üçün o qədər də hansı namizədin qalib gəlməsi fərq etməyəcək. Azərbaycan Şevarnadzenin dövründə də, Saakaşvilinin zamanında da Gürcüstanla yaxşı münasibətlərdə idi. Düzdür, İvanaşvilinin vaxtından indiyə qədər Azərbaycan və Gürcüstan liderləri arasında o qədərdə isti münasibətlər yoxdur. Ölkələr iqtisadi layihələrdə tərəfdaşdır. Eyni zamanda, Azərbaycanla Gürcüstan bir-birinə siyasi, iqtisadi baxımdan bağlı ölkələrdir. Təəssüflə qeyd etməliyəm ki, Gürcüstanın daxili siyasətinə təsir imkanlarımız çox azdır. Gürcüstanda yaşayan soydaşlarımız bu ölkədə həmişə iqtidarın namizədlərini dəstəkləyir. Şevarnadzenin də, Saakaşvilinin də, İvanişvilinin dövründə də belə idi, indi də belədir. Ona görə də soydaşlarımızın kimi dəstək verməsinin bizim üçün o qədər də önəmi yoxdur. Erməni lobbisi Gürcüstanda da mütəşəkkil şəkildə fəaliyyət göstərir. Azərbaycan lobbisi haqqında isə bu sözləri demək olmaz. Lakin istənilən halda lap Zurabişvili qalib gəlsə də, Azərbaycan-Gürcüstan münasibətləri eyni səviyyədə qalacaq. Çünki dövlət maraqları ən öndə gedir. Gürcüstan iqtisadi baxımdan Azərbaycandan asılıdır.

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# "Boltonun açıqlamalarının ən önəmli siyasi mənası budur ki..."

## **Politoloq**: "Moskvada gözləntilər var idi ki, Tramp iqtidara gəldikdən sonra postsovet məkanını Rusiyanın nüfuz zonası kimi tanıyacaq və ona güzəştə gedəcək"

**ABŞ prezidentinin müşaviri Con Bolton Azərbaycanda səfərdə olarkən bir sıra mesajlar və açıqlamalar verdi. O, rəsmilərlə Dağlıq Qarabağ münaqişəsi, İranın regiondakı ziyanlı fəaliyyəti, bir sıra iqtisadi məsələləri müzakirə edib.**

Boltonun dediklərindən belə aydın olur ki, görüşlərində insan haqları və demokratiya məsələlərinə də toxunulub.

C.Boltonun Ermənistanı tarixdə baş verənləri eşələməməyə çağırması da olduqca ilginc məqamdır.

Hər halda ABŞ diplomatlarının davamlı şəkildə Qarabağla bağlı çağırışları prosesin "ölü" nöqtədən tərpədilməsi istiqamətində addımlar atıla biləcəyi haqda ümidlər yaradır. Belə qənaət yaranır ki, ABŞ yeni siyasət yürütməyə başlayır.

"Con Boltonun Ermənistanda verdiyi açıqlamaları diqqətəlayiq sayıram. O, şablondan kənara çıxaraq Tramp administrasiyasının bizim bölgəyə baxışını anlamağa, təhlil etməyə imkan verən fikirlər söylədi".

**Politoloq Şahin Cəfərli** bu sözləri amerikalı diplomatın dediklərini "Yeni Müsavat"a şərh edərkən bildirdi. Ekspertin sözlərinə görə, əsas yenilik bundan ibarətdir ki, ilk dəfə olaraq ABŞ rəsmisi Azərbaycana və Ermənistana silah sata biləcəklərini bəyan etdi: "Qonaq bildirdi ki, Ermənistan və Azərbaycan əsasən Rusiya silahlarından istifadə edir, bu isə Moskvanın tərəflər üzərində əlavə təzyiq vasitəsi qazanmasına şərait yaradır və sülhə aparıb çıxarmır. Bu sözlər ABŞ-ın siyasətindəki dəyişikliyi göstərir, çünki indiyədək Vaşinqton düşünürdü ki, münaqişə tərəflərini silahlandırmaq sülhə xidmət etmir, əksinə, onları müharibəyə təhrik edir. Hazırkı administrasiya isə məsələyə daha realist və praqmatik yanaşır, görür ki, ABŞ-ın silah embarqosu heç nəyi dəyişmir, əksinə, bununla meydanı Rusiyaya vermiş olurlar. Nəticədə Moskvanın regional dayaqları, Azərbaycan və Ermənistan üzərində təsir imkanları daha da güclənir, bu isə ABŞ-ın maraqlarına ziddir. Düzdür, Boltonun bəyanatı o demək deyil ki, ABŞ artıq sabahdan tərəflərə silah satışına başlayacaq. Əvvəla, bu, elə də sadə prosedur deyil, çünki təkcə hökumətin qərar verməsi kifayət etmir, Konqresin də icazəsi tələb olunur. İkincisi, ABŞ silahları Rusiyanın, eləcə də digər ölkələrin istehsalı olan analoqlarından bahadır və bu baxımdan tərəflər üçün çox da cəlbedici deyil. Üçüncüsü, bu silahlardan istifadə qaydalarının öyrənilməsi, onlara texniki xidmət göstərilməsi, ehtiyat hissələrinin alınması da böyük xərc tələb edən məsələlərdir". Amma Ş.Cəfərli hesab edir ki, bununla belə, əgər gələcəkdə doğrudan da ABŞ-dan silah almaq imkanı yaranacaqsa, Azərbaycan bu imkandan yararlanmalıdır: "Çünki biz silahlanma kimi strateji sahədə bir bazardan asılı olmamalıyıq və mənbələri çeşidləndirmək istiqamətində apardığımız siyasəti mütləq davam etdirməliyik. Məncə, Boltonun açıqlamalarının ən önəmli siyasi mənası budur ki, ABŞ Cənubi Qafqazı Rusiyanın nüfuz dairəsi kimi qəbul etmək fikrində deyil. Gürcüstanla bağlı siyasət zatən məlum idi, bu ölkənin avroatlantik inteqrasiyasına ABŞ açıq dəstək verir. İndi isə Boltonun sözlərindən məlum olur ki, Azərbaycan və Ermənistan üçün də bu yol bağlı deyil. Bu, önəmli detaldır".


Con Bolton

**Politoloq qeyd etdi ki, öncə səfir Riçard Mills, daha sonra ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşavirinin Ermənistan rəhbərliyinə və toplumuna ünvanladığı mesajların işğalçı qonşumuzda kiçik şok yaratdığını söyləyə bilərik:** "Mills Dağlıq Qarabağ ətrafındakı ərazilərin Azərbaycana qaytarılmasının zəruriliyini bildirmişdi, Bolton isə Ermənistanın Rusiyadan ifrat asılılığına işarə vuraraq bu ölkəni öz suverenliyi və müstəqilliyini təmin etməyə çağırdı. Yeni açıq ifadə etdi ki, Ermənistan bu gün məhdud müstəqilliyə malikdir. Təsadüfi deyil ki, amerikalı qonağın bu sözləri Ermənistanın rusiyayönümlü siyasi qüvvələri - Serj Sərkisyanın Respublika Partiyası və daşnaklar etirazla qarşılayıblar". Ş.Cəfərli diplomatın Qarabağ məsələsinin diqqət göstərməsini də xüsusi vurğuladı: "Bolton açıq bəyan etdi ki, Dağlıq Qarabağ münaqişəsinin həlli həm də Ermənistanın müstəqilliyinə xidmət etmiş olar. Çünki problemin nizamlanması Ermənistanın həm Azərbaycan, həm də Türkiyə ilə sərhədlərinin açılmasına, əlaqələrin bərpasına səbəb olacaq, bu isə onun inkişafına şərait yaradacaq. Bu baxımdan ABŞ Ermənistandakı seçkilərdə Nikol Paşinyanın xalqdan mandat almasından sonra Qarabağ məsələsinin həllinə başlamağın tərəfdarıdır. Lakin aydındır ki, ABŞ-ın mövqeyi önəmli olsa da, həlledici deyil və Rusiya amili ilə hələ ki hesablaşmaq lazım gələcək. Boltonun sözlərində başqa bir diqqətçəkən məqam onun Ermənistan cəmiyyətini tarixi şablonlara qapılıb qalmamağa çağırması oldu. Mən bunu belə anladım ki, Ermənistanın Türkiyə ilə münasibətlərdə "soyqırım" məsələsini şərt kimi irəli sürməsini Amerika tərəfi doğru saymır".

**Politoloq deyir ki, bütün bunları ABŞ-ın bölgə ilə bağlı yeni siyasəti saymaq olar:** "Moskvada gözləntilər var idi ki, Tramp iqtidara gəldikdən sonra postsovet məkanını Rusiyanın nüfuz zonası kimi tanıyacaq və ona güzəştə gedəcək. Amma ABŞ-ın belə bir alverə getmədiyini görürük. Bununla yanaşı, Qarabağ münaqişəsinin həlli ilə bağlı Vaşinqtonun siyasətində hələlik radikal dəyişiklik gözləməyə dəyməz. ABŞ bu məsələdə Rusiya faktorunu nəzərə alır".

**Ermənilər özləri də mövcud durumda olduqca pərt olublar. "Biz özümüzü aldatmamalıyıq ki, dünya oyunçuları Ermənistanı düşünür və bizə kömək edir". Publika.az xəbər verir ki, bu barədə erməni siyasi şərhçi K.Ambartsum deyib.**

❑ **E.PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 228 (7117) 27 oktyabr 2018

# Poçt qutularına atılan təhlükəli bağlamalar




## Azərbaycanın daha 12 bölgəsinin sakinlərinə “Bakcell”dən PULSUZ 4G İnternet

### Ölkənin ən iri və sürətli mobil şəbəkəsindən tamamilə pulsuz istifadə etmək üçün unikal fürsət

**Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi “Bakcell” şirkəti ölkənin daha 12 bölgəsinin sakinlərinə 5 Giqabayt həcmində PULSUZ 4G interneti əldə etmək və telekommunikasiya bazarında ən müasir texnologiya və ən yüksək müştəri təcrübəsi ilə tanış olmaq fürsəti qazandırır.**

**“Bakcell” əhatə dairəsi və şəbəkə həcmi baxımından ölkənin ən böyük 4G (LTE) şəbəkəsinə malikdir. Şirkətin 1500-dən çox LTE baza stansiyası ilə saniyədə 225 meqabitə qədər sürəti dəstəkləyən 4G şəbəkəsi gündən-günə genişlənir və artıq bütün Bakı və Abşeron ərazisi daxil olmaqla ölkənin 40-dan çox rayon və şəhər mərkəzini əhatə edir. Özünün 4G şəbəkəsinin əhatə dairəsini Azərbaycanın bölgələri üzrə sürətlə genişləndirən "Bakcell" həmin bölgələrdə yaşayan abunəçilər üçün təşkil edilmiş xüsusi kampaniya çərçivəsində 4G şəbəkəsində istifadə etmək üçün 5 Giqabayt PULSUZ İnternet hədiyyə edir. Bu dəfə Kürdəmir, Ağdaş, İmişli, Masallı, Şəmkir, Mingəçevir, Hacıqabul, Lerik, Tovuz, Ağcabədi, Daşkəsən və Göyçayda yaşayan abunəçilər pulsuz internet trafiki əldə edib ölkənin ən sürətli və etibarlı mobil şəbəkəni sınaqdan keçirməyə imkan qazanıblar. Qeyd edək ki, bundan əvvəl həmin kampaniya Azərbaycanın digər 20 bölgəsində həyata keçirilib.**

**4G texnologiyası mobil cihaz vasitəsilə həyata keçirilən yükləmə, video zəng, mobil televiziya və ya sosial şəbəkələrdən istifadə kimi əməliyyatların sürətini əhəmiyyətli dərəcədə yüksəltmək üçün yaradılmış dördüncü nəsil simsiz məlumatötürmə şəbəkəsidir. 4G əsasən daha sürətli, rahat və sabit texnologiya deməkdir. “Bakcell” şirkətinin qurduğu ən müasir 4G şəbəkəsi abunəçilərə öz smatrfonlarının ən maraqlı funksiyalarından tam şəkildə yararlanmaq imkanı verir. Bu isə o deməkdir ki, sözügedən texnologiya sayəsində “Bakcell” abunəçiləri yüksək həllolma əmsalı ilə 4K kontentini izləmək və yükləmək, əyləncə proqramlarına ani giriş əldə etmək, HD keyfiyyətində onlayn video izləmək, canlı konsert və idman proqramlarına baxmaq və mürəkkəb yeni nəsil mobil tətbiqetmələrindən istifadə etmək imkanına malikdirlər.**

**Yuxarıda qeyd olunan bölgələrin sakinləri 23 oktyabr - 8 yanvar tarixləri arasında keçiriləcək bu kampaniyada iştirak etmək üçün sadəcə telefonda *304#YES kodunu yiğmalı və cihazın ayarlarında 4G/LTE şəbəkəsini şeçməlidirlər.**

**Kampaniya zamanı təqdim olunan PULSUZ internet trafikindən istifadə etmək fürsəti hər abunəçiyə yalnız bir dəfə verilir. Kampaniyadan yararlana bilmək üçün abunəçinin mobil cihazı 4G şəbəkəsini dəstəkləməli və 4G SİM-kartla təmin olunmalıdır. Qeyd edək ki, yuxarıda qeyd olunan bölgələrdə yaşayan "Bakcell" abunəçiləri yaşadıqları əraziyə yaxın olan "Bakcell" Müştəri Xidməti Mərkəzinə və ya “Bakcell”in diler dükanına yaxınlaşıb öz köhnə SİM kartını yeni 4G SİM-kartı ilə PULSUZ dəyişə bilərlər. Həmin bölgələrdə yerləşən diler dükanlarının ünvanları aşağıdakı linkdədir: https://www.bakcell.com/az/free_5_gb_internet-_on_4g_network**

**5GB həcmində PULSUZ internet yalnız “Bakcell”in 4G şəbəkəsində 30 gün ərzində istifadə oluna bilər. Həmçinin, hədiyyə 5GB paketi yalnız yuxarıda qeyd olunan rayon və şəhərlərin ərazisində istifadə oluna bilər.**

### ABŞ-da keçmiş prezidentlərin ünvanına göndərilən “bomba-paket”lər Azərbaycanda da post göndərişləri ilə bağlı təhlükəsizlik məsələsini gündəmə gətirib



**ABŞ-nın sabiq vitse-prezidenti Co Baydenin evinə şübhəli iki bağlama göndərilib. Yerli polis əməkdaşları Co Baydenin evinə göndərilən bağlamalarından birinin Vilminqton, digərinin isə Nyu Kasteldəki poçtalarda aşkar edildiyini bildirib. Bunların keçmiş ABŞ prezidentləri Barak Obama və Bill Klintonun evləri ilə CNN-ın Nyu-Yorkdakı ofisi də daxil olmaqla bir çox ünvana göndərilən və içərisində partlayıcı maddə olan paketlərlə əlaqəsinin olub-olmadığı araşdırılır.**

Prezidenti Donald Tramp səxsi ‘’Twitter’’ səhifəsindən verdiyi açıqlamada bildirib: "Bu gün ictimaiyyətdə olan qəzəbin səbəbi bəzi media orqanlarının yaydığı qərəzli və xətalı xəbərlərindən mənbələnir’’.

Qeyd edək ki, bu həftə macarıstanlı biznesmen Corc Sorosun Nyu-Yorkdakı evinin poçt qutusunda da partlayıcı maddə tapılmışdı. Həmçinin məşhur aktyor Robert De Nironun restoranına şübhəli bağlama göndərilmişdi.

ABŞ Federal Təhlükəsizlik Bürosunun (FTB) məsləhətçisi Endrü Vayssman bildirib ki, internet messencer və poçtdan istifadə edən cinayətkarları effektiv izləmək üçün hüquq-mühafizə orqanlarının əlində hüquqi baza yoxdur. ABŞ xüsusi xidmət orqanları məhkəmənin qərarına əsasən, istifadəçinin fəaliyyətini internet provayder səviyyəsində izləyə bilər. Lakin iri internet xidmətlərin əksəriyyəti internet operatorların kanalları üzrə ötürülən məlumatları şifrələyirlər, nəticədə informasiyanın bir hissəsi FTB üçün əlçatmaz olur.

Vayssman xüsusi xidmət orqanlarına əlçatmaz xidmətlər qismində Gmail poçt müştərisi, Google Voice və Skype səsli çatları və Dropbox fayl anbarını nümunə kimi göstərib.

*Bəs Azərbaycanda vəziyyət necədir? Poçt qutularına nəzarət, göndərişlərin yoxlanılması necə baş verir?*

Poçt göndərişlərinin müasir göndərilmə texnologiyası qəbul zamanı qeydiyyatlı göndərişlərə (sifarişli və qiyməti bəyan olunmuş məktublara və bütün kateqoriyalı bağlamalara) unikal poçt identifikatorunun (ştrix-kodun) aid edilməsi prinsipinə əsaslanır. Hər bir keçid mərhələsində poçt identifikatorunun məlumatı vahid uçot və nəzarət sisteminə daxil edilməklə internet vasitəsilə daxili və beynəlxalq poçt göndərişlərinin keçidinin izlənilməsi mümkün olur. 13 simvoldan (dörd hərf, 9 rəqəmdən) ibarət poçt identifikatoru poçt göndərişlərinin qəbulu zamanı verilən qəbzdə onun nömrəsi olaraq göstərilir.

Beynəlxalq sifarişli poçt göndərişlərinin *(sifarişli məktub, sifarişli banderol və kiçik paket)* izlənməsi hələlik adları aşağıda göstərilən ölkələrlə mümkündür: Almaniya, Belarusiya, Böyük Britaniya, Birləşmiş Ərəb Əmirlikləri, Cənubi Afrika Respublikası, Çin, Danimarka, Estoniya, Finlandiya, Fransa, Hindistan, Honq-Konq, Xorvatiya, Koreya, İordaniya, İran, İspaniya, İsveçrə, İsveç, Qazaxıstan, Latviya, Litva, Macarıstan, Malta, Malayziya, Moldova, Misir, Hollandiya, Pakistan, Rusiya, Sinqapur, Slovakiya, Türkiyə, Yaponiya, Yunanıstan.

Markasız və ya az marka ilə poçt qutusuna atılan məktub, səbəbi göstərilərək geri qaytarılır. Göndərən şəxsin ünvanı olmadığı zaman paylanmamış poçt göndərişləri sırasına daxil edilir.

Şirkət daxilində beynəlxalq tələblərə uyğun olaraq, aşağı, orta və yüksək riskli müştəri kateqoriyası var və bu kateqoriyaya uyğun olaraq, hər bir müştəri qiymətləndirilir. Poçt göndərişinin poçt şöbəsində maksimum saxlanma müddəti 1 aydır. İstisna hallarda müştərinin yazılı ərizəsinə əsasən saxlanma müddəti 2 aya qədər uzadıla bilər. Poçt şöbəsinə daxil olan çəkisi 500 qramdan artıq poçt göndərişi bildiriş yazıldığı gündən sonrakı 5 gün müddətində alıcı tərəfindən tələb olunmadıqda, “Azərpoçt” MMC-nin qüvvədə olan tariflərinə əsasən 5 gündən artıq saxlanılmış hər günə görə 1 ədəd kiçik paket üçün 0,20 manat, 1 ədəd bağlama üçün isə 0,30 manat olmaqla saxlanma haqqı alınır.

Bu müddət ərzində həmin göndərişlərin, bağlamaların da təhlükəsizlik normalarına nə dərəcədə riayət edib-etməməsi də araşdırılır.

Kiçik paket və bağlamanın fərqinə gəlincə, hər iki göndəriş növü əşya və malların göndərilməsi üçün nəzərdə tutulub. Kiçik paket məktub poçtuna aid olduğu üçün onun maksimum çəkisi 2 kq, bağlamanın maksimum çəkisi isə 30 kq müəyyən edilib. Xaricdən daxil olan mal tərkibli poçt göndərişinin kiçik paket və ya bağlama olduğunu onun üzərindəki 13 simvollu izləmə kodunun 1-ci simvolu əsasında müəyyən etmək olar. Belə ki, kiçik paketin izləmə nömrəsinin 1-ci simvolu “R” (sifarişli olduqda) və ya “S” (sadə olduqda), bağlamanın izləmə nömrəsinin 1-ci simvolu isə “C” hərfi olur.

Poçt qutularından məktubların nə vaxt çıxarılması da bu məqamda diqqət çəkir. Yəni təhlükə varsa, bunu nə qədər müddət sonra bilmək mümkündür? Bakı və respublika tabeli şəhərlərdə 6 gün ( gün ərzində, qrafik üzrə 2 dəfə), rayon mərkəzləri və qəsəbələrdə 6 gün (gün ərzində 1 dəfə), poçt şöbəsi olan kəndlərdə 5 gün (gün ərzində 1 dəfə), poçt şöbəsi olmayan kəndlərdə 3 gün (gün ərzində 1 dəfə) ərzində bağlama və məktublar çıxarılır.

**❑ Sevìnc TELMANQIZI,**
**Musavat.com**

## “Nar” korporativ sosial məsuliyyət layihələrini davam etdirir

**“Nar” özünün korporativ sosial məsuliyyət (KSM) strategiyası çərçivəsində əhəmiyyətli sosial aksiyalar həyata keçirməkdə davam edir. Mobil operator fiziki məhdudiyyətli insanlara qayğı göstərmək və onların cəmiyyətə inteqrasiya olunması istiqamətində müxtəlif addımlar atır. “Nar”ın növbəti layihəsi eşitmə və nitq məhdudiyyəti olan insanlara dəstəkdir. Mobil operator eşitmə və nitq məhdudiyyəti olan insanların öz yaxınları və cəmiyyət ilə daha rahat ünsiyyət qurmalarını asanlaşdıran xüsusi tədris vəsaiti hazırlayır. “Eşitmə və Nitq Məhdudiyyətli Şəxslərə Sosial Yardım” İctimai Birliyinin dəstəyi ilə hazırlanan vəsait yaxın vaxtlarda təqdim ediləcək.**

Gəlin birlikdə böyüyək

**Qeyd edək ki, “Nar” paytaxt Bakı ilə yanaşı, bölgələrdə yaşayan fiziki məhdudiyyətli gəncləri daim diqqətdə saxlayır. Mobil operator ünsiyyət məhdudiyyətli gənclərin bilik və bacarıqlarını artırmaq, onların gələcək karyeralarına töhfə vermək və mənəvi dəstək göstərmək məqsədilə, müxtəlif bölgələrdə “Təlim məktəbi” layihəsini reallaşdırıb. Nəticədə fiziki məhdudiyyəti olan gənclər müxtəlif peşələrə yiyələnib.**

**“Azerfon”un İctimaiyyətlə əlaqələr departamentinin rəhbəri Əziz Axundovun sözlərinə görə, mobil operator bu cür sosial layihələri genişləndirməyi nəzərdə tutur: “Nar" telekommunikasiya sahəsi ilə yanaşı, cəmiyyət üçün həssas olan məsələlərdə effektli addımları ilə seçilir. Xüsusilə də, fiziki məhdudiyyəti olan şəxslərlə bağlı uzunmüddətli və ardıcıl layihələr gerçəkləşdirir. “Nar”-ın növbəti sosial layihəsinin də uğurlu və səmərəli olacağına inanırıq".**

**Qeyd edək ki, fiziki məhdudiyyətli şəxslərə dəstək, təhsil və maariflənmənin inkişafı, gənclər arasında idmanın təbliği “Nar”-ın KSM strategiyasının ən vacib istiqamətləridir. Mobil operator gənclərin oxumağa həvəsini artırmaq, təhsilin önəmini aşılamaq, eyni zamandan fiziki məhdudiyyətli insanların cəmiyyətə inteqrasiya olunması istiqamətində bir çox uğurlu layihələr gerçəkləşdirib. 2018-ci il ərzində mobil operator KSM strategiyası çərçivəsində 12 irimiqyaslı sosial layihələr həyata keçirib.**

**“Nar” KSM strategiyası haqqında ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar.**

**“Azerfon” şirkəti (“Nar” ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. “Nar” 2,1 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.**

YENİ MÜSAVAT
N 228 (7117) 27 oktyabr 2018

**Avropanın ən yüksək səviyyəli liderləri uşaqlardan imtina edir. Bu nədir? İdeologiyanın düşünülmüş seçimi, "çayldfri" (uşaqdan azad) sisteminin izləri, yoxsa nə? Bu, təkcə liderləri əhatə etmədiyi üçün xüsusilə diqqət doğuran məqamdır. Hazırda Avropada uzun illərdən bəri yaşayan, əslən bu torpaqlardan olan insanlarda da uşaqsız ailə sisteminə ciddi keçid var. Bunun səbəblərindən biri də bir çox dünya liderlərinin uşaqsız ailə modelinə üstünlük verməsidir.**

# Övladı olmayan dünya liderləri

## Avropa uşaqsız prezidentləri ciddi təhlükə hesab edir, çünki.. - ilginc faktlar


Angela Merkel


Emmanuel Makron


Tereza Mey


Atatürk


Dövlət Baxçalı

### Bu prezidentlər uşaq sahibi olmayıb

"Yeni Müsavat" bu modeli seçən dünya liderlərinin siyahısını və onların bu seçiminin səbəbini yazır. Öncə siyahıya ötəri nəzər salaq:

**Angela Merkel** - Almaniya kansleri, 63 yaş, iki dəfə evlilik. Uşaqsız...

**Emmanuel Makron** - Fransa prezidenti, 39 yaş, evlidir və uşağı yoxdur.

**Tereza Mey** - Böyük Britaniyanın baş naziri, 60 yaş, 37 ildir evlidir və uşağı yoxdur.

**Stefan Leven** - İsveçin baş naziri, 59 yaşı var, 2003-cü ildən evlidir və uşağı yoxdur.

**Paolo Centilione** - İtaliya hökumətinin başçısı, 62 yaş, uşağı yoxdur.

**Mark Ryutte** - Niderland hökumətinin başçısı, 50 yaş, subay və uşaqsız.

**Jan Klod Yunker** - Avropa Komissiyasının sədri, 64 yaş, uşağı yoxdur.

**Nikola Sterdcen** - Şotlandiyanın baş naziri, uşağı yoxdur.

**63 yaşlı Merkel** ikinci dəfədir ki, ərdədir. 4 il davam edən birinci nikahında da, 30 ildir sürən ikinci nikahında da o, ana olmaq istəməyib. İndən belə ana olma şansları isə sıfıra bərabərdir. Bundan başqa, kansler özü müsahibələrindən birində şüurlu şəkildə valideyn olmaqdan imtina etdiyini deyib.

Uşaqla bağlı analoji mövqeyi **Fransa prezidenti Emmanuel Makron** da seçib. Cavan və ambisiyalı siyasətçi 39 yaşında ata olmaqdan imtina edib. Bunu da karyerasında yüksəlişə keçmək istəməsi ilə əlaqələndirib. Makron özündən 24 yaş böyük olan keçmiş müəlliməsi ilə evlidir. Cütlük Bricit Tronyenin birinci nikahından olan üç uşağı tərbiyə etməklə məşğuldur. Hiss olunur ki, bu cür düzən Makronu tamamən qane edir. Onun ailə quruluşu və sisteminə qeyri-adi yanaşması bəzi jurnalistlərin qara zarafatlarına da zaman-zaman tuş gəlib. Amma bu məsələdə heç nə etmək olmaz - sevgi hamıya, hər şeyə qalib gəlir.

**Böyük Britaniyanın baş naziri Tereza Mey** isə Almaniya kanslerindən bir az kiçikdir - 60 yaşı var. 60 yaşlı Mey 1980-ci ildən ərdədir. Bütün bu müddət ərzində cütlük uşaq sahibi olmaq barədə düşünməyib. Amma media orqanlarından birinə verdiyi müsahibədəbaş nazir uşağının olmaması görə təəssüf hissi keçirdiyini demişdi.

İsveçin 59 yaşlı baş naziri Stefan Leven 20 ildir öz arvadı ilə tanışdır, 2003-cü ildən bəri evlidirlər. Siyasətçinin xanımının birinci ərindən iki uşağı var. Amma cütlük hələ də ortaq uşaq barədə düşünmür və elə bir planları yoxdur.

**İtaliya dövlətinin başçısı Paolo Centiloni** cəmi bir dəfə evlənib. Amma 62 yaşına qədər öz soyadını davam etdirmək istəməyib. Onun Niderlanddan olan məsləkdaşı, **50 yaşlı Mark Rütte** də subay və uşaqsızdır.

### Avropanın üç aparıcı ölkəsinin lideri "uşağa yox" deyir

Belə məlum olur ki, Avropanın aparıcı üç ölkəsinə - Britaniya, Almaniya və Fransaya uşaqsız liderlər rəhbərlik edir. Axı məhz bu ölkələr dünyada Avropa ideologiyasını yaradıb və inkişaf etdiriblər. Həmin ideologiyanın əsasında humanizm, xristianlıq və insanlara, özəlliklə də uşaqlara sevgi prinsipləri dayanır. Hazırda isə bu dəyərləri tamamilə fərqliləri əvəzləyib: tolerantlıq, dözümlülük, təkcinsli sevgi, uşaqsız dünya submədəniyyəti.

Eynicinsli nikahlar demək olar ki, bütün Köhnə Avropada icazəlidir. Bu barədə ilk qanun layihəsini Niderlandda, 2003-cü ildə qəbul ediblər. 2003-cü ildə buna Belçika, 2005-ci ildə isə İspaniya, üstündən 4 il keçəndən sonra Norveç və İsveç, 2010-cu ildə Portuqaliya və İslandiya qoşulub. Bu ölkələrin ardınca Danimarka, Fransa və Lüksemburq da sözügedən qanunu qəbul edib. Böyük Britaniyada krallığın dörddə üçü sözügedən qanunu qəbul edib. İngiltərə və Uelsdə 2013-cü ildə, Şotlandiya isə 2014-cü ildə bu siyahıya qoşulub.

Sloveniyada qanun iki il öncə, Finlandiyada isə 2014-ci ildə. Finlandiya bu məsələdə xüsusi vurğulanmağı tələb edir. Hər nə qədər qəribə görünsə də, Finlandiyanın bu siyahıda olması anlaşılandır. Çünki Finlandiyada yaxın keçmişdə zoofiliyaya icazə verilmişdi.

### Psixoloqlar rəy verir - onlar niyə valideyn olmaq istəmirlər?

Belə bir fonda qoca Avropada "çayld free" (uşaqdan azad) ideologiyası məsum bir məşğuliyyət sayılır. Amma bununla yanaşı, klassik avropalıların uşaq dünyaya gətirmək istəməməsi onların yerini bu torpaqlarda yaşayıb çoxalmaq istəyən mühacirlərə açmaları ilə nəticələnə bilər.

**Avropalı psixoloq Alena Al-As** o fakta diqqət çəkir ki, müasir Avropada uşaqdan imtina ideyası olduqca geniş yayılıb. "Tarixin heç bir dönəmində bu qədər uşaqsız lider, siyasətçi olmayıb. Hər nə qədər onların uşaqları yoxdursa, öz kontinentinin gələcəyi barədə narahat olmağa da əsasları yoxdur. Yaxın gələcəkdəki perspektivdə uşaqsızlıq özü ilə bərabər bir yüngüllük gətirir. Bu da büdcə vəsaitlərini ailələrə sərf etməmək üçün bir fürsətdir".

Avropa İttifaqı tərəfindən maliyyələşən yeni hesabat "Uşaq yoxdur, problem yoxdur" nəticəsində üzə çıxıb ki, şəxsi və mədəni faktorlar Avropada könüllü uşaqsızlıq ənənəsini stimullaşdırır. Avropalılar son illər uşaqsızlığın problemsizlik olması barədə fikirləri daha çox qəbul edirlər.

**Britaniyalı yazıçı-jurnalist Duqlas Mürrer** isə yazıb ki, Avropa öz həyatını intiharla bitirir. "Ya da ən pis halda onun rəhbərliyində dayananlar öz həyatlarını intiharla yekunlaşdırmaq istəyirlər". Dünyanın milli araşdırmalar institutunun nəticələrinə əsasən, 1970-ci illərdə dünyaya gələn avropalı qadınların dörddə biri uşaqsız qalır. Onların liderləri də bu mənada onlardan heç nə ilə fərqlənmirlər.

Məhz bu səbəbdən Türkiyə prezidenti Ərdoğan ölkəsindəki ailələrə müraciət edərək, minimum 4 uşaq sahibi olmalarını məsləhət görnüşdü. Avropalı psixoloqlar hesab edir ki, Ərdoğanın bu çağırışı əslində Avropanı üstələmək, fəth etmək mənasında edilib.

Ortaya çıxan suallardan biri də budur: adını sadaladığımız liderlər tamamilə təsadüfdən uşaqdan imtina etmiş ola bilərlərmi?

Analitiklər təsadüf versiyasını yaxına buraxmırlar. Onların fikrincə, bu, bəşəriyyətə olan inamsızlığın, yaradıcılığın faydasızlığı ilə bağlı yaranmış fikirlərin möhkəmlənməsidir. Bundan başqa, qloballaşmanın da burda payı var: insan nəyəsə, kiməsə, ailəyə, dövlətə, mədəniyyətə bağlı olmayanda daha azad olur.

Statistika mütəxəssislərinin fikrincə, Angela Merkelin uşaqsız olması simptomatikdir və doğma ölkəsindəki situasiyanı əks etdirir. Alman qadınların üçdə biri dünyaya uşaq gətirməyib. Bu da 40 faizə yaxın rəqəm deməkdir. Ölkənin müdafiə naziri Ursula fon der Lyayen deyib ki, əgər ölkədə təbii artım olmasa, o, tamamən öz mövcudluğunu itirə bilər.

İngiltərədə 1940-cı ildə doğulmuş hər doqquz qadından biri 45 yaşında uşaq sahibi olmayıb. 1967-ci ildə doğulanlara gəlincə, burda hər beş qadından birindən söhbət gedə bilər. Kainatın inkişafı üçün hər qadının öhdəsinə 2,1 uşaq düşməlidir. Amma Avropadakı heç bir millət bu göstəriciyə uyğun deyil.

**Türkiyədə uşaq sahibi olmayan siyasətçilər də az olmayıb. Ölkəyə rəhbərlik edən Mustafa Kamal Atatürk, Süleyman Dəmirəl, Bülent Ecevit, Ərdal İnönü, habelə MHP rəhbəri Dövlət Baxçalı da bu kateqoriyadandır.**

### Hitlerin uşağı - illərdir mübahisə mövzusudur

Dünya tarixində də uşaq sahibi olmayan siyasətçilər az olmayıb. Bunlardan biri də **Adolf Hitler** olub - baxmayaraq ki, onun nikahdan kənar doğulan uşağı barədə zaman-zaman mediada yazılar gedib. Hitlerin fransalı rəqqasədən qanundan kənar oğlunun dünyaya gəldiyi məlum olub. Fransalı Jan Mari Lore 1977-ci ildə özünü Hitlerin oğlu elan edir. Onun anası Şarlot Lobjua 30-cu illərdə Parisə gələrək, professional rəqqasəliklə məşğul olub.

Babası və nənəsi tərəfindən tərbiyə olunan Jan Mari sonralar tanınmış sahibkara çevrilir. Anası ölüm ayağında olarkən ona Hitlerin oğlu olduğunu bildirir. Belçikalı jurnalist Jan Pol Malder Jan Maridən qan götürərək DNK testi etdirsə də, onun Hitlerlə heç bir əlaqəsinin olmadığı ortaya çıxıb.

**Adolf Hitlerin Amerikanın Nyu-York şəhərində yaşayan qardaşı uşaqları ilginc qərar veriblər.** Onlar əsla dünyaya uşaq gətirməyəcəklərini bəyan etməklə nəsillərinin kəsildiyini deyiblər. Almaniyanın "Bild" qəzeti xəbər verir ki, Long İslandda yaşayan Brayn (42 yaş) və Luis Styuard Hyuston (62 yaş) qardaşları ilə danışıb açıqlama almağa nail olub. Adolf Hitlerin ögey qardaşı (atası Aloisin ikinci nikahından dünyaya gələn oğlu) Alois Cunior daha öncə bu soy ağacını davam etdirirmiş. Amma Brayn və Luis Styuartın "uşaq istəmirik" qərarından sonra nəslin kökü kəsiləcək. Qardaşlar bu qərarı emosiya ilə yox, məntiqlə verdiklərini deyib. Onlar Hitler nəslinin davam etməsini istəmədiklərini bildirib...

❑ **Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 228 (7117) 28 oktyabr 2018

# Bu xidmətə müraciət et, sənin əvəzinə üzr istəsinlər




Türkiyənin Əskişəhər şəhərində aralarında həkim, mühəndis və məmurların da yer aldığı bir könüllü qrupun sosial media vasitəsilə qurduğu “Üzr istəmə servisi”ni 4 ayda 10 min Özür Dileme Servisinə 4 ayda 10 min nəfər müraciət edərək, dəstək istəyib. Xidmət tamamən pulsuzdur. Burada məqsəd isə arasında küskünlük olan insanları barışdırmaqdan ibarətdir. Sistemin necə işlədiyinə gəlincə, Facebook, Instagram və Twitter kimi sosial şəbəkələrdə “Eskişehir Özür Dileme Servisi” başlığı ilə axtarış apararaq servisə müraciət etmək mümkündür. Burada yer alan telefon nömrələrinə zəng edənlər isə operatora üzr istəmək istədikləri hadisəni danışır və bunun üsullarını öyrənirlər. Bu servisə müraciət edən insanların əvəzinə isə servisin könüllüləri həmin şəxslərə zəng edib, üzr istəyirlər.



# Dırnaqlarını yediyi üçün ölümlə üz-üzə qaldı

**Britaniyanın Uestkliff-on-Si şəhər sakini qan zəhərlənməsinin ağır mərhələsində xəstəxanaya düşüb və hazırda durumu kritikdir. Bu barədə “The Mirror” nəşri xəbər verib. Yanvar ayında Riki Kennedi adlı şəxs baş barmağını sormağa başlayıb. Həmin barmağında da içi maye dolu bir şiş əmələ gəlib. 57 yaşlı kişi həkimə müraciət edib və sonuncu ona antibiotik qəbulunu məsləhət görüb. Bir neçə gün keçəndən sonra ağrı bütün bədəndə yayılmağa başlayıb və o qədər güclü olub ki, yerindən tərpənə bilməyib. Həyat yoldaşı təcili yardım çağırıb. Onda qəfil ürək tutması olmasından şübhələniblər. Kişi özü isə danışıb ki, bu dəhşətli ağrıya barmağındakı şişin səbəb olacağı ağlına belə gəlməyib: “Mənə o qədər ağır idi ki, düşünürdüm indi öləcəm”.**

Həkimlər diaqnoz qoyublar ki, Kennedidə sepsis var və indiki halda sağ qalma ehtimalı cəmi 50 faizdir. Kişini xəstəxanadan evə buraxıblar. Daha iki ay antibiotik qəbul etmək zorunda olub. Hazırda o, bir neçə xəstəlikdən əziyyət çəkir. Bunların sırasında müxtəlif bədən nahiyələrindəki eroziya, eləcə də astma və infeksion artrit var. Bununla yanaşı, Kennedi nəhayət evdə olduğuna görə çox şəndir: “Mən sağ qaldığım üçün çox şanslıyam. Mən əvvəlki qədər sağlam və güclü olmasam da, burada, ailəmlə bir yerdəyəm və əsas olan da budur”.

# Fast-fooddan imtina etdi, 114 kilo arıqladı



**Şotlandiyanın Dalmuir şəhər sakini Mark Hardi 197 kilo çəkiyə malikdir. O, arıqlamaq üçün xüsusi proqram əvəzinə, fast-fooddan imtina etmək xəttini götürüb. Kişi illərlə gündə 24 qutu çips, bir neçə şokolad və 12 litr qazlı içki içirdi. Səhər yeməyində isə 7 qaşıq şəkər tozu ilə qurudulmuş qarğıdalı yeməyi yeyirdi. Naharda ənənəvi Britaniya yeməyi fiş-end-çips, axşam yeməyində isə biq-makla çiyələkli kokteyl qəbul edirdi. Nəhayət, 31 yaşında Hardidə şəkər diabetinin ikinci növü aşkar olunub.**

Bu isə onu qida rasionunu dəyişdirməyə vadar edib. Hardi etiraf edib ki, 27 yaşında onun bədən quruluşu çox mükəmməl idi. Amma daha sonra əhvalının yaxşılaşması üçün çoxlu yemək yeməyə başladı. “Mənim psixika ilə bağlı problemlərim var idi. Məndə şəkərli diabet aşkarlayanda depressiyaya düşdüm və ölmək istədim”, bunu da Hardi deyib. Kişi qeyd edib ki, daim özünü yorğun hiss edib. 20 metr gəzmək üçün ona bir saat vaxt lazım idi. Yolboyunca da divara dəstəklənir və istirahət edirdi.

47 yaşında həkimlər ona xəbərdarlıq ediblər ki, müvafiq həyat tərzi onda ölüm təhlükəsi yaradır. Hardi qorxub və ən yaxın idman zalına gedib. Fitnes-instruktor onun üçün məxsusi olaraq qidalanma planı tərtib edib. İlyarıma kişi 114 kilo ata bilib. Həkimə müraciət edəndə məlum olub ki, o, diabetdən də qurtulub. Hazırda kişi özü ilə qürur duyur və əlavə dəridən qurtulma əməliyyatı üçün pul yığır.




**QOÇ** - Planetlərin neqativ yerdəyişməsini nəzərə alıb, hansısa qeyri-adi və yeni işlərə başlamayın. Yaxşısı budur ki, əsas vaxtınızı mənzil şəraitində keçirəsiniz. Axşama yaxınsa qonaq getmək olar.

**BUĞA** - Səhər saatlarını gərgin şəraitdə keçirsəniz də, özünüzü təmkinli aparmaqla gözlənilən xoşagəlməzliyi dəf edə biləcəksiniz. Nahardan sonra isə sevindirici hadisələrin şahidi olacaqsınız.

**ƏKİZLƏR** - Bürcünüz üçün kifayət qədər uğurlu bir gündəsiniz. Düzdür, saat 12-ə qədər müəyyən gərginlik olsa da, sonrakı müddətdə ovqatınız çox yüksək olacaq. Müəyyən sürprizlər də gözlənilir.

**XƏRÇƏNG** - Əsas enerjinizi sevgi amilinə yönəldin. Çalışın ki, hər bir kəlmənizdə, hər bir ifadənizdə özünüzə qarşı rəğbət oyadasınız. İndiki sərt cəmiyyətdə kiminsə qəlbinə dəymək məharət deyil.

**ŞİR** - Ulduzlar pulla bağlı məsələlərdə ehtiyatlı olmağı tövsiyə edir. Bir qədər qənaətcil olmağınız vacibdir. Kiməsə borc vermək və ya maliyyə sövdələşmələrinə girişmək yolverilməzdir.

**QIZ** - Nədənsə son vaxtlar sağlıq durumunuzla bağlı problemlər baş qaldırmaqdadır. Bu səbəbdən də özünüzə fikir verməli, qida rejiminə riayət etməlisiniz. Soyuq və spirtli içkilərdən uzaq olun.

**TƏRƏZİ** - Astroloji göstəricilər ümumi ovqatınızın yüksək olacağını bildirir. Maraqlı insanlarla rastlaşma ehtimalınız da böyükdür. Bununla yanaşı, göstərilən təqvimdə uzaq yola çıxmaq olmaz.

**ƏQRƏB** - Ümumi çalarlarına görə gərgin gün olsa da, özünüzü ələ almağı bacarmalısınız. Çünki qarşınızda duran perspektivlərə yetişmək üçün hansısa dedi-qoduya əhəmiyyət verməməlisiniz.

**OXATAN** - Kifayət qədər uğurlu bir gün yaşayacaqsınız. İştirakçısı olduğunuz hər bir proses yalnız zövqünüzlə uyğunluq təşkil edəcək. Özünüzə inamı artırmaqla uğurları yaxınlaşdırın.

**OĞLAQ** - Həftənin ən uğurlu gününü yaşayacaqsınız. Bir tərəfdən ailə-sevgi münasibətlərində, digər tərəfdənsə işgüzar sövdələşmələrdə vəziyyət xeyrinizə cərəyan edəcək. Hər sözünüzə diqqət edin.

**SUTÖKƏN** - Həddindən ziyadə uğurlu təqvimdir. Ələlxüsus da saat 12-16 arası bəxtiniz gətirə bilər. Həmkarlarınızla aranızda yaranmış soyuqluq da səngiməyəcək. Amma bugünkü təkliflərdən imtina etməlisiniz.

**BALIQLAR** - Fəaliyyət dairənizi genişləndirmək üçün durmadan işə başlayın. Nəzərə alın ki, bu addım karyeranız üçün böyük əhəmiyyət daşıya bilər. Pul məsələlərində isə ehtiyatlı olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Meymunla şelfi çəkdirmək təhlükəlidir



**Çinin Xaynan adasındakı Xaykou şəhərində zooparkdakı meymun ziyarətçinin telefonunu oğurlamaq istəyib. Bu barədə UPI xəbər verib. Qadın Xaynan vəhşi flora və fauna tropik bağında meymunun qabağında dayanıb şelfi etmək istəyəndə meymun onun əlindən telefonu oğurlayıb. Sahibəsi isə telefonu əlindən verməyib və iki əllə telefonu özünə tərəf dartlb. Uzun çəkməyən çəkişmə mübarizəsindən sonra qadın telefonu geri ala bilib.**

2015-ci ildə xəbər verilmişdi ki, Britaniyanın Blekpul şəhərində oranqutanlar videokameradan istifadə etməyi və şelfi çəkdirməyi öyrəniblər.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.100

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.



# Qarışmış işlər

**Zamin HACI**
zaminhaci@mail.ru

"Maddələr mübadiləsi! Lakin bu ölməzlik surroqatı ilə özünə təsəlli vermək nə böyük bir qorxaqlıqdır! Təbiətdə baş verən şüursuz proseslər insan səfehliyindən də alçaqdır, çünki səfehlikdə, necə olsa, şüur və iradə var, proseslərdə isə heç nə yoxdur".

*(Anton Çexov, "6 nömrəli palata")*

**Əslində bunu dünən yazacaqdım, yadımdan çıxdı qaldı bu günə. Prinsipcə, elə fərqi də yoxdur, bu gün yazdın, ya sabah yazdın. Onsuz iki yüz ildir bizdə problemlər dəyişmir, eyni şəkildə qalır. Zəhləmgetmiş ifadə ilə desək, aktuallığını itirmir. Söhbət isə ondadır ki, hansısa eşşək südü ferması açanlara qarşı dərhal tədbir görüldü, dövlət orqanları bunu qadağan elədilər. Ancaq içində jurnalistlər olmaqla bir dəstə adam iki ilə yaxındır Bakı ətrafında qəbiristanlıqları eşir, buna bir söz deyən yoxdur. Bu adamlar kimdən icazə alıblar, bu işin elmi, kriminal, lap elə sosial-siyasi tərəfləri necə tənzimlənir - bilən yoxdur. Bildiyimiz odur ki, bir milyonçu var, pul buraxıb jurnalistləri qəbirqazan sifətində işə cəlb edibdir (anan ölsün, Şekspir), günaşırı əcaib xəbərlər alırıq. Gah deyirlər Mircəfər Bağırovun sümüklərini tapmışıq, gah deyirlər Mikayıl Müşfiqin. Sözün əsl mənasında bardak vəziyyətdir.**

Əlbəttə, bizim indiki tarix siyasətimizi biləndə bunlar o qədər də əcaib araşdırmalar kimi görünmür. İnanmırsan AMEA Tarix İnstitutunun alimlərinin yazdığı kitabları, dərslikləri aç, bir az oxu. Görəcəksən "buşmenlərdən qottentotlara" qədər hamısı bizim həmyerlimiz olmuşdur. Ermənilərlə uzun sürən axmaq qonşuluq bizi "həmxasiyyət eləmişdir", təəssüf ki. İndi ordakı idiotlar hansısa daşı qaldırıb altından erməni əqrəbi çıxardırsa, bizim idiotlar mütləq başqa daşın altından azərbaycanlı hörümçəyin yuvasını tapmalıdır. Başqa yolu yox artıq. Sarsaq bir yarışma gedir. Bizim başımız bu mağara yarışmasına qarışarkən gürcülər gələcəyin Avropa ölkəsini qururlar.

Jurnalistlərin qəbirqazma, arxeoloji araşdırma işinə cəlbinə gələndə, burda bizim ayrı yolumuz qalmayıbdır. Keçən yazılarımda qeyd etdiyim kimi: indi dövlət özü, sağ olsun, bizim əvəzimizə yazı da yazır, reportaj da qayırır. Tam dövlət qayğısı altındayıq. Ev-eşikdən tutmuş, uşağımızın sünnətinə qədər hamısını dövlət edir. Bu prosesə şirkətlər də cəlb olunubdur. Misal üçün, qabaqlar biz hansısa qənfetin, yağın-mağın keyfiyyətini araşdırmaq üçün reportajlar, araşdırmalar edərdik. İndi şirkətlər özü bir sürü jurnalisti yığıb aparır sexə, əyinlərinə xalat taxır, hərəsinin əlinə bir qəşəng qənfet verib qaytarır. Sən də gəlirsən redaksiyaya, açırsan qənfetin kağızını, qənfetdən dişdəm ala-ala üstündəki yazıları basırsan qəzetə. Vəssalam. Oxucuya başqa nə lazımdır? Hətta bəzi supermarketlər özləri qəzet-jurnal buraxırlar, pulsuz paylayırlar. Al, bax gör xiyar turşusu keçən aya nisbətən neçəyədir, iki dənə tuman alanda üstündə neçə corab verilir və sairə. Bir hipermarket var, məni köşə yazarı götürsə məmnuniyyətlə gedərdim.

Tema açılmışkən, bu cür peşə yerdəyişmələri tək media aləminə aid deyildir. Dünən hardasa gözümə dəydi, yazmışdılar Azərbaycanda nə qədər milyonçu vardır. Guya hansısa ingilis qurumu dünyada milyonçuların sayını hesablayıb, bizdən neçə minsə adam ora düşüb və sairə. Ancaq bizdəki milyonçuların adını bilən yoxmuş. Hətta jurnalist ərinmədən Dövlət Statistika Komitəsinə üz tutub, ordan açıqlama alıb ki, bəs biz milyonçuların statistikasını aparmırıq. Cəhənnəmə aparın. Siz elə yoxsulları, işsizləri sayın. Erməni dəyirmanına su tökürlər! Hərçənd, jurnalistin savadı olsa (yəqin bu da qəbir qazırmış) o sualı DSK-ya yox, Ali Məhkəməyə, prokurorluğa, polisə verərdi. Çünki bizdə milyonçuların statistikasını bu idarələr aparır. Bir gün general Çovdarovu tuturlar, məlum olur bunun milyonları var. Çovdarovun soyduqları içində metronun köhnə rəisindən 3 milyon alıb. Nə bilim, bankiri tuturlar, təkcə arvadının Britaniyada 30 milyonun başına bir univermaqda daş saldığı bilinir. Yoxsa biz hardan bilərdik telefon idarəsində adi məftil calaşdıranlar milyonçudur? Hamısı istintaq zamanı ortaya çıxır.

**Hələ onu demirəm ki, Beynəlxalq Bankın keçmiş müdiri Cahangir müəllimə qarşı irəli sürülən ittihamlar içində seçkini saxtalaşdırmağa cəhd də var. Təsəvvür elə. Biz isə bu maddəni ayrı adamlar üçün gözləyirdik. Sən demə, bu eləyirmiş. Arvadıyla əlbir olub məktəblərə döşlərində bülleten, bellərində protokol, buynuzunda ot daşıyırmışlar. Ar olsun.**

---



# "Belə qüvvələrin başında hazırda həbsdə olan Hüseyn Abdullayevin adı çəkilirdi"

## Aynur Camalqızı: "İndiki vəziyyətdə Qarabağ mitinqi keçirməyə nə ehtiyac var? İlham Əliyevin bir çağırışı kifayətdir ki, milyonlarla insan meydanlara axın etsin"

**"Teleqraf" Media Qrupunun rəhbəri Aynur Camalqızı "Yeni Müsavat"ın "Bizim qonaq" rubrikasında gündəmin aktual mövzuları ilə bağlı suallarımızı cavablandırıb.**

**Aynur Camalqızının müsahibəsinin ikinci hissəsini təqdim edirik.**

*(əvvəli ötən sayımızda)*

***- Bir sıra hallarda belə fikirlər irəli sürülür ki, Avropadakı söyüş müxalifətinin fəaliyyəti heç də özfəaliyyət deyil, onlar başqa qüvvələrin sifarişini yerinə yetirirlər. Bu deyilənlərdə həqiqət payı varmı? O adamlar hansısa ciddi planlar qurulacaq qədər əhəmiyyətli adamlardırlar?***

- Əslində həmin adamlar o potensialda olan insanlar deyillər ki, onların üzərində hansısa bir planlar qurulsun. Amma həqiqət də ondan ibarətdir ki, bu çirkin fəaliyyətin həyata keçirilməsi üçün onlara maliyyə dəstəyi verənlər var. Onların öz şəxsi imkanları hesabına o cür fəaliyyət göstərmələri mümkün deyil. Bundan aydın görünür ki, onlara maliyyə verən qüvvələr var. Məsələn, belə qüvvələrin başında hazırda həbsdə olan Hüseyn Abdullayevin adı çəkilirdi. Düşünürəm ki, o adamlara dəstək Hüseyn Abdullayevdən də ola bilər, eyni zamanda, Azərbaycana təzyiq göstərmək istəyən qüvvələr də maliyyə yardımı ayırmaqla söyüş kampaniyasını apara bilərlər.

***- Ermənistanda hakimiyyət dəyişikliyindən sonra Qarabağ məsələsi ilə bağlı yeni bir dönəmin başlandığı, hansısa proseslərin getdiyi müşahidə edilir. Qarabağla bağlı gedən prosesləri izləyirsinizmi? Sizin müşahidələriniz və informasiyalarınız necədir?***

- Qarabağ münaqişəsi ətrafında müəyyən yeniliklər mövcuddur. Bu yeniliklər nədən ibarətdir? Nikol Paşinyan kütlənin təzyiqi ilə küçədən hakimiyyətə gəldi. İlkin dövrlərdə Paşinyanın demokratik islahatlara başlayacağı, Ermənistanın Gürcüstan və Ukrayna kimi Avropaya inteqrasiya xəttini əsas götürəcəyi düşünülürdü. Ona görə də Qərbdə Ermənistandan gözləntilər yüksək idi. Amma tezliklə aydın oldu ki, bunlar illüziyadır. Çünki Nikol Paşinyanın açıqlamaları bir-birini təkzib üzərində quruldu. O, öncə Rusiya ilə Ermənistanın əlaqələrinə qarşı çıxırdı və Avropaya inteqrasiyaya üstünlük verdiyini deyirdi. Qısa müddət sonra Rusiyanın Ermənistana münasibətinin sərtləşdiyini görüb Rusiyaya daha mülayim yanaşmağa başladı və mövqeyini dəyişdi. Bu da Qərbin xoşuna gəlmədi. Artıq gördüyünüz kimi, Qarabağla bağlı indiyə qədər bizim gözlədiyimiz və eşitmədiyimiz açıqlamalar səsləndirilir. Məsələn, bu yaxınlarda ABŞ-ın İrəvandakı səfiri Riçard Mills bəyan etdi ki, İrəvanda heç kimin Qarabağla bağlı mövqeyində yumşalma görünmür, heç olmasa onlar Dağlıq Qarabağ ətrafındakı rayonların Azərbaycana qaytarılması barədə düşünmürlər, halbuki o əraziləri Azərbaycana qaytarılmalıdır. Bundan bir müddət öncə ABŞ-ın Minsk Qrupundakı keçmiş həmsədri elə buna bənzər açıqlama vermişdi. Digər bu kimi açıqlamalar da oldu. Paşinyanla bağlı ümidlərinin doğrulmadığını görən Qərbin Qarabağ məsələsinə münasibəti artıq dəyişib. Bu, nə qədər davamlı olacaq, hadisələrin gedişi göstərəcək. Eyni zamanda Rusiya mediasında Azərbaycanla bağlı mövqe yaxşılığa doğru dəyişib. Məsələn, elə özümüzdən misal çəkəcəyəm. Bu yaxınlarda "Reqnum" agentliyində Axar.az saytının rus versiyasında dərc olunmuş bir böyük yazımız yayıldı. Orada Azərbaycanın Qarabağ məsələsində haqlı mövqeyindən söhbət gedirdi. Qarabağın işğaldan azad olunması prosesində BMT Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsi şərh edilirdi və Azərbaycan prezidentinin siyasi çəkisinə, intellektinə görə Paşinyandan müqayisəyəgəlməz dərəcədə öndə olduğundan söz açılırdı. "Reqnum" kimi media orqanında Azərbaycan haqqında bu cür yazının baş xəbərə çevrilməsi müsbət bir hadisədir.



***- Regionumuzda gedən böyük geosiyasi proseslərdə Azərbaycanın həm Rusiya, həm Amerika üçün əhəmiyyətinin artmasının da Qarabağ məsələsində Azərbaycanın mövqeyinin dəstəklənməyə başlanmasında rolu varmı?***

- Təbii ki, Ermənistana olan münasibətin dəyişməsi, Paşinyanın hakimiyyətə gəlişindən sonra Ermənistanla bağlı gözləntilərin özünü doğrultmaması paralel olaraq Azərbaycana münasibətin müsbətə doğru dəyişməsinə təkan verib. Eyni zamanda, Sizin dediyiniz amil - Azərbaycanın əhəmiyyətinin daha da artması da ölkəmizin mövqeyinin dəstəklənməsində öz rolunu oynayır. Hər bir dövlət öz maraqlarını əsas götürür. Amma sevindirici haldır ki, Azərbaycanın Cənubi Qafqaz regionunda aparıcı bir ölkə olması bu dövlətlər tərəfindən artıq daha ciddi şəkildə qəbul olunur. Baxın, İrana sanksiyalar məsələsində ABŞ açıq şəkildə bəyan elədi ki, İranla ticarət əlaqələrinə görə Ermənistanın bir çox şirkətlərinə sanksiya tətbiq ediləcək. Amma eyni tələb Azərbaycana, Azərbaycan şirkətlərinə qarşı qoyulmayıb. Bunun özü müsbət bir hadisədir və düşünürəm ki, Amerikanın Azərbaycana olan münasibətinin göstəricisidir. Digər bir məsələ də ondan ibarətdir ki, Əfqanıstana yük daşımalarına Rusiya öz hava məkanını bağlayıb. Bu amil də Azərbaycanın əhəmiyyətini artırır. Ölkəmizin əhəmiyyətinin bu qədər artmasının sonucda Dağlıq Qarabağ probleminin həllinə müsbət təsirinin olacağını gözləyirik. İndi bilirsiniz ki, Ermənistanda vəziyyət həddən artıq qeyri-müəyyəndir. Növbədənkənar parlament seçkilərinə artıq start verilib. Vəziyyət kritikdir. Hətta radikal, hərbi qrupları olan partiyalar Nikol Paşinyanla ultimatumla danışırlar, ölkədə üsyan çıxaracaqları ilə hədələyirlər. Açıq şəkildə bəyan ediblər ki, parlamentdə yer tutmayacaqları halda toqquşmalar qaçılmaz olacaq. Yəni Ermənistanda vəziyyətin necə olacağı hələ aydın deyil. Paşinyan Qərbin, Avropanın gözləntilərini doğrulda bilmədiyi kimi, öz xalqının da gözləntilərini doğrulda bilməyib. Köhnə hakimiyyətdən əhali çox narazı idi. Buna görə də Paşinyanın hakimiyyətə gəlməsinə dəstək verdilər. Paşinyan hakimiyyətə gələndə Ermənistanda demokratiya quracağını, korrupsiyanın kökünü kəsəcəyini vəd etmişdi. Amma aradan 6 aya yaxın keçib, Ermənistanda vəziyyət yaxşılaşmaq əvəzinə daha da pisləşib. Bu yaxınlarda Ermənistanın keçmiş maliyyə naziri erməni mediasına açıqlamasında deyirdi ki, korrupsiyanın qarşısını Paşinyan doğrudan da ala bilibsə, Ermənistanda büdcəyə daxilolmalar artmalı idi. Amma 2019-cu il büdcəsində vergi daxilolmalarının 2018-ci illə müqayisədə daha az olduğu üzə çıxdı. Buna görə də iqtisadçılar 2019-cu il büdcəsini "əsl korrupsiya büdcəsi" adlandırdılar. Bu da ondan xəbər verir ki, əslində Nikol hakimiyyətə gələndən sonra Ermənistanda korrupsiya aradan qalxmayıb. Sadəcə əl dəyişməsi baş verib: əvvəl Serj Sərkisyanın adamları korrupsiya ilə məşğul olurdusa, indi bu işi Paşinyanın çevrəsi həyata keçirir. Bu vəziyyət isə dekabrda keçiriləcək parlament seçkilərinin nəticələrinin necə olacağını qeyri-müəyyən edir. Xalq gözləyirdi ki, Paşinyan böyük iqtisadi islahatlar həyata keçirəcək, iqtisadiyyat inkişaf edəcək. Lakin aradan bu qədər vaxt keçsə də, aydın olur ki, Paşinyanın iqtisadi vəziyyəti düzəltmək üçün heç bir proqramı yoxdur. Demokratiya haqqında deyilənlər də artıq insanları xəyal qırıqlığına uğradır. Çünki Paşinyan bütün addımları ilə göstərir ki, o, demokratik lider imicindən uzaq siyasətçidir. Onun atdığı addımlar ölkəni diktaturaya aparır. O, hər şeyi güc yolu ilə, təzyiqlə edir, fəaliyyəti ancaq rəqiblərini sıradan çıxarmaqdan ibarətdir. Görünən odur ki, Paşinyan qisasçı siyasət yeridir. Amma tarix də onu göstərir ki, qisasçı hakimiyyətlər xalqın dəstəyini qısa müddətdə itirirlər.

***- Belə çağırışlar da var ki, Ermənistandakı bu qeyri-müəyyənlikdən, qarışıqlıqdan Azərbaycan istifadə edib hərbi əməliyyatlara başlayıb torpaqlarımızı azad etsin. Necə ki, 1993-cü ildə Azərbaycandakı qarışıqlıqdan Ermənistan fürsət olaraq yararlandı və rayonlarımızı işğal etdi. Sizcə, biz Ermənistandakı qarışıqlıqdan fürsət olaraq yararlanmalıyıq, yoxsa gözləməliyik Ermənistanda qeyri-müəyyənlik aradan qalxsın, "sular durulsun" və Paşinyan hakimiyyətini möhkəmlədib arxayın hərəkət etməyə başladıqdan sonra sülh yolunda real addımlar atılsın?***

- Azərbaycan ordusu hər zaman müharibəyə hazırdır. Bizim hərbi gücümüz, iqtisadi imkanlarımız, haqlı mövqeyimiz hərbi əməliyyatlara başlamağa imkan verir. Yaxın keçmişdə Aprel döyüşləri bir daha bunun sübutu idi. Ordumuz istənilən vaxt torpaqlarımızı azad eləmək qüdrətindədir. Amma bunun üçün təbii ki, siyasi, qlobal şərait yetişməlidir və ən ideal vaxtı da Prezidentimiz müəyyən edəcək. Paşinyan hələ ki siyasi oyunlar oynamaqla məşğuldur. Özünü ABŞ-a demokratik lider kimi təqdim eləməyə çalışır, o biri tərəfdən Rusiya ilə oynayır, o biri tərəfdən isə erməni xalqını da aldatmaqla məşğuldur. Məqsədi odur ki, rəqiblərini tamamilə zərərsizləşdirmək və hakimiyyətinə ola biləcək təhlükələrdən xilas olmaq üçün vaxt qazansın. Dekabrda növbədənkənar parlament seçkilərinə getməsi də bununla bağlıdır. Əgər dekabrda parlamentdə üstünlüyü ələ ala bilsə və hakimiyyətini qura bilsə, ondan sonrakı ilk aylarda bəlli olacaq ki, Paşinyan Qarabağ məsələsinin sülh yolu ilə həllini istəyir, yoxsa yox. Yəqin ki, Azərbaycan üçün də məhz o zaman hər şey tamamilə bəlli olacaq.

***- Ermənistanda Qarabağ məsələsi barədə ABŞ səfiri demişkən, heç kim düşünmədiyi halda, Azərbaycanda hər kəs Qarabağ məsələsi barədə fikirləşir. Bir qrup ictimai, siyasi ranqlı şəxslərin yaratdığı Qarabağ Komitəsi isə Qarabağa azadlıq tələbi ilə mitinq keçirir. Artıq hakimiyyətin razılığı ilə bir mitinq keçirilib və ikinci mitinqi təyin ediblər. Qarabağ mitinqlərinə münasibətiniz necədir? Mitinqə ehtiyac varmı?***

- Qarabağ məsələsində hakimiyyətlə xalqın yanaşması arasında fərq yoxdur. Hakimiyyət məgər Qarabağı azad etmək istəmir? Təbii ki, istəyir. Hər bir lider istəyər ki, ölkəsinin işğal altında olan ərazilərini azad eləsin və adı tarixə yazılsın. Prezident İlham Əliyevin bəyanatlarından aydın görünür ki, o, Azərbaycan xalqının dəstəyindən, potensialından istifadə edərək istər güc yolu ilə, istər sülh yolu Qarabağ münaqişəsinin tezliklə həll olunması üçün var gücü ilə çalışır. Amma bu Qarabağ mitinqlərinin məqsədi, məramı nədən ibarətdir? Açığı burada mən bir konkret aydınlıq görmürəm. Əgər hakimiyyət Qarabağ məsələsində xalqın düşüncəsindən fərqli bir mövqe nümayiş elətdirsəydi, o zaman bu mitinqlərin bir ciddi anlamı olardı. Ancaq indiki vəziyyətdə bu mitinqlərə zərurət yoxdur. Artıq bir mitinq keçirilib və həmin mitinqdə dünyaya, Ermənistana, xalq hansısa bir ciddi, yaddaqalan mesajlar oldumu? Hesab edirəm ki, təsirli bir aksiya olmadı. Ona görə də bu cür aksiyaları keçirməkdənsə, Azərbaycanın müharibəyə hazırlığına, diplomatik və informasiya müharibəsinə dəstək vermək daha məqsədəuyğun olar.

***- Hakimiyyətə yaxın şəxslər deyirlər ki, prezident çağırış etsə, mitinqə milyonlarla insan qatılar. Sizcə, milyonlarla insanın Qarabağ mitinqinə çıxdığı mənzərəsi elə hakimiyyətə daha çox lazım deyilmi?***

- Hakimiyyətin buna ehtiyacı yoxdur. Əgər ehtiyac olsaydı, bunu edərdilər və həqiqətən də milyonlarla insan meydana axışardı.

***- 2012-ci ildə Xocalı soyqırımının 20 illiyində prezident İlham Əliyevin öndə getdiyi və yüz minlərlə insanın qatıldığı Xocalı yürüşü oldu. Bax indi Qarabağla bağlı belə bir yürüş olsa, beynəlxalq arenada səsimizin eşidilməsi baxımından daha yaxşı olmazmı?***

- Bütün hallarda o fikirdəyəm ki, bu cür addımları o halda atmaq olardı ki, beynəlxalq aləmdə vəziyyət Azərbaycanın zərərinə olsun. İndi vəziyyət tamamilə Azərbaycanın xeyrinə dəyişib. Odur ki, belə bir vəziyyətdə mitinq keçirməyə nə ehtiyac var? Şübhəsiz ki, İlham Əliyevin bir çağırışı kifayətdir ki, milyonlarla insan meydanlara axın etsin və Qarabağ şüarı səsləndirsin. Bu gün buna ehtiyac duyulmur. Əmin olun ki, ehtiyac olsa, hakimiyyət bu addımı atardı. Azərbaycan dövləti kifayət qədər güclüdür, çox geniş, şaxəli və dəqiq siyasət həyata keçirir və zamanlamanı çox gözəl bacarır.

***- Aynur xanım, Siz sosial şəbəkələrdən də aktiv istifadə edən bir şəxssiniz, övladlarınızla birlikdə fotolarınızı tez-tez paylaşırsınız? Bunlar sadəcə bir epizoddur, yoxsa gerçəkdən kifayət qədər vaxt ayıra bilirsiniz?***

- Sosial şəbəkələr bizim həyatımızı əslində olduğundan daha parlaq təqdim edir. Yəni oradakı fotolar, üzdə təbəssüm elə təəssürat yaradır ki, sanki bizim kifayət qədər vaxtımız, istirahətə, övladlarımıza ayırmağa zamanımız var. Siz özünüz də jurnalistsiniz və özünüz də bilirsiniz, təəssüflər olsun ki, bizim bütün günümüz belə keçmir. Gərgin iş, əsəb, zehni yorğunluq, stress, tədbirlər - günümüzün çoxu bu cür keçir. Bəzən elə olur ki, mən işlərimi yekunlaşdırıb evə gedəndə övladlarım yatmış olurlar. Səhər isə tezdən oyanıb dərsə gedirlər. Uşaqlar bundan narazılıq da edirlər. Məsələn, oğlumun müəllimi mənə bu yaxınlarda bildirdi ki, Aydın deyir, mən anamı çox özləyirəm, anam bizə çox az zaman ayırır. Mənə çox pis təsir elədi ki, görün iş-güc bizi övladlarımızdan necə uzaqlaşdırır. Neçə gün ard-arda getdim, uşağı məktəbdən özüm götürdüm. Həm işləmək, həm analıq missiyasını yüz faiz yerinə yetirə bilmək çox çətindir.

❑ **Hazırladı: Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**



---



# "Skripal işi"nə görə sanksiya tətbiq edən Qərb Qaşıqçı işində susur - müəmma

## Ekspert: "Səudiyyə Ərəbistanının ABŞ və Qərb üçün daha böyük əhəmiyyəti regional faktora görədir"

**Bir zamanlar "Skripal işi" ilə bağlı Rusiyaya qarşı ciddi sanksiyalar tətbiq edən, bu ölkənin diplomatlarını, biznesmenlərini geri göndərən ABŞ, nədənsə Qaşıqçı olayı ilə bağlı Səudiyyə Ərəbistanına təzyiq göstərmir. Belə görünür, ABŞ prezidenti Donald Tramp krallıqla münasibəti korlamaq fikrində deyil. O, həmçinin Ər-Riyad hökumətinin ABŞ-dakı sərmayələrini itirmək istəmədiyini söyləyib.**

"Yeni Müsavat"a danışan **politoloq Mübariz Əhmədoğlu** bildirdib ki, Qərblə Səudiyyə Ərəbistanı arasında indiyə qədər ciddi mübahisə yaşanmayıb: "Səudiyyə Ərəbistanı da tarixində demokratiya, insan hüquqları mövzusu olmayıb. Ancaq demokratiya və insan hüquqlarının bu dərəcədə pozulması halına da rast gəlinməyib. Ən azından Qərbdə bilirdilər ki, Səudiyyə Ərəbistanında kral ailəsinin, eləcə də orada yaşayan əhalinin müəyyən bir yaşayış tərzi var və bununla da hesablaşırdılar. Rusiya isə tamamilə başqa vəziyyətdədir. 1945-ci ilin Yalta konfransından dərhal sonra Qərblə SSRİ-nin arasında "Soyuq müharibə" başladı. Sonda da, bəlli olduğu kimi, SSRİ uduzdu. Qərbin Rusiyaya qarşı təzyiq siyasəti və indiki halda Səudiyyə Ərəbistanına qarşı apardığı siyasət kökündən fərqlidir. ABŞ, bütövlükdə Qərb, Səudiyyə Ərəbistanını demokratik dövlət etmək istəmir. Düşünmürlər də ki, Səudiyyə Ərəbistanı demokratik dövlət olacaq. Orada insan hüquqlarının pozulması halları da ABŞ üçün maraqlı deyil. Sadəcə, ABŞ, Avropa dövlətləri Səudiyyə Ərəbistanında hakim ailənin davranışını korrektə etmək istəyirlər. Çünki hazırda Yaxın Şərqdə ABŞ-ın əlində Səudiyyə Ərəbistanından başqa faktor yoxdur. Bizim əksər adamlar elə başa düşürlər ki, Səudiyyə Ərəbistanı ABŞ, Qərb üçün neft çəlləyidir. Əslində isə bu, belə deyil. Təkcə neft çəlləyi deyil. Səudiyyə Ərəbistanının neft mənbəyindən əlavə, Qərb üçün iki böyük rolu var. Bu rollardan biri "soyuq müharibə" dövründə də müşahidə etdiyimiz kimi neftin qiyməti ilə bağlıdır. Neftin qiymətini aşağı saldılar, SSRİ çökdü. İndi də Səudiyyə Ərəbistanı Qərbə təkliflər verir ki, istəsəniz Rusiyanı, İranı çökdürək. Səudiyyə Ərəbistanı indiki davranışları ilə artıq Qərbin böyük sifarişlərini yerinə yetirə bilməyəcək".

**Ekspertə görə, hazırda Səudiyyə Ərəbistanı uçuruma doğru gedir:** "Səudiyyə Ərəbistanının ABŞ və Qərb üçün daha böyük əhəmiyyəti regional faktora görədir. Faktiki olaraq oradan Misiri çıxarsaq, qalan bütün ərəb dövlətləri bu və ya digər dərəcədə Səudiyyə Ərəbistanının birbaşa tabeçiliyi altındadır. Qətərin davranışına aludə olmaq lazım deyil. Səudiyyə Ərəbistanı bu dövlətə qarşı hədsiz təzyiqlər etdi. Qətər də Səudiyyə Ərəbistanından uzaqda gedə bilməyəcək. İndi Səudiyyə Ərəbistanının kral ailəsi bu cür davranışları ilə dövləti sıradan çıxarır. Yeni şahzadə hakim ailənin daxilində çoxlu ziddiyyətlər yaradır. ABŞ qorxur ki, Səudiyyə Ərəbistanı regional faktor kimi sıradan çıxacaq. Yəni bunlar İrana qarşı necə siyasət aparacaqlar? ABŞ baş verənlərə hazır deyil. Ona görə də ABŞ-ın əsas məqsədi Səudiyyə Ərəbistanının kral ailəsinə təzyiq edib, onu diz çökdürməkdir. Lakin eyni zamanda istəyirlər ki, kral ailəsi hakimiyyətdə qalsın. ABŞ Səudiyyə Ərəbistanı hakimiyyətini formal olaraq saxlayacaq, əslində isə bütün təlimatları özü verəcək. Hesab edirəm, Məhəmməd Salmanın "yaxın 5 ildə Yaxın Şərq Avropaya çevriləcək" deməsi artıq mesajdır ki, o, Qərbin ssenarisini qəbul edib. Məhəmməd ibn Salman Avropaya çevrilmək istiqamətində Qərbin bir-iki göstərişini yerinə yetirib, orada qadınlara azadlıq verib, bəzi dövlətlərlə münasibətlərini dəyişib. Belə başa düşürəm ki, yaxınlarda Amerika Məhəmməd ibn Salmandan daha dəqiq təminatlar almaqla, onu hakimiyyətdə saxlayacaq. Yəni bütövlükdə ABŞ, Qərbin Səudiyyə Ərəbistanına olan təzyiqinin mahiyyətində bu dayanır. Ancaq Rusiyaya münasibət fərqlidir. İmkanları olsa, Rusiyanı tamamilə sıradan çıxararlar. Qaşıqçı olayı əslində ABŞ üçün geniş imkanlar yaratdı ki, Səudiyyə Ərəbistanına və Türkiyəyə təzyiq etsin. Ancaq bu məsələdə Türkiyə prezidenti Rəcəb Tayyib ƏRdoğan çox adekvat oynadı. Məsələni öncədən gördü və keşiş Bransonu da azadlığa buraxdı. Başa düşdü ki, ABŞ bu vəziyyətdən istifadə edib, Yaxın Şərqdəki siyasətini dəyişir və bu fonda o, Türkiyəni təzyiqlərdən uzaqlaşdıra bildi".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**